www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu   Gündəlik qəzet 10 dekabr 2014-cü il  Çərşənbə   № 301  (6010)  Qiyməti  40 qəpik

**Xəbər**

## Ev almaq istəyənlərə şad xəbər: mənzillər ucuzlaşıb

yazısı səh.13-də

**Gündəm**

### Avropanın Türkiyəni Rusiyadan qoparma projesi



Ankara-Moskva yaxınlaşması Qərb paytaxtlarını bərk narahat edir; qardaş ölkənin Avropa Birliyinə üzvlüyü tezləşdirilə bilər, indi onun əlində yeni və mühüm bir təzyiq rıçaqı da var...

yazısı səh.9-da

### Müsavat Partiyasında ciddi mitinq hazırlıqları gedir

yazısı səh.3-də

### Əfv Komissiyası yaxın günlərdə toplaşacaq

yazısı səh.4-də

### Taleh Heydərov "Qəbələ"nin baş məşqçisini qovdu

yazısı səh.2-də

### Tural Mustafayevin "intihar şousu" barədə ilginc detallar və foto-fakt üzə çıxdı

yazısı səh.10-da

### ABŞ səfirliyi Ramiz Mehdiyevin məqaləsinə təmkinli cavab verdi

yazısı səh.9-da

### Çin dünya liderinə çevrilə biləcəkmi?

yazısı səh.8-də

### Rauf Mirqədirovun şikayəti təmin edilmədi

yazısı səh.4-də

### "Sevil Massivi"ndə zərərçəkənlər aksiya keçirməyə hazırlaşır

yazısı səh.13-də

### MTN 11 nəfərlik narkobanda yaxaladı

yazısı səh.14-də

### Banka yatırılan əmanətlərin cəmi 30 faizi sığortalanır

yazısı səh.12-də

### Ağcabədidə arvadını qonşusuna qısqanan kişi öldürüldü

yazısı səh.14-də

## Həbsdəki jurnalistin işindəki "açar fiqur" danışdı

# XƏDİCƏ İSMAYILIN RƏFİQƏSİNDƏN GÜNDƏMİ DƏYİŞƏCƏK AÇIQLAMALAR

**Aynur İmranova:** "Turalı ilk gündən Xədicənin yanına məqsədli şəkildə yerləşdiriblər"; "Hara gedirdiksə, Tural zəng edib yanımıza gəlirdi..."; "Evimizə kamera da qoymuş ola bilər, hər şey də edər..." ; "Nişanlısını bir neçə dəfə, pis formada döyüb"



yazısı səh.5-də

## Qubad İbadoğlu şok korrupsiya faktları açıqladı

İqtisadçı alimin təqdim etdiyi statistikaya görə, 2008-2013-cü illər ərzində idxal əməliyyatları zamanı 21,5 milyard dollar mənimsənilib; ən yüksək göstərici 2013-cü ildə qeydə alınıb - 4,9 milyard dollar

yazısı səh.10-da



Əli Əkbər

### Bütün pislər türməyə

yazısı səh.4-də



*Həsrət Rüstəmov:*

### "Əli Kərimli gəncləri qabağa verib söyüşə öyrətməsin..."

yazısı səh.6-da



### Deputat Elton Məmmədovun yarmarkası iflas edir

yazısı səh.15-də

YENİ MÜSAVAT
N 301 (6010) 10 dekabr 2014



# Prezident Balakəndə yol tikintisinə 2,9 milyon manat ayırdı

**Azərbaycan prezidenti İlham Əliyev Balakən rayonunun Balakən-Sarıbulaq-Qabaqçöl-Xalatala avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb. APA-nın məlumatına görə, 40 min nəfər əhalinin yaşadığı 15 yaşayış məntəqəsini birləşdirən Balakən-Sarıbulaq-Qabaqçöl-Xalatala avtomobil yolunun tikintisinin davam etdirilməsi məqsədi ilə dövlət büdcəsindən Balakən Rayon İcra Hakimiyyətinə 2,9 milyon manat ayrılıb.**

Maliyyə Nazirliyinə müvafiq məbləğdə maliyyələşməni təmin etmək, Nazirlər Kabinetinə isə sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

# Səfər Əbiyev danışdı: "Deyilənlər yalandır..."



Səfər Əbiyev

**Azərbaycan Respublikasının sabiq müdafiə naziri Səfər Əbiyev mətbuatda ev dustağı olması ilə bağlı yayılan xəbərlərə aydınlıq gətirib. Keçmiş nazir azvision.az-a eksklüziv açıqlamasında haqqında deyilənlərin yalan olduğunu bildirib.**

"Yayılan xəbərlər yalandır. Hər şey yaxşıdır. İndi vaxtım yoxdur, bu məsələlər haqda danışmağa". S.Əbiyev hazırda istirahət etdiyini, səhhətinin normal olduğunu da qeyd edib:

"Hər şey yaxşdır. Səhhətimdə heç bir problem yoxdur. Narahat olmayın".

Qeyd edək ki, yerli mətbuatda yayılan bəzi məlumatlara görə, keçmiş müdafiə naziri Səfər Əbiyevin ölkə xaricinə çıxmasına qadağa qoyulub.

# Misirdə Azərbaycan səfirliyi bağlana bilərmi?

## Hikmət Hacıyev: "Səfirliyimiz adi iş rejimində fəaliyyətini davam etdirir"



Hikmət Hacıyev

**Xəbər verildiyi kimi, bəzi ölkələr Misirdə yerləşən səfirliklərini bağladıqlarını bəyan ediblər. İngiltərənin ardından dekabrın 9-da Kanada və Almaniya da Qahirədəki səfirliklərini qapatdıqlarını bildiriblər.**

Səfirliklərin fəaliyyətinin dayandırılması təhlükəsizlik tədbirləri ilə əlaqələndirilir.

Azərbaycanın bu məsələdəki mövqeyi ilə maraqlandıq.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev Azərbaycan səfirliyinin Misirdə fəaliyyətini davam etdirdiyini bildirdi: "Liviyada buna bənzər hadisə yaşanmışdı. Hazırda onu qeyd edə bilərəm ki, Azərbaycanın Misirdəki səfirliyi adi iş rejimində fəaliyyətini davam etdirir. Ümumiyyətlə, səfirliyimizin təhlükəsizliyi ilə əlaqədar tədbir görülür. Başqa şərh vermək tezdir".

❑ **Cavanşir ABBASLI**

# Moldovada deputatın meyiti tapıldı



**Dekabrın 9-da Moldova parlamentinin deputatı İon Butmalayın meyiti tapılıb. "Media forum" saytı xəbər verir ki, Butmalayın meyitini Kaqul şəhərindəki evinin həyətində arvadı aşkarlayıb. Məlumata görə, Butmalay sinəsindən aldığı güllə yarasından keçinib. İstintaq deputatın intihar etməsi versiyasını da nəzərdən keçirir.**

50 yaşlı Butmalay əvvəllər Kaqulun polis rəisi və rayon başçısının müavini vəzifələrini tutub. Liberal Demokrat Partiyasından deputat olan Butmalay hakimiyyətin yüksək eşelonunda, ədliyyədə və hüquq-mühafizə orqanlarında korrupsiya hallarını tənqid etməsi ilə tanınırdı.

# Qubada icma sədrinin evinə basqının təfərrüatları açıqlandı









**Dağ Yəhudiləri İcmasının rəhbəri Boris Simanduyevin evinə basqın edənlərin hamısı saxlanılıb. ANS PRESS-in bölgə müxbiri evə basqın edənlərin eksklüziv olaraq görüntülərini təqdim edir.**

Qeyd edək ki, dekabrın 6-da saat 06 radələrində üzlərinə maska taxmış 3 naməlum şəxs qanunsuz yolla Quba rayonunun Qırmızı qəsəbə sakini, Dağ Yəhudiləri İcmasının rəhbəri Boris Simanduyevin evinə daxil olaraq onu və bacısı Lizanı soyuq silahla hədələyib müxtəlif dərəcəli bədən xəsarətlər yetirib. Mənzildən külli miqdarda pul və qızıl-zinət əşyaları götürərək hadisə yerini tərk ediblər.

Faktla bağlı Quba Rayon Polis Şöbəsində Cinayət Məcəlləsinin 181.3.2-ci (quldurluq) maddəsi ilə cinayət işi başlanıb.

Cinayətin "isti izlər"lə açılmasını təmin etmək məqsədilə həyata keçirilən təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri və istintaq hərəkətləri nəticəsində hadisəni törədənlər 34 yaşlı Qırmızı qəsəbə sakini Eldar Avadyayev, 39 yaşlı Bakı sakini Xalid Seyidov, 29 yaşlı Şirvan sakini Coşğun Əliyev və Türkanə Rəhimova polis əməkdaşları tərəfindən tutulublar.

Evdən aparılmış pul və qızıl-zinət əşyaları maddi sübut kimi götürülərək istintaq təhvil verilib.

ANS PRESS-in bölgə müxbirinə verdiyi açıqlamada Eldar Avadyayev bildirib ki, etdiyi əmələ görə peşman deyil. Türkanə Rəhimova isə bildirib ki, ilk əvvəl oğurluğa getmələrindən xəbərsiz olub. Maşında yatıbmış. Sonradan hadisə barədə xəbərdar olub. Lakin polisə bu barədə məlumat verməK istəməyib. Çünki Xalid Seyidovla yaxınlıqları olub. "Xalid Seyidov mənim 7 illik tanışımdır. Adam 7 illik tanışını satarmı?", - deyə Türkanə Rəhimova bildirib. Faktla bağlı əməliyyat-axtarış tədbirləri davam etdirilir.



# "Yeni Müsavat"ın əməkdaşları prokurorluğa çağırıldı

**"Yeni Müsavat" qəzetinin əməkdaşları Sevinc Telmanqızı və Emil Salamoğlu Bakı şəhər Prokurorluğuna çağırılıblar.**

Jurnalistlər AzadlıqRadiosunun əməkdaşı Xədicə İsmayılın həbsi ilə bağlı aparılan istintaq prosesinə görə prokurorluğa çağırılıb. Axşam saatlarında prokurorluqda olan Emil Salamoğlu lent.az-a açıqlamasında deyib ki, onu Bakı şəhər prokurorunun müavini Azər Əsgərov qəbul edib: "Tural Mustafayevlə bağlı mənim aldığım müsahibədə istintaq sirrini yaydığıma görə mənə xəbərdarlıq olundu. Mən də onların diqqətinə çatdırdım ki, "KİV haqqında" Qanuna əsasən, jurnalistin məlumat əldə etmək və yaymaq hüququ var. İstintaq sirri barədə qarşı tərəf fikirləşməli idi. Mənə istintaqın gedişinə mane olacaq materiallarla bağlı gələcəkdə diqqətli olmaq tapşırıldı".

Sevinc Telmanqızı isə lent.az-a açıqlamasında bildirib ki, o, Bakı Şəhər Prokurorluğuna çağırılsa da, getməyib.

# Gədəbəydə gənci ölümcül döydülər

**Gədəbəy rayonunda kütləvi dava baş verib. Gədəbəy Rayon Polis Şöbəsindən ANS PRESS-ə verilən məlumata görə, dava zamanı bir nəfər ölümcül düyülüb. Hadisə Dəyirmandağ kəndində olub. Kənd sakini 23 yaşlı Elşən Alıyev dava zamanı möhkəm döyülüb. Onu ölümcül vəziyyətdə xəstəxanaya yerləşdiriblər. Vəziyyəti ağır olduğundan onu reanimasiya şöbəsinə yerləşdiriblər. Hadisəni araşdıran müstəntiq Ramiz Əliyev ANS PRESS-ə açıqlamasında davada bir neçə şəxsin iştirak etdiyini bildirib. Onun sözlərinə görə, hazırda davanın səbəbləri və dava iştirakçılarının kimliyi dəqiqləşdirilir.**

Faktla bağlı araşdırma aparılır.

# ABU-nun dekanının işi məhkəməyə göndərildi





**Azərbaycan Beynəlxalq Universitetinin vəzifəli şəxslərinin qanunsuz əməlləri barədə Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində istintaq edilən cinayət işinin materiallarından həmin universitetdə dekan vəzifəsində işləmiş İsmayıl Məmmədovun barəsində ayrıca icraata ayrılmış cinayət işinin istintaqı yekunlaşıb.**

Baş Prokurorluqdan "Qafqazinfo"ya verilən məlumata görə, istintaq zamanı universitetin Dövlət və bələdiyyə idarəetməsi, Tarix və ictimaiyyət fakültələrinin dekanı vəzifəsində işləmiş İsmayıl Məmmədovun Elşad Abdullayev və qeyriləri ilə qabaqcadan əlbir olması müəyyən edilib.

Onlar külli miqdarda rüşvət almaq məqsədilə Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının xətti ilə imtahan verərək ali məktəblərə qəbul oluna bilməyən ayrı-ayrı şəxslərin Ukrayna və Rusiya Federasiyasının müxtəlif ali təhsil müəssisələrində təhsil almaları barədə məzmununa bilə-bilə yalan məlumatlar daxil edilmiş rəsmi sənədləri tərtib ediblər.

Təhsil Nazirliyinin razılığı olmadan Azərbaycan Beynəlxalq Universitetinin müxtəlif fakültələrinə II kursdan köçürülmələrini aparmaqla həmin şəxslərdən 68 min 300 manat məbləğində pulu rüşvət kimi almasında şübhələr üçün əsaslar olduğundan ona Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda), 311.3.1 (qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən rüşvət alma) və 311.3.2-ci (təkrar rüşvət alma) maddələri ilə ittiham elan edilib.

Cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

Hazırda Azərbaycan Beynəlxalq Universitetinin sabiq rektoru Elşad Abdullayev və qeyriləri barədə Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

# «Meydan TV»nin Bakı ofisi fəaliyyətini dayandırdı

**"9 dekabr 2014-cü il tarixindən etibarən "Meydan TV"nin Bakı bürosu öz işini dayandırır. Buna səbəb Azərbaycanda söz və ifadə azadlığının boğulması, müstəqil mediaya edilən təzyiqlərdir". Bu məlumat «Meydan TV»nin saytında yerləşdirilib.**

"Meydan TV" rəhbərliyi bəyan edir ki, əməkdaşlarının təhlükəsizliyini təmin etmək üçün bu addımı atmağa məcburdur.

# Dəm qazı Bakıda daha bir can aldı

**Bakıda daha bir şəxs dəm qazından zəhərlənərək ölüb. Yasamal Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, hadisə ikinci Alatava, ev 18-də qeydə alınıb.**

Bakı şəhər sakini, 1989-cu il təvəllüdlü Noxonova Nadejda Vladislavovna yaşadığı evin hamamında dəm qazından boğulub.

# Taleh Heydərov baş məşqçini qovdu

**"Qəbələ" klubunun baş məşqçisi Dorinel Muntyanu istefaya göndərilib. "Qafqazinfo" sportnet.az-a istinadən xəbər verir ki, bu barədə ötən gün klubdaxili iclasda qərar qəbul edilib. Rumıniyalı mütəxəssislə müqavilə qarşılıqlı razılıq əsasında pozulub. Rəsmi qərarın bu gün açıqlanacağı gözlənilir. Muntyanunun qovulmasına komandanın bu mövsüm qeyri-sabit çıxışı səbəb olub. Rəhbərliyin səbr kasası Premyer Liqanın XV turunda "Xəzər Lənkəran"a 0:3 hesablı məğlubiyyətdən sonra daşıb.**

Qeyd edək ki, Dorinel Muntyanu "Qəbələ"yə iyunun 15-də baş məşqçi təyin olunmuşdu. Onun müqaviləsi 1 il müddətinə nəzərdə tutulmuşdu. Muntyanunun rəhbərliyi altında "Qəbələ" Avropa Liqasında elə ilkin təsnifat mərhələsindəcə mübarizəni dayandırıb, Premyer Liqada isə 15 turdan sonra 14 xalla 6-cı pillədə qərarlaşıb.

Xatırladaq ki, "Qəbələ" FK-nın prezidenti fövqəladə hallar naziri Kəmaləddin Heydərovun oğlu Tale Heydərovdur.

# Ukrayna Rusiyaya qarşı daha bir iddia qaldırdı

**Ukrayna Rusiya tərəfindən terrorizmlə mübarizə konvensiyasının pozulması ilə bağlı Avropa Məhkəməsində daha bir iddianın qaldırılması proseduruna başlayıb.**

Musavat.com-un xarici KİV-ə istinadən verdiyi xəbərə görə, bu barədə dekabrın 9-da baş nazir Arseniy Yatsenyuk hökumətin iclasında bildirib.

"Biz bununla iddianın verilməsinə başlamışıq. Rusiya terrorçuluğu maliyyələşdirir. Buna görə cavab verməlidir" - deyib hökumət başçısı.

Baş nazir təcavüz nəticəsində yaranan itkilərə görə də Rusiyaya qarşı bir neçə iddia qaldırıldığını xatırladıb.

"Beləliklə, Avropa Məhkəməsində insan haqları ilə bağlı iki iddiamıza baxılması davam edəcək və effektli şəkildə yekunlaşacaq. Milli təhlükəsizlik təkcə əldə silahla yox, həm də məhkəmələr vasitəsilə qorunur", - deyə o, qeyd edib.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**



Yazarımız Tofiq Yaqubluya Azadlıq!

# Cındır dovşan

(Bu yazını redaksiyamıza Tofiq Yaqublunun vəkili Nemət Kərimli təqdim edib)

**Şəki həbsxanasında mənimlə bir kamerada Şükran adında bir ləzgi balası qalırdı. Cəmi 21 yaşı olan bu oğlanı da İsmayıllı hadisələri ilə əlaqədar tutmuşdular. Çox qanacaqlı, istiqanlı və mərd oğlanıydı. Təəssüf ki, o savadsızıydı. Məhkəmədəki rəzalətləri və qanunsuzluqları görəndən sonra onda bu quruluşa qarşı dərin ikrah yaranmışdı. Mənim söhbətlərim də ona ciddi təsir etmişdi. O bu quruluşun mahiyyətini tam dərk etmişdi. Lakin bayaq dediyim kimi, savadsız olduğu üçün onu təsvir edəndə vulqar ifadələrdən, jarqonlardan və məişət dilindən istifadə edirdi. Nəticədə həqiqəti tam əks etdirən, amma çox gülməli söhbət alınırdı.**

Bir dəfə Şükran dedi ki, həbsdən çıxandan sonra Avropaya mühacirət etmək istəyir. Bu məsələdə ona məsləhət verməyimi istədi. Bildirdim ki, bu iş haqqında ümumi təsəvvürlərim var. Dəqiq bildiyim odur ki, inkişaf etmiş Avropa ölkələrində sığınacaq və ya vətəndaşlıq almaq çox çətindir. Ölkəsində açıq repressiyalara məruz qalmış insanlar belə, orada hələm-hələm asan yerləşə bilmirlər. Lakin Şükran inadından dönmürdü, deyirdi ki, alınıb-alınmayacağından asılı olmayaraq mütləq mühacirət edəcək. Bundan sonra ordan-burdan eşitdiyi konsentrasiya düşərgələri haqda suallar verməyə başladı. Bildirdim ki, əgər sən hər hansı ölkədə qalıb sığınacaq istəsən, əvvəlcə səni belə düşərgələrin birində yerləşdirəcəklər. Orada səni yatmaq yeri və yeməklə təmin edəcəklər, üstəlik də minimum xərclərini ödəmək üçün cüzi miqdarda olsa da pul da verəcəklər.

Şükranın isə suallarının ardı-arası kəsilmirdi. Bir dəfə söhbətin şirin yerində ağlına nə gəldisə, soruşdu ki, konsentrasiya düşərgəsində qala-qala, müftə yatıb çörək yeyə-yeyə, üstəlik, bir az pul ala-ala mən yerli bir qızla evlənə bilərəmmi? Dedim ki, əlbəttə, sevgi azaddır. Bu işdə sənə heç kəs mane ola bilməz. Şükran bir anlığa fikrə gedib bir də soruşdu ki, evlənsəm oranın "ZAQS"-ı bunu "oformit" edərmi? Dedim ki, çarələri nədir, mütləq eləməlidirlər. Şükran bu dəfə gözlərini qıyaraq beynində ani çək-çevir edib bu sualı verdi: "Bəs, ZAQS-da mənə deməzlərmi ki, özün bizim verdiklərimizlə dolanırsan, qızımızı neylə saxlayacaqsan, a cındır?"

İndi Şükran Şəki həbsxanasındadır. Onunla heç bir əlaqəm yoxdur. Ancaq bilirəm ki, hər gün televizorda xəbərlərə baxır və neftin qiymətinin dünya bazarında necə sürətlə ucuzlaşdığını görür. Orasını da vurğulayım ki, söhbətlər zamanı ona izah etmişdim ki, ölkəmizin büdcəsi neftin hesabına formalaşır. Allah eləməmiş, əgər neft ucuzlaşarsa, xalqın halı fəna olacaq. İndi hər gün yapçılar televiziyaya çıxıb neftin qiymətinin aşağı düşməsinin bizə "vızz" gəlməsindən, iqtisadiyyatımıza və dolanışığımıza heç bir mənfi təsiri olmayacağından danışırlar. Dəqiq hiss edirəm ki, ləzgi balası Şükran belə tiplərə qulaq asdıqca deyir: "Əə, neftin bareli 115 dollar olanda camaatı normal saxlaya bilmirdiniz, indi qiymət iki dəfə aşağı düşəndən sonra necə saxlayacaqsınız, .... ay sizi dovşan yesin?"

Şükranı çox yaxşı tanıyıram, əminəm ki, o, məhz belə deyəcək. Gərəkdir ki, bu dovşan yemişlər ona cavab versinlər. Ay verə bildilər ha! Elə mən də qiyabi olaraq Şükrana qoşulub deyirəm, ay sizi dovşan yesin! Yeyəcək də! Bax onda deyəcəksiniz ki, bıy, bu cındır dovşan haradan çıxdı?



YENİ MÜSAVAT
N 301 (6010) 10 dekabr 2014

**Müsavat Partiyası dekabrın 14-də keçirəcəyi mitinqə ciddi şəkildə hazırlaşır. Beynəlxalq İnsan Hüquqları Günü və siyasi məhbuslarla bağlı planlaşdırılan mitinq istiqamətində hazırlıqlar yüksək səviyyədə gedir. Əməkdaşımız Müsavat Partiyasının qərargahında olub və mitinqə hazırlıqların hansı səviyyədə getdiyi ilə maraqlanıb.**

# Müsavat Partiyasında ciddi mitinq hazırlıqları gedir

## Əməkdaşımız partiyanın qərargahında oldu; aksiyaya narazılar da qatılacaq

**Müsavat başqanının müavini, Mitinq Komitəsinin rəhbəri Gülağa Aslanlı musavat.com-a aksiya istiqamətində gördükləri işlərdən danışıb:** "Mitinqlə bağlı Bakı Şəhər İcra Hakimiyyətinə noyabrın 26-da müraciət etmişik. Komitənin üzvləri arasında isə iş bölgüsü aparılıb. Plakatların hazırlanması, səhnənin düzəldilməsi, şüarların yazılması üçün məsul adamlar müəyyənləşdirilib, hər kəs öz işi ilə məşğuldur. Mitinq Komitəsinin toplantıları da keçirilir və təkliflər dinlənilir. Ümumilikdə götürdükdə, iş normal şəkildə gedir".

G.Aslanlı qeyd edib ki, mitinqə Müsavat Partiyasının üzvü olmayan vətəndaşlar da qatıla bilər və bu vacibdir: "Müsavat Partiyası mitinqdə təşkilatçılıq işini öz üzərinə götürür. Bütün siyasi məhbusların ailə üzvlərini, ictimai təşkilatların, gənclər təşkilatlarının üzvlərini, eyni zamanda insan haqları ilə məşğul olan QHT üzvlərini bu mitinqə dəvət edirik. Azərbaycanda insan haqlarının normal vəziyyətə gəlməsi üçün çox işlər görülməlidir. Məhz elə Xədicə İsmayılın həbsinin özü belə ölkədə insan haqlarının vəziyyətinin bərbad şəkildə olmasını bir daha təsdiq edən faktdır".

**O, aksiyada iştirak etməyin vacibliyini vurğulayıb:** "İnsan haqlarına hörmətlə yanaşan bütün insanların bu mitinqdə iştirakı vacibdir. Güman edirəm ki, aksiyada kütləvilik təmin olunacaq".

**Müsavat başqanı Arif Hacılı isə bildirib ki, Mitinq Komitəsinin toplantıları normal şəraitdə keçirilir və gənclər təşkilatının nümayəndələri də iştirak edirlər:** "Müsavat Partiyasının bütün strukturu mitinqə hazırlıq işlərini davam etdirir. Ümid edirəm ki, normal bir mitinq keçiriləcək, mitinq öz məqsədlərinə nail olacaq. Məqsədimiz isə Azərbaycanda insan haqlarının pozulmasına, eyni zamanda Azərbaycanın siyasi məhbusların, vicdan məhbuslarının sayına görə dünyanın lider ölkələrindən birinə çevrilməsinə etiraz etmək, bu problemə Azərbaycan və beynəlxalq ictimaiyyətin cəlb olunmasına nail olmaqdır".

**Müsavat başqanı deyib ki, mitinqin keçirilməsi üçün razılıq məktubu BŞİH-ə göndərilsə də, hələ cavab verilməyib:** "Qanunvericiliyə görə, mitinqin keçirilməsinə azı üç iş günü qalmış bizə cavab verilməlidir. Hələlik vaxta var. Ancaq cavabı nə qədər tez versələr, təbii ki, o qədər yaxşı olar".

**A.Hacılının sözlərinə görə, mitinqə icazə verilməsə, icazəsiz aksiyanın keçirilməsi müzakirə edilə bilər:** "İcazəsiz aksiya barədə müzakirələr aparılmayıb. Mən düşünürəm ki, mitinqin keçirilməsinə icazə verməmək üçün heç bir əsas yoxdur".

**Müsavat başqanının müavini Elman Fəttah isə qeyd edib ki, 14 dekabr aksiyası ilə bağlı hazırlıqlar yerindədir və Mitinq Komitəsi bir neçə dəfə toplanıb:** "Komitə texniki təşkilati işlərlə bağlı toplanıb. Təşkilati işlərin icrası komitə üzvləri arasında bölüşdürülüb və demək olar ki, bu işin icrasının əhəmiyyətli hissəsi yekunlaşıb. Son texniki işlər var ki, o da tezliklə yekunlaşacaq. Mitinqin kütləviliyinin təmin olunması məqsədilə Müsavat Partiyası rayon təşkilatlarının genişləndirilmiş şurasının keçirilməsinə başlanıb, bu iş davam edir. Gələn həftə Bakı və ərazisi işğal olunmuş rayon təşkilatlarının fəallarının iştirakı ilə geniş mitinq öncəsi toplantısı keçiriləcək. Toplantıda həm mitinqdə kütləviliyin təmin olunması, üzvlərimizin ən yüksək səviyyədə iştirak məsələsi müzakirə olunacaq. Ayın 12-də keçiriləcək görüşdə təkliflər dinləniləcək, müzakirə aparılacaq".

**Onun sözlərinə görə, 14 dekabr mitinqi insan haqları günü ilə bağlı keçirilən aksiyadır, bu səbəbdən bütövlükdə Azərbaycandakı siyasi məhbusların azad olunması tələbi başlıca şüardır:** "Bütün siyasi məhbus ailələrini və yaxınlarını, o cümlədən Azərbaycandakı siyasi məhbusların azad olunmasına öz etirazını bildirmək istəyən bütün Azərbaycan vətəndaşlarını həmin mitinqə dəvət edirik, hamını iştiraka çağırırıq. Siyasi mənsubiyyətindən asılı olmayaraq, hansı partiyanın üzvü olmasından asılı olmayaraq hətta bütün siyasi təşkilatları, onların təmsilçilərini, üzvlərini həmin mitinqə, siyasi məhbuslar mövzusuna və onların azadlığı üçün bu aksiyaya qoşulmağa və dəstək olmağa çağırırıq".

**14 dekabr mitinqinə Müsavatdakı narazılar da qatılacaqlar. Başqanlığa keçmiş namizəd Tural Abbaslı bildirib ki, bu məsələ müzakirə olunub:** "Yekdilliklə qərara gəlinib ki, iştirak partiyanın maraqlarına uyğun bir addımdır. Nəzərə alsaq ki, bu, həm də siyasi məhbus məsələsidir, iştirak etməmək düzgün addım olmazdı. Əsasən çalışmaq lazımdır ki, partiya maraqlarından çıxış edək. Əminəm ki, müsavatçılar tam həyətlə iştirak edəcəklər və təşkilatçılıqda hər məsələni yerinə yetirəcəklər. Mitinq Komitəsində narazılar da, mən də, Ellada xanım da təmsil olunur. Güman edirəm ki, mitinq normal şəkildə baş tutacaq. Cəmiyyət aktiv olmalıdır. Əks halda, hakimiyyət dayanmaq niyyətində deyil. İstənilən adamı istənilən bəhanə ilə həbs edə bilərlər. Mitinq də bu baş verənlərə etirazın sivil formasıdır".









Narazılardan Qubad İbadoğlunun tərəfdarı Ellada Məmmədli də qeyd edib ki, onlar mitinqdə iştirak edəcəklər: "Təbii ki, hamı iştirak edəcək. Bu, siyasi məhbuslara görə olan mitinqdir. Qərar da var ki, hamı iştirak etməlidir, biz də iştirak edəcəyik".

Qeyd edək ki, Müsavatın rayon təşkilatlarının da mitinqə ciddi hazırlaşdığı vurğulanır. Mitinqə yer ayrılması ilə bağlı noyabrın 26-da BŞİH-ə müraciət də ünvanlanıb. Aksiya dekabrın 14-də, saat 15:00-da "İnşaatçılar" metro stansiyası yaxınlığında yerləşən "Məhsul" stadionunda keçiriləcək.

**❑ Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 301 (6010) 10 dekabr 2014

# Rauf Mirqədirovun şikayəti təmin edilmədi

## Leyla Yunusun istintaqı sürətlənib; Seymur Həziyə ailəsi ilə görüşə icazə verilmir

**Dekabrın 9-da "Ayna Zerkalo" qəzetinin həbsdəki əməkdaşı Rauf Mirqədirovun qanunsuz həbsdə saxlanılması və vəkilləri ilə görüşünə yaradılan maneələrlə bağlı verdiyi şikayətə baxılıb. Səbayel Rayon Məhkəməsində Rauf Əhmədovun sədrliyi ilə keçirilən prosesdə şikayət təmin olunmayıb.**



Rauf Mirqədirov



Leyla Yunus

Bu barədə müsavat.com-a Rauf Mirqədirovun vəkili Elmar Süleymanov məlumat verib. O, məhkəmə prosesi barədə bunları deyib: "Bu məhkəmə də rüsvayçılıqla keçdi. Hakim Rauf Əhmədov idi. Rauf Mirqədirovun özü və MTN-in nümayəndəsi məhkəməyə gəlmişdi. Amma İbrahim Ləmbəranski prosesə gəlmədi. Rauf Mirqədirovun müddəti bitdikdən sonra onun qanunsuz həbsdə saxlanılması və vəkilləri ilə görüşünə yaradılan əngəllərlə bağlı iki məsələ qaldırdıq. Təəssüf ki, məhkəmə heç bir şikayətimizi təmin etmədi. Prosesdə bəzi vəsatətlər verdik. Həmin vəsatətlər təmin edilsəydi, müəyyən olunacaqdı ki, orada olduğumuz zaman Rauf Mirqədirovla görüşümüzə imkan verilməmişdi. Vəsatətlərimizdən biri də MTN-də videogörüntülərin götürülüb, məhkəməyə təqdim olunması ilə bağlı idi. Bu vəsatət təmin olunsaydı, Rauf Mirqədirovun vəkilləri ilə görüşünə yaradılan maneələr açıq şəkildə görünəcəkdi. Təəssüf ki, bu vəsatət də rədd edildi. Başqa vəsatətlərimiz də təmin olunmadı. Guya məhkəmədən çağırış gəlib ki, noyabrın 20-də prosesə baxılacaq. Rauf guya bu amilə görə təcridxanada 1 gün saxlanılıb. Sual verdik ki, müəyyən səbəblərə görə məhkəmə noyabrın 25-də keçirilsəydi, hansı əsaslarla saxlayacaqdınız? Bu suala məntiqi cavab verə bilmədilər".

**Vəkil qərarla bağlı apelyasiya şikayəti verəcəklərini də qeyd etdi:** "Qanunsuz qərardan təbii ki, apelyasiya şikayətimizi verəcəyik. Zənn edirəm ki, iş Avropaya gedəcək".

Qeyd edək ki, Rauf Mirqədirov dövlətə xəyanət maddəsi ilə (274) ittiham olunur. Onu bu maddə ilə 15 ildən ömürlük həbsə qədər cəza gözləyir.

Digər məhbusların da ümumi vəziyyətləri ilə maraqlandıq.

**Sülh və Demokratiya İnstitutunun rəhbəri Leyla Yunusun vəkili Elçin Qəmbərov hüquq müdafiəçisi ilə bağlı artıq istintaq hərəkətlərinin başladıldığını bildirdi:** "Son yenilik yoxdur. Hər şey əvvəlki qaydadadır. Bu gün görüşməyə çalışacağam. Ondan sonra dolğun faktlar əldə edə biləcəm. İstintaq artıq başlayıb. Amma növbəti dəfə həbs müddətinin artırılması ilə bağlı bir söz demək çətindir. Qanunla həbs müddətinin yenə də artırılmasına icazə verilir".

**"Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallının da səhhətində yaranan problemlərlə bağlı bir yenilik yoxdur. Baş redaktorun həyat yoldaşı Məlahət Zeynallı hər həftə həbsxanaya dərmanlar göndərdiklərini bildirdi:** "Elə bir yenilik yoxdur. Bəlkə də var, amma görüşmədiyimə görə bilmirəm. Telefon vasitəsilə əlaqə saxlayırıq. Əvəz bəy informasiyaları görüş zamanı deyir. Səhhəti əvvəlki kimidir. Həkimlərin yazdıqları dərmanları göndəririk".

**Jurnalist Seymur Həzinin atası Məşgül Həziyev məhkəmə proseslərinin getdiyini söylədi:** "Oğlum barədə danışmağıma bəzən dəymir. Çünki heç bir irəliləyiş yoxdur. Yalnız telefonla əlaqə saxlayırıq. Heç nədən şikayətlənmir. Məhkəməsi başlayıb. Ziddiyyətli şəkildə gedir. Həbs olunduğu gündən indiyə qədər görüşə bilməmişik. Səbəbi hələ də bizə məlum deyil".

**Gənc siyasi məhbus Orxan Əyyubzadənin anası Rəhimə Məmmədova oğlu ilə telefonla danışdığını və heç nədən şikayətinin olmadığını dedi.**

❑ **Cavanşir ABBASLI**

# Əfv Komissiyası yaxın günlərdə toplaşacaq

## Son həbslərə rəğmən hüquq müdafiəçisi ayın sonunda əfv olacağına ümid edir

**İnsan hüquqları üzrə Birgə Qrupun fəaliyyətinin bərpasından sonra da siyasi həbslər davam etdi. Birgə Qrupun bərpası siyasi dustaqların sayının azalması istiqamətində pozitiv nəticələr əldə olunacağına ümid yaratmışdı.**

Amma hələ ki ortada real bir nəticə yoxdur. AzadlıqRadiosunun əməkdaşı Xədicə İsmayılın həbsindən sonra isə belə fikirlər səslənir ki, hüquq müdafiəçiləri Birgə Qrupu tərk etsinlər. Eyni zamanda son vaxtlar həyata keçirilən həbslər dekabrda əfv fərmanı veriləcəyinə ümidləri azaldıb.

Ombudsman Elmira Süleymanova, hüquq müdafiəçiləri dekabra əfv gözlənildiyini bəyan etsələr də, bəziləri hesab edir ki, bu həbslərdən sonra əfv verilməyəcək. Birgə Qrupun üzvü, hüquq müdafiəçisi Səidə Qocamanlı "Yeni Müsavat"a bildirdi ki, Əfv Komissiyası toplanacaq və ərizələrə baxılacaq. Hüquq müdafiəçisinin sözlərinə görə, komissiya müraciətləri gözdən keçirəcək və prezidentə təqdim olunacaq: "Əfv fərmanı vermək prezidentin səlahiyyətidir və ümid edirik ki, dekabrın sonunda əfv olacaq. Birgə Qrupda da müzakirələr gedir və güman edirik ki, əfv veriləcək".

**S.Qocamanlı onların Birgə Qrupdan çıxmasını tələb edənlərə də cavab verdi:** "Biz hər kəsin dediyi fikirlə hərəkət etməli olsaq, onda gərək evdə oturaq. Birgə Qrup məsuliyyətli qurumdur, burada nüfuzlu insanlar toplaşıb. Müxtəlif fikirlər yayan və yaydıran qüvvələr ola bilər. Ancaq biz öz işimizi görürük. Birgə Qrup iki ay ərzində çoxlu sayda insana kömək edib.

Bunlar siyasi həbslərlə bağlı olmasa da, sadə insanlara köməyimiz dəyib. Hüquq müdafiəçisinin işi yaxşılığı etdikdən sonra onu unudub işini davam etdirməkdir. Biz hər hadisəni, gördüyümüz müsbət işi mətbuata çıxarmalı deyilik.

Ona görə də Birgə Qrup var və olacaq. Biz problemləri gündəmə gətirmişik və artıq əfv verilməsi prezidentin səlahiyyətində olan məsələdir. Düzdür, yeni həbslər var, biz bunu araşdırırıq, təkliflər veririk. Xədicə İsmayıla zamin durmağa hazır olduğumuzu baş prokurorun birinci müavini Rüstəm Usubovla görüşdə bildirmişik, onun ev dustaqlığına buraxılmasını xahiş etmişik. Amma Xədicə İsmayıla dekabrda əfv veriləcəyini deyə bilmərəm".

❑ **E.SALAMOĞLU**

**Səkkiz ilə yaxın dostluq etdiyim bir şəxs vardı. Dostluq deyəndə, böyük danışmayım, zira bu sözün harda gəldi, necə gəldi xərclənilməsi, sözün daşıdığı mənaya qarşı haqsızlıqdır. Zatən zaman da bunu göstərdi. Allah, təbiət, bunun adına nə deyirsiniz deyin, mənə daxili bir indikator bəxş edib. Bu indikator sayəsində kimə dost deyib-deməyəcəyimi dəqiq bilirəm. Onunla yaxın tanışlar olmuşduq deyim, keçim mətləbə.**

**Əli ƏKBƏR**



# Bütün pislər türməyə

tərbiyəsizliyinin səbəbini bilmək istəyirdim. Sırf maraq xətrinə, münasibətləri bərpa etmək üçün yox.

Sonra səbəbi mənə məlum oldu. Adam Bakıya gedibmiş, Xədicə İsmayılla görüşübmüş və bundan sonra mənə münasibəti dəyişibmiş. Bu qədər sadə.

Çox adekvat, mədəni, intellektual, geyimi-kecimi yerində, zəngin dünyagörüşlü, sənətə qiymət verən insan idi. Əlbəttə, bu gün də bu keyfiyyətləri daşıyır, artırır və inkişaf etdirir. Güman edirəm.

Hər şey yaxşı gedirdi və heç nə bu gözəl, idillik münasibətin, aramızdakı anlayışın və harmoniyanın bir gün qəfil pozulacağını vəd etmirdi. Dəyişiklik isə gözləmədiyim bir anda və formada baş verdi. Elə bir eybəcərlikdə transformasiyanın şahidi oldum ki, ulu yaradanın varlığına inandım. Silkələndim. Çox pis təhqir olundum, sarsıldım.

Yekə və mədəni bir adam, bir göz qırpımında qara gödəkçəli cəbhəçi ağzı ilə danışmağa başladı. Şüarçı oldu. Onu dəhşətlə izləyir və anlamağa çalışırdım. Tənəzzülünə ürəyim ağrıyırdı. Onu çox istəyirdim, səmimi sözümdür ki, çox istəyirdim. Hörmətimin həddi-hüdudu yox idi. Lakin uzun illər mənimlə nəzakətlə, hörmətlə, əsl dost məhrəmliyi ilə ünsiyyət edən, fövqəladə kültürlü bir bəy, başladı mənə kin və nifrət qusmağa.

Təftişçilik başladı, nə başladı. Şərin, ittihamın, böhtanın, ağır ifadələrin biri bir qəpik oldu. Özü də bunların hamısı bir günün içində oldu və bitdi. Vulkan partladı sanki və tez söndü. Bununla da hər şey bitdi.

Məni dinləmək, eşitmək, danışmaq belə istəmədi. Ağzına gələni dedi, dedi, dedi və qeybə çəkildi. Aramızın pozulması üçün elə süni, elə primitiv bir bəhanə tapdı ki, qrildə xırt-xırtla qızarmış toyuq buna gülərdi. Şoka düşmüşdüm, bu Bir anda onun gözündə düşmənə çevrilmişdim. Rəsmən düşmənə. Mübaliğə etmirəm. İlk dəfə bu adamı aqressiv və tərbiyəsiz gördüm. Küyə gedən, təsir altına düşən, xaraktercə zəif insandır. Amma bu qədərinə gözləmirdim. Müxalifətçiliyin etalonunu tapdığını sanırdı. Nəhəng, ağır bir etalon tapmışdı. Mən isə onun gözündə hökumətlə əlbir olmuşdum, ölkəni talan edirdim, Azərbaycan xalqını beş qəpiyə satmışdım. Bu sətirləri oxuduğunu dəqiq bilirəm *(bütün yazılarımı oxuyur)* və istərsə, mənə cavab verməkhaqqını əlbəttə ki, ona tanıyıram. Kaş ki, cavab versə.

Diqqət edin! İllərin "dostu"ndan söhbət gedir. Əlbəttə, deyəcəksiniz ki, psixikası və xarakteri sağlam olsaydı, bu rəzilliyi özünə rəva bilməzdi. Amma olan oldu, keçən keçdi, heç anlatmaq istədiyim də bu deyildi əslində.

"Yeni Müsavat"da Xədicəni şərləyən bədbəxt adamın *(nə az, nə çox - Xədicənin bütün yaxın çevrəsi qədər bədbəxt)* müsahibəsini oxudum. Adam rəsmən fəryad edir, anqırır ki, **"SİZ ONU TANIMIRSINIZ!!! MƏNİ QINAMAYIN!!!"**

Xeyr, tanıyırıq. Şəxsən mən çox yaxşı tanıyıram.

Sən bədbəxti də, ondan çəkdiklərinə görə yox *(təxmin edirəm, nə çəkmisən)*, bir qadını tutdurduğuna görə qınayırlar. Praqada yaşayan soydaşımız Zamiq Məmmədli demişkən, "vobşe, Allah hər ikinizin bəlasını versin, elə bir-birinizin tayısınız".

Yoxsa mən o xanımın nəyə qadir olduğunu bilirəm. Qətiyyən düşünülməsin ki, demonlaşdırıram, sadəcə, bir insan kimi çox pis insan olduğu qənaətindəyəm. Aravuran, söz gəzdirən, donos yazan, qeybət edən bir adamdır Xədicə İsmayıl və bu günə qədər çıxardığı oyunlar, İlham Əliyev haqda yazdıqlarına görə əldə etdiyi indulgensiya sayəsində mümkün olub.

Prezident və ailəsi haqda yazılanlar onu bir qrupun gözündə toxunulmaz etmişdi. Bu haqda ötən yazılarımın birində yazmışdım. Bir daha deyirəm - toplumumuz xəstədir, insanlar günəşi güləş başa düşürlər. Kim olursan ol, hansı rəzilliyin sahibi olursan ol - prezidenti söy, ol qəhrəman. Bu qədər sadə və bu qədər dəmşalaqca. Prezidenti qəzəbləndirəcək istənilən addımı at, sözü de, sonra da istədiyin adamın boynuna dırmaş. "Nə üçün boynuma minirsən?" soruşana da de ki, "Sən mənim prezident haqqında yazdığımı yaza bilərsən? Yox? Onda boynunda oturmağa davam edəcəm". Hadisə budur, mənim əzizlərim. Oxuduqca ürəyinizdən tikan çıxır, yox?

İndi mən bunları niyə yazıram. Ona görə yazıram ki, keçən səfər X. İsmayılın həbsinə göstərdiyim reaksiyadan sonra, onun bədbəxt çevrəsindən olan bədbəxt adamlar "Buna bax, ikiüzlülük edir, indi də müdafiə edir" deyə orgiya başlatdılar.

Halbuki müdafiə-filan etmirəm. Deyirəm ki, bu bədbəxt istəyirən də dünənə qədər sizin çevrənizdə olub. Sizin adamınız, dostunuz, can-ciyəriniz olub. Onu Xədicənin qoynuna nə iqtidar yollayıb, nə də biz. Necə olur bu qədər əxlaqsız, videoçəkən, işverən, nə bilim, daha kimlər, kimlər, məhz sizin "kruq"unuzdadır? Siz bəlasınız, müsibətsiniz, başdan-ayağa problemsiniz. Dostunu göstər, kim olduğunu deyim. Budur sizin dostlarınız. Bizdən nə istəyirsiniz?

İndi bu bədbəxt, intihar imitatoru, rəsmən cındırlıq edərək üzə durur. Dediyim budur. Xədicə İsmayılın yeri həbsxana deyil və bu həbs siyasi motivlidir. Dediyim budur. Ortada intihar yox ikən, bir adam həbsə alınır və bu cinayətdir, qanunsuzluqdur. Dediyim budur. Yoxsa sizin və xanım İsmayılovanın xoşuna gəlmək üçün yazmıram, demirəm bunları. Hər şeyi adı ilə çağırmaq lazımdır, mən də çağırıram.

Mən ona bu aqibəti əsla və əsla arzulamıram. Azadlığa qovuşması üçün əlimdən nə gəlir, bilmirəm, amma nə gəlirsə, etməyə hazıram. Çıxandan sonra isə qaldığımız yerdən "düşmənçiliyimizə" davam edəcəyik.

Bütün pislər türməyə gedəsi olsa, hamımız içəridə olmalıyıq. Çünki hər birimiz kiməsə görə pisik. Pis hesab etdiyimiz hər adamı türməyə göndərmək kimi haqqımız, imkanımız varmı? Yoxdur. Belə haqqı ancaq bu hakimiyyət özünə tanıyıb.

Zamiq Məmmədlinin sözünü parafraz etsək, bu hakimiyyət və opponentləri elə bir-birilərinin tayıdır.

YENİ MÜSAVAT
N 301 (6010) 10 dekabr 2014

## Həbsdəki jurnalistin işindəki “açar fiqur” danışdı

**AzadlıqRadiosunun əməkdaşı, araşdırmaçı jurnalist Xədicə İsmayılla bağlı istintaq davam etdiyi müddətdə adı ən çox hallandırılanlardan biri də jurnalist Aynur İmranovadır. X.İsmayılı tutduran jurnalist Tural Mustafayev bu günə qədər bir neçə dəfə A.İmranovanın təsiri ilə həbsdəki jurnalistin bəzi hərəkətlər etdiyini deyib.**



# Xədicə İsmayılın rəfiqəsindən gündəmi dəyişəcək açıqlamalar

### Aynur İmranova: “Turalı ilk gündən Xədicənin yanına məqsədli şəkildə yerləşdiriblər”; “Hara gedirdiksə, Tural zəng edib yanımıza gəlirdi...”; “Evimizə kamera da yerləşdirmiş ola bilər, hər şey də edər...”; “Nişanlısını bir neçə dəfə, pis formada döyüb”

*“Yeni Müsavat”ın əməkdaşı bu cinayət işindəki “açar fiqur”la görüşüb, bir çox məqamlara aydınlıq gətirdi.*

***- Tural Mustafayev müsahibələrində və facebookdakı şərhlərində sizin adınızı tez-tez çəkir, bu məsələdə sizi ittiham edən fikirlər səsləndirir... Nədir bu ittihamların kökü?***

- Tural mənə qarşı aqressivdir. O, yəqin gözləyirmiş ki, bu məsələdə mən susacam. Tural da, nişanlısı Rövşənə də mənə dəfələrlə dedi ki, bu məsələlərə qarışma.

***- Həbsdən sonra?***

- Yox, həbsdən sonra Turalla heç bir əlaqəm olmayıb. Rövşənə ilə danışmışıq, amma bu sözü həmin vaxt deməyib.

***- Bəs nə zaman deyiblər?***

- Mən əvvəldən istintaqa çağırılanda. Çünki Tural əvvəlcədən mənim adımı istintaqa verməmişdi. Belə deyirdi ki, mən verməmişəm.

***- Bu məsələnin istintaqı nə zaman başlayıb?***

- 1 aydan çoxdur ki, gedir.

***- Yəni Xədicə İsmayıl da, yaxın çevrəsi də məlumatlı idi ki, belə bir plan hazırlanır və onu bu məsələ ilə bağlı həbs edə bilərlər.***

- Bir şübhələnirdik ki, bu, Xədicə İsmayıla qarşı hazırlanır. Ona görə ki, bu məsələyə Xədicənin heç bir dəxli olmadığı halda adı hallanmağa başladı birdən-birə.

***- İntihar məsələsində?***

- Yox, əvvəldən biz gözləyirdik və şübhələnirdik ki, Tural ona qarşı nəsə edə bilər. Çünki o, israrla bütün uğursuzluqlarını ona bağlayırdı. Halbuki düşünmürdüm ki, Xədicənin onun işlərinin alınmamasında nə isə rolu olsun. Çünki mart ayından bəri onların heç bir kontaktı yox idi. Və Xədicənin də Turaldan daha vacib işləri var idi. Tural mart ayından sentyabr ayına qədər bir neçə sayta düzəlmişdi. Amma az müddət ərzində də işdən uzaqlaşdırılmışdı. Bunların çoxu da hakimiyyətə yaxın saytlar idi. Buna görə də işdən çıxarılmasında Xədicənin hansısa rolunun olması tamamilə absurddur. Hətta mən aznevs.az və interpress.az saytlarının rəhbərlikləri ilə şəxsən danışmışdım ona görə. İkisi də onun işdən çıxarılma səbəbi kimi məsuliyyətsiz olmasını, işə gec gəlməsini göstərdi. Biz də bilirik ki, müasir dövrdə saytlarda belə jurnalistə ehtiyac olmur. Onlara çevik işləyən, işə hamıdan tez gəlib, hamıdan gec gedən jurnalistlər lazımdır. Mənə elə gəlir ki, bu iş məsələsində Turalın içki düşkünü olması fəaliyyətinə mane olurdu.

***- Birinci sualın davamı kimi, Tural Mustafayevlə sizin aranızdakı anlaşılmazlığın səbəbi nə idi?***

- O deyir ki, guya mən Xədicəni ona qarşı qaldırmışam. Amma o adam mənə ona görə qıcıqlıdır ki, ilk gündən onun Rövşənə ilə münasibətlərinə qarşı olmuşam. Hətta elə dövr olub ki, Rövşənəyə mənimlə görüşməyi qadağan edib, mane olurdu. Çünki onlar tanış olduqları ilk gündən etibarən mən Rövşənəyə Turalın içkiyə meylli olmasını demişdim, onu bu barədə məlumatlandırmışdım. Rövşənə mənim üçün çox dəyərli olduğu üçün onun Tural kimi biri ilə münasibətinin olmasını istəmirdim.

> **“Elə şeylər var ki, istintaqda iltizam alıblar ki, bunu açıqlamayım. Amma bəzi məsələləri açıqlaya bilərəm. Demək, bir gün gecə 2-3 radələrində...”**

***- Tural Mustafayev paralel şəkildə həm Rövşənə xanımla, həm də Xədicə İsmayılla sevgi münasibətlərində olub? Hər halda, Turalın yaydığı ilkin məlumatlar, “screen şotlar” bu barədə təxmin yürütməyə imkan verir.***

- Yox, elə şey olmayıb. Mən ümumiyyətlə, Turalla Xədicənin özəl münasibətinin olması barədə məlumatsızam. Xədicənin çoxlu dostları olub, mən daxil, Tural da onlardan biridir. Amma Tural Rövşənə ilə 8 mart tarixində tanış olub, elə həmin gün də facebook səhifəsində durumunu dəyişdirib “münasibətdədir” yazmışdı. O sürətlə “yaranan” münasibətləri isə heç kim ciddiyə almazdı. Amma onların bu 7 aylıq münasibətində çox problemlər yaşanmışdı. Tural davamlı olaraq Rövşənəyə fiziki və mənəvi təzyiq göstərirdi. Rövşənə çox dəyərli xanımdır, ailəsinə hörmət edir. Utandığından bütün bu problemləri açıb ağartmırdı. Hətta onların problemlərinin bir neçəsinə mən də şahid olmuşam.

***- Hansı problemdən gedir söhbət?***

- Elə şeylər var ki, istintaqda iltizam alıblar ki, bunu açıqlamayım. Amma bəzi məsələlər var ki, orda səslənməyib və Turalın məni niyə ittiham etməsinin kökündə dayanır. Onlar barədə məlumat verə bilərəm. Bir gün gecə 2-3 radələrində Rövşənə mənə ağlayaraq zəng etdi və soruşdu ki, “Aynur, mən ... am?” Həmin təhqiramiz sözü mən işlətmək istəmirəm. Amma Rövşənə çox səviyyəli qadındır, anladım ki, o, bu sözü işlədirsə, nəsə baş verib. Mən onun yanında Turalın çığırtısını eşidirdim. Mən Turalın daha öncə də ona qarşı etdiyi pis hərəkətlərdən xəbərdar olduğum üçün dedim ki, telefonu Turala ver. Telefon anidən bağlandı. Mən anında facebookda status yazdım ki, Turalın ev ünvanını axtarıram, polisə zəng vuracam.

***- Bu, nə zaman baş verib?***

- Bu ilin yay aylarında, səhv etmirəmsə. Mən o statusu bilərəkdən yazdım ki, dostları ona zəng etsin və onun Rövşənəyə zərər vermək fikri olsa belə, bundan çəkinsin. Düşündüyüm effektiv oldu. Dostları ona zəng etdilər ki, Aynur səni polisə verəcək, neynəmisən. Bu hadisələr 15-20 dəqiqə ərzində yaşandı. Mən tez əynimi dəyişib, Rövşənənin anasıgilə gedəndə Rövşənə yoldan mənə zəng elədi ki, bəs Tural artıq məni buraxıb, evə gedirəm. Mən də onlara getdim. Gördüm kii, Rövşənənin qollarında, boğazında, üzündə Tural tərəfindən vurulmuş zərbələrin izi var.

***- Davanın səbəbi nə idi?***

- Səbəb mənlə bağlı olub. Daha doğrusu, Rövşənəyə deyib ki, sən niyə Aynurla ünsiyyəti kəsmirsən, o, sənin nişanlını saymır, Tiflisə aparmır. Mən o dövrdə Tiflisdə keçiriləcək bir təlim üçün 10 nəfərlik jurnalist qrupu yığırdım, amma onun müraciətinə baxmayaraq, xroniki alkoqolik və məsuliyyətsiz olduğu üçün qrupa əlavə etməmişdim. Nə isə, mən həmin gecə Rövşənənin anası ilə yaşadığı evə getdim. Az keçmədən gördüm Tural da gəlib qapını sındırır. Səsini qaldırır ki, “çıx bayıra, danışaq”. Mən bunu dartıb içəri saldım ki, gəl içəridə danış, qonşulardan ayıbdır, Rövşənə anası ilə tək yaşayan adamdır. Tural sonradan bildirib ki, guya mən ona içəridə təzyiq göstərmişəm. Amma o elə sərxoş idi ki, bütün səhəri gün heç nə xatırlamırdı. Və həmişə olduğu kimi böhtan atır, adımı hallandırır, onun mənfi keyfiyyətlərini tənqid edənlərin hamısını birdən cəzalandırmaq istəyir.

> **“Rövşənə isə indiki məqamda əlindən gələni etmir, gerçəkləri açıqlamır. Demir ki, onların arasındakı problemlərin səbəbkarı Xədicə deyil”**

***- Onların arasındakı problemlər sonra da davam elədi?***

- Əlbəttə. Hətta bu yaxınlarda o, gözlənilmədən Rövşənənin çalışdığı ofisə girib, onun üzündən ağır bir zərbə vurmuşdu. Bu qız çox ağır travmalar keçirib. Dəfələrlə Rövşənəni təhdid edib ki, sənin üzünə kislota atacam, sənə pis olacaq. Bu mesajları da Rövşənə öz yaşadığı rayonun polisinə təqdim edib. O yaşda xanım işə anasının və dostlarının müşayiəti ilə gedib gəlmək məcburiyyətində qalmışdı.

***- Bəs bu son dediyi iddia doğrudur? Siz Rövşənə Rəhimliyə “mətbuat konfransı keçir” deyə təklif vermisiz?***

- Bəli, onu etmişəm. Ona demişəm ki, Turalın alkoqol asılılığı ilə bağlı problem yaşaması, sənə qarşı etdiyi fiziki və mənəvi təzyiqlərlə bağlı mətbuata məlumat ver. Amma mən bunu deyəndə Rövşənə çox aqressiv cavab verdi və dedi ki, bunu etməyəcək. Sonradan belə başa düşdüm ki, mən ona zəng edəndə Tural da yanında imiş. Əks halda, Tural bu haqda məlumatı ola bilməzdi. Hər halda, mən bu durumda iki zərərçəkmiş rəfiqəmin arasından ən ağır durumda olanı - Xədicəni seçdim. Rövşənə isə indiki məqamda əlindən gələni etmir, gerçəkləri açıqlamır. Demir ki, onların arasındakı problemlərin səbəbkarı Xədicə deyil.

***- İddialardan biri də odur ki, Turalla nişanlısının münasibətlərinin korlanmasında Xədicənin rolu olub.***

- Cəfəngiyyatdır. Kimin onu sevib-sevməməsindən asılı olmayaraq, etiraf etmək lazımdır ki, Xədicə İsmayıl elə bir nüfuzlu şəxsiyyətdir ki, onu daşıya bilməyən insanlar, Xədicə heç nə etməsə belə, onun adının altında əzilirlər. Tural bütün uğursuzluqlarına görə Xədicəni günahlandırırdı. Münasibətin gərginləşməsində Xədicənin nə rolu ola bilər axı? Bu adamı iki saytdan çıxardıqlarına görə mən özüm danışmışam. Deyiblər ki, işi bacarmadığı üçün çıxarmışıq. Tural heç yerdə işləmirdi, gəlib Rövşənənin evində yaşayırdı. Axırıncı problemləri də ondan yarandı ki, Rövşənə demişdi ki, “bizdə qalma. Anamdan utanıram”.

***- Bəs bugünlərdə elə Tural tərəfindən yayılan, onun Xədicə İsmayılla söhbətlərinin “screen şotu” nədən xəbər verir? O dialoqlardan ona qarşı istifadə edilə bilər?***

- Mən iddia etmək fikrim yoxdur ki, onlar arasında nəsə olub, ya olmayıb. Əgər nəsə münasibətlər olubsa belə, həmin gün bitib. Tural əvvəl deyirdi ki, ailəm yoxdur. Sonra deyib ki, evliyəm, amma ayrılacam. Amma Tural Xədicəni tanıyana qədər bir neçə dəfə boşanmaq üçün müraciət edib. Bunu dəqiqləşdirmək istəyənlər Göyçaydakı əlaqədar qurumdan da öyrənə bilərlər. Onun ailəsində problem olub. Bakıya gəlib, sonra dayısının evində qalıb. Sonra isə daha iki nəfərlə - rəhmətlik İsa Şahmarlı və ictimai sektorda Kaktus adı ilə tanınan xanımla bir evdə qalıb.

***- Tural Mustafayev deyir ki, əlimdə səs yazıları, “screen şot”lar, görüntülər var. Münasibətiniz olduğu dönəmlərdə bundan şübhələnirdizmi?***

- Mən əvvəldən ona etibar etmirdim. Xədicəyə də demişdim. Göyçay müxalifətçiləri ilə danışmışdım. Onlar demişdilər ki, Turalın mövqeyində problem var. Amma mən sizə bir sual verim, hesab edək ki, bunlar sevgili olublar. Bir insan agent kimi yerləşdirilməyibsə, sevgilisi ilə danışıqları niyə səs qeydinə alsın axı? Sizcə, bu şübhəli deyilmi?

***- Siz Tural barədə şübhələrinizi deyəndə Xədicə xanımın reaksiyası necə olub?***

- Xədicə özü insanları hər zaman seçən olub. Bundan başqa, düşən insanın yanında olub hər zaman. Dəstək olub ona. Tural da düşmüş insan kimi görünüb, bizim çevrənin mərhəmətindən istifadə edib. Onu ilk gündən Xədicənin yanına məqsədli şəkildə yerləşdiriblər. Bu adam israrla bizim yanımızda olub. Biz hara getmişiksə, zəng edib ki, mən də gəlirəm ora. Bizlə yeyirdi, gəzirdi, nərd oynayırdıq. 10-15 nəfər yığılırdıq hamımız, o da gəlirdi.

***- Tural hər iki tərəfdən saçı yığılmış o əcaib fotosunun yayılmasında sizi ittiham edir. Nədir o şəklin hekayəsi, niyə çəkilib?***

- Şəkili həqiqətən də mən yaymışam və o şəkli mənə Tural göndərib. Şəkli paylaşmaqda məqsədim onun nə xarakterdə, nə ağılda olduğunu hamıya göstərmək olub. Bu ictimai sektorda hamı onu tanıyır. Onlarla adam Turalla eyni məclisdə olub. Hamı bilir ki, o, məclisdə özünü idarə edə bilmir, yeyib-içir, amma hesab ödəmir. İşləyən deyil. ANS-dən də çıxarılmasına, İVPR-dən getməsinə Xədicə səbəb deyildi? O zamanlar heç Xədicə ilə tanış deyildilər.

***- Turalın atası deyir ki, Xədicə onun oğluna qəyyumluq edib. Məsələn, AzadlıqRadiosunda, "Meydan TV"də işə düzəlməsində Xədicənin rolu olub?***

- Xədicə onunla o, AzadlıqRadiosunda işləməyə başlayandan sonra tanış olub, onu ora Xədicə işə düzəltməyib. Radiodan çıxanda isə Xədicə də, dostları da ondan “iş tap, sonra çıx” deyə xahiş etmişdilər. "Meydan TV"yə isə müsabiqə əsasında qəbul olunub, cəmi bir videooperator yerinə bir ərizə verilib, o da Turalınkı. Seçim yox idi, o götürüldü. Oradan necə çıxarılmasını isə Emin Milli açıqlayıb.

***- Tural Mustafayevdən başqa nə cür istifadə edilmiş ola bilər? Evinizə kamera yerləşdirməsi, səsinizin yazılması.... bunlar mümkündürmü?***

- Hər şey mümkündür. Amma Tural etdiyini artıq ortaya qoydu. Bilirsiz, o evə çox insan gəlirdi. Xədicənin, bizim dostlarımız orda otururdu. Biz orda həm də işləyirdik, bütün araşdırmaçı jurnalistlər bir yerə yığışıb yazılar hazırlayırdıq. Xədicə onlarla, yüzlərlə faktlar üzə çıxarmış jurnalistdir, korrupsiya araşdırması ilə bağlı onlarla jurnalist yetişdirib. Xədicə Azərbaycanda vicdan etalonuna çevrilib. Özü heç kimlə əməkdaşlıq etməyib, sövdələşməyə getməyib. Ona görə də hamıdan bunu tələb edib. Onu ilişdirmək üçün əsas tapa bilmirdilər. Məhz bu cür iyrənc vasitələrlə həbs etmələrinin yeganə səbəbi isə onun nüfuzuna zərbə vurmaq istəyi idi. Hətta dindarlar onu təhdid edəndə nardaranlı ağsaqqallar onu müdafiə etmişdilər. Nüfuzu bu qədər güclü idi. Belə şər-böhtanla ona heç nə edə bilməzlər. Bu günə qədər Xədicə ancaq araşdırmaçı jurnalist idisə, bundan sonra o, qəhrəmana çevrildi.

> **“Xədicəni ilişdirmək üçün əsas tapa bilmirdilər. Məhz bu cür iyrənc vasitələrlə həbs etmələrinin yeganə səbəbi isə onun nüfuzuna zərbə vurmaq istəyi idi”**

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 301 (6010) 10 dekabr 2014

# AXCP-ADP savaşı daha da böyüdü

**ADP sədri Sərdar Cəlaloğlu ilə AXCP rəhbərliyi arasında gərginlik daha da qızışıb. Cəbhəçilər ADP sədrinə qarşı sərt reaksiya göstərməkdə davam edirlər. AXCP sədri Əli Kərimlinin müavini Nurəddin Məmmədli publika.az-a açıqlamasında Sərdar Cəlaloğlunu Hafiz Hacıyevlə müqayisə edib: "Əvvəllər Sərdar Cəlaloğlunun dedikləri mötəbər məzmun daşıyırdı.**

Bu gün Sərdar Cəlaloğlu Hafiz Hacıyevin savadlı variantıdır. Daim təriflənən, hər yerdə hörmətli insan kimi qəbul edilən bu adam indi qınaq obyektidir. Ona görə də ciddi kompleksləri formalaşıb. Hamıya düşmən kimi yanaşır. Qurani-Kərimdə səhv axtarır, Füzulini, Babəki, Səməd Vurğunu düşmən elan edir.

Tərk etdiyi caməədə ləyaqət hissini qoruyub saxlayan, getdiyi yola sadiq olanlara qənim kəsilib, satqınlığı təbliğ edir. Vaxtilə YAP-in zirvəsində oturanları təhqir edən bu adam, indi YAP-ın süpürgəçisi ilə bir yerdə oturub Azərbaycanın problemlərini müzakirə etmək üçün dəridən-qabıqdan çıxır. Bir sözlə, Sərdar Cəlaloğlu Azərbaycan xalqı üçün itirilmiş adamdır. Onun dedikləri vicdanlı insanların ürəyini bulandıra bilər, vəssalam. Amma nəyisə dəyişdirə bilməz. Ona görə də ciddiyə alıb baş qoşmağa ehtiyac görmürəm".

**AXCP-dən Sərdar Cəlaloğlunun ünvanına aşağılayıcı fikilər, ittihamlar irəli sürülməsinə ADP sədrinin birinci müavini Həsrət Rüstəmov münasibət bildirdi. "Yeni Müsavat"a açıqlamasında H.Rüstəmov öncə dedi ki, yaranmış gərginliyin səbəbkarı Sərdar Cəlaloğlu deyil, çünki birinci o başlamayıb:** "Bu ittiham olduqca gülünc səslənir ki, Sərdar Cəlaloğlu guya hakimiyyətin sifarişi ilə Əli Kərimliyə qarşı fikirlər söyləyib. Sərdar bəyi tanıyanlar yaxşı bilir ki, o həmişə öz fikri olan, heç vaxt sifarişlə danışmayan siyasətçidir. Əgər hakimiyyət Əli Kərimlini vurmaq istəyirsə, bunun üçün əlində Əli Kərimli səviyyəsində yüzlərlə adamlar var, onların vasitəsilə vurar. Əli Kərimli bu gün elə bir böyük fiqur və manеə deyil ki, hakimiyyət onu söydürmək üçün əlavə vasitələrdə, Sərdar Cəlaloğlu masştabında bir adamdan istifadə eləsin. İkincisi, Əli Kərimlinin ətrafındakılar hər şeyi öz arşınları ilə ölçdükləri üçün elə bilirlər ki, hər kəs onlar kimi hakimiyyət tərəfindən istifadə olunub və ya olunur. Bu qarşıdurmanı Sərdar bəy başlamayıb. Əli Kərimlinin müavinlərindən biri sosial şəbəkədə küçə uşağı səviyyəsində təhqir işlədib. Sərdar Cəlaloğlu buna reaksiya verməyə məcbur olub. Özü də reaksiyası təhqir şəklində olmayıb".



**Həsrət Rüstəmov:**
"Əli Kərimli gəncləri qabağa verib söyüşə öyrətməsin və tərbiyəsiz hala salmasın"



**Nurəddin Məmmədli:**
"Sərdar Cəlaloğlu Azərbaycan xalqı üçün itirilmiş adamdır"

**H.Rüstəmov keçmiş partiyadaşı Nurəddin Məmmədlinin S.Cəlaloğlu haqqında ifadələrinə isə belə münasibət bildirdi:** "Mənim Nurəddin Məmmədliyə yazığım gəlir. Görün hansı miskin durumdadır ki, oğlu yaşında birisinin təhriki ilə vaxtilə dost olduğu, yoldaş olduğu Sərdar Cəlaloğlu barəsində o cür danışır. Görün bu adam ağsaqqal yaşında necə acınacaqlı tale yaşayır. Bu gün hakimiyyətə qarşı mübarizədən danışan Nurəddin Məmmədli o adamdır ki, Sərdar Cəlaloğlu həbsdə ola-ola ADP-ni atıb Əli Kərimlinin yanına getmişdi. Bu hərəkətindən xəcalət çəkmək əvəzinə, indi də Sərdar bəyə qarşı təhqiramiz ifadələr işlədir. Mən professor olan bu adamın düşdüyü məzlum durumdan ürək ağrısı keçirirəm. Söyüş söymək məharət, savad tələb eləmir. Əli Kərimli onu-bunu, gəncləri qabağa verib söyüş söydürməsin, bacarığı çatırsa, çıxsın özü Sərdar Cəlaloğluna cavab versin. Gəncləri söyüşə öyrətməsin və tərbiyəsiz hala salmasın".

**Nurəddin Məmmədlinin fikirləri S. Cəlaloğlunun böyük qardaşı, Qarabağ əlili Əbdül Məmmədlinin də qəzəbinə tuş gəlib. O, Nurəddin Məmmədliyə vaxtilə S. Cəlaloğlunun müavini olduğunu xatırladıb:** "Məndə bir vaxtlar Sərdardan ağıllı lider görməyən Nurəddin Məmmədlinin müavini olduğu partiyanı tərk edərək daim söydüyü Əli Kərimliyə hansı səbəbdən müavin getdi sualı yaranır. Siz özünüz də bilirsiniz ki, Sərdarı başa düşmək üçün burada rəy yazanların heç birinin nə ağlı, nə savadı, nə dünyagörüşü çatmaz. Əgər doğrudan da içi siz qarışıq, partiyanızın sədri başda olmaqla, ağıllı insan varsa, masa arxasında oturub müzakirə edin və Sərdarın ağlının olmadığını sübut edin. Onun dediyi bir kəlmənin belə mənasını anlamayan, yazdıqlarını oxumadan, sizin yazdıqlarınıza "ləbbeyk" deyən nadan insanların vasitəsilə təhqirlərə düçar qoymaq istədiyiniz adamın kimliyini ağıl və təfəkkürünü siz daha yaxşı bilirsiniz. Hansı ağıl və zəka ilə Sərdar Cəlaloğlunu hansısa ağıldankəmlərə söydürürsünüz? Sərdarın da Əli Kərimli kimi bir neçə maşını, cangüdənləri, villası varmı? Sizlər onun səviyyəsinə çatmadan aşağıdan yuxarı daş atmaqla heç nə əldə edə bilməzsiniz".

**S.Cəlaloğlunun qardaşı cəbhəçilərə xəbərdarlıq da edib. O, qardaşını təhqir edəcəkləri təqdirdə bildiyi çox mətləbləri açacağını deyib.**

❑ **Etibar SEYİDAĞA**

---

**Bir zamanlar mən də "Azadlıq" qəzetinin yazarları sırasındaydım. 1998-ci ilin 4 yanvarından ta 2005-ci ilin dekabrınadək bu qəzetdə işləmişəm. Qəzetin ağrı-acılı günlərində yanında olmuşam. Əlimdə olan imkanları həm də bu qəzetin qorunması üçün sərf etmişəm. Çünki "Azadlıq" mənim üçün o zamanlarda həqiqi azad söz tribunası idi. Ən azından mən belə düşünürdüm.**

**Azər HƏSRƏT**



# Bu ipi qırıq üz qarası!

Qəzetdə işlədiyim günlərdə orada çox dəyərli insanlarla həmkar olmaq da mənim üçün bir qazanc sayıla bilər. Düzdür, o adamların böyük çoxluğu elə mənim kimi orada deyillər. Amma yenə də olsun ki, onları qazanmağımın vasitəçisi bəlkə də "Azadlıq" qəzetidir.

Bu qısa girişdən sonra əsas məqsədə keçmək istərdim.

Keçmişdə bir sırada addımladığım insanlar haqqında tənqidlərdən qaçmağı sevən birisiyəm. Ümumi məsələlər xaric, onların şəxsi məsələlərinə heç vaxt toxunmaram. Hətta şahidi olduğum naqisliklər varsa belə, heç vaxt dilə gətirmədim, gətirmərəm də. Yəni mənə görə, qurşaqdan aşağı zərbə yolverilməzdir, nakişilikdir.

Amma və lakin təəssüflər olsun ki, "Azadlıq"da qoyub gəldiklərim bunu anlamırlar hələ də. Bu adamların bəziləri *(şübhə etmirəm ki, ordakı insanların bir qismi hələ də abırlarına qısılıb sakit oturanlardır)* ən tərbiyəsiz şəkildə öz adlarını bizə qoymaq üçün sanki fürsət güdürlər. Marığa yatmış köpək kimi dəxli oldu-olmadı sənə çamur atırlar. Çamur yapışmasa da heç olmasa izi qalar deyibən...

Noyabrın 29-da və dekabrın 2-də bu qəzetdə Rauf Arifoğluna həsr edilmiş 2 ayrı yazı yayımlanmışdı. Qəzeti oxumadığım üçün təbii ki, vaxtında xəbərim olmamışdı. Sadəcə adətimdir, hər gün internetdə, axtarış aparıram ki, hardasa adım keçibsə, xəbərim olsun. Elə bu yazılardan da o yolla xəbər tutdum. Tutdum və "Akif" adı altında gizlənmiş... zata özünün yazdığının beş qatını yazmaq keçdi ürəyimdən. Amma bir qədər səbrimi basıb düşündüm və bu gün məsələyə qayıtmağı uyğun gördüm.

**Qəzetdə 29 noyabr günü yer almış "Rauf Arifoğlu təkcə susmayıb, həm də müxalifəti söymək vədi verib" adlı yazıda dəxli olmadan mənim də adım keçir:** "Çox təəssüf ki, hakimiyyət bu "iyrənc ssenari"ni satılmışların hesabına həyata keçirir. Yəni bu gün real müxalifət düşərgəsinə bütün çamurları "Yeni Müsavat"ın vasitəsilə atırlar. Artıq hakimiyyətin Etibar Hüseynovlara, Hafiz Hacıyevlərə, Azər Həsrətlərə o qədər də ehtiyacı qalmayıb. Bu adamlar 3-cü dərəcəli olublar".

**2 dekabr günü dərc edilmiş "Rauf Arifoğlunun "şabaş"ını verin" başlıqlı yazıda təkrar olaraq bənzər ifadələr yer alır:** "Etiraf edək ki, bu məsələdə Rauf Arifoğlunun bəxti gətirmədi. Bundan öncə düşərgəsini dəyişənlərdən bu qədər "fədakar"lıq tələb olunmurdu. Yəni satılmışların heç biri Rauf Arifoğlu qədər "rəqs" etməyib. Hafizlərin, etibarların, azər həsrətlərin "keçidi" belə məşəqqətli deyildi. Raufun "zakaz"ı daha amansızdı. O bütün havalara rəqs etməlidir. Əks halda, "şabaş"dan məhrum olacaq".

Anlaşılan odur ki, bu yazıların hər ikisində məni də satılmış elan edirlər. Kimə satıldığım da aydınmış bunlar üçün: hakimiyyətə! Və bu elanı bəyan edən zatın özü öz satılmışlığını unudur, deyəsən! "Akif" adı altında gizlənsə də yazı üslubundan kimliyi gün kimi aydın görünən, keçmişdə bütövlükdə müxalifət düşərgəsini və davasını satması qarşılığında bu hakimiyyətdən deputat mandatı almış bu ipi qırıq üz qarası məni satqın elan edir! Üstəlik, Hafiz Hacıyevlə, Etibar Hüseynovla bir sırada olduğumu da kəşf edir bu bədbəxt!

Elədirsə, elə olsun, "Akif" adı altında sığınacaq tapan yazıq! O zaman mən də Hafiz Hacıyevin bir zamanlar sənə dediklərini təkrarlayıram! Madam ki, sən bizi eyni sırada görürsən, o zaman niyə də Hafiz Hacıyevin sənin olmayan şəxsiyyətin haqqında dediklərini mən də uyğun saymayım? Deməli ki, Hafiz Hacıyev səndən daha dürüst birisidir ki, dediklərini sənin kimi saxta imza altında tirajlamır, şəxsən üzünə deyə bilir! Məncə, bu qarşılaşdırmada Hafiz Hacıyev səndən daha ləyaqətli, daha kişi adam təsiri bağışlayır! Elə Etibar Hüseynov da! Hərçənd anlamıram ki, Etibar Hüseynovu niyə bu sıraya aid edirsən? Axı bu şəxs ömrü boyu hakimiyyətin yanında olub, onun sözünü deyib. Yəni bir zamanlar mənim kimi sənin yanında olmayıb ki, sənin iyrənc siyasətin üzündən yanından ayrılmış olsun!

Bu başına "Akif" ləçəyi bağlamış bədbəxtə birisi anlatsın ki, artıq zaman dəyişib, Azərbaycan hərc-mərclik dönəmini çoxdan arxada qoyub. Mətbuat da artıq partiya ruporu olmaqdan çoxdan imtina edib. İndi balansı gözləmək, tənqid etdiyin tərəfə də söz haqqı tanımaq zamanıdır. Siz ki, bunu anlamırsınız, təbii ki, yanınızda kimsə qalmayacaq! Daha doğrusu, ədalət hissini heç nəyə güzəştə getməyəcək kimsə!

Hə, qaldı ki, mənim "satılmışlığıma", Prezident İlham Əliyev başda olmaqla, hazırkı hakimiyyəti dəstəklədiyimi açıq bəyan edirəm. Daha sən "Akif" kimi özümü "əsas müxalifət lideri" elan edib bağlı qapılar arxasında bu hakimiyyətlə sövdələşmələrə getmirəm. İndi gördünmü "satılmış" adlanmağa kim daha uyğundur? Üstəlik, mən sənin kimi beş yerə də işləmirəm. Mövqeyim bəllidir: öz dövlətimin yanındayam! Sənsə, Sem dayıların süfrələrinin qırıntılarıyla qarnını doyurub öz dövlətinə qarşı səngərdə mövqe tutursan!

**Qınamıram səni. Çünki bir zamanlar mitinqlərdə, tribunalarda öndə olardın, bar-bar bağırardın. İnsanlar da sənə güvənər, arxanca gedərdi. Amma iç üzün, əsl mahiyyətin açılınca bütün bunları itirdin. İtirdiyin üçün də sağa-sola vurnuxur, kimə gəldi hücum edirsən ki, hirsini soyudasan.**

**Neynək, Allah səni də belə bədbəxt yaradıb. Tanrı hidayət etsin sənə, yazıq bəndə...**

**Azərbaycan Respublikası Prezidentinin Administrasiya rəhbəri akademik Ramiz Mehdiyev əksər məmurlardan fərqli olaraq mütəmadi araşdırmalarla və yazılarla dövri mətbuatda çıxış edir. Azərbaycanda və dünyada baş verən hadisələri təhlil edir, hakimiyyətin siyasi və ideoloji xətlərini göstərməyə çalışır. Müxalifətin cəmiyyətdəki yerini və rolunu müəyyən etməyə səy göstərir.**

# İqbal Ağazadə Ramiz Mehdiyevə cavab yazdı

## Dünya standartlarına ikili baxış və müasir Azərbaycan

### (Akademik R.Mehdiyevə cavab əvəzi)



(Əvvəli ötən sayımızda)

Nədən bu qədər müxalifətçi küçədə kimlərləsə “ dalaşaraq”, “narkotikdən istifadə edərək”, kiməsə “xəsarət” yetirərək həbs olunur?! Elə sonuncu həbslərə baxın, sadaladığım faktlar üzrə nə qədər müxalifətçi həbs olunub?

Bunlara görə Azərbaycan məhkəməsi ədalətlidir demək olarmı?

Niyə QHT-lərlə işləyirlər? Bu da Qərbin yanlışlıqlarından biridir. Azərbaycanda siyasi institutlar varkən doğrudan da QHT-lərlə işləmək o qədər də uğurlu konsepsiya deyil.

Bu deyimim heç kimə “arqument” verməsin ki, biz özümüzü “xaricilərə” təklif edirik, əsla.

Bu zəfərin hər qarışı üçün döyüşməyə, hər vətəndaş üçün - bizi sevib sevməməyindən asılı olmayaraq çaba sərf etməyə, ölkəmizin demokratikləşməsi və sosial hüquqi ədalətin təşəkkül tapması üçün hər şeyə hazırıq.

Bəzən hakimiyyət nümayəndələri elə bilir bizlər iqtidar olmaq üçün dava edirik. Əsla. Biz ərəb ölkələrində olanların burda təkrarlanmaması üçün, rəngli inqilabların yeni problemlər gətirməməsi üçün mücadilə edirik. Biz Azərbaycanın demokratikləşməsinin qansız - qadasız olmasını istəyirik. Biz qanlı inqilablar olmasın deyə, müstəqilliyimizə, suverenliyimizə xələl gəlməsin deyə hər şeyi qurban verməyə hazır olanlarıq. Kimsə bunu hakimiyyət, iqtidar davası hesab etməsin.

Biz bilirik ki, siyasi institutlar zəiflədikcə onun yerini xarici qüvvələrin maraqlarını ifadə edən dini, etnik qruplar tutacaq. Ona görə də hakimiyyətdən siyasi institutların rolunun artırılmasını istəyirik. Proporsional seçki sisteminin bərpasını tələb edirik.

Ərəb ölkələrində siyasi institutlar yox idi deyə dialoq, barış, həmrəylik də olmadı. Proses qanlı hadisələrlə nəticələndi. Bəli, bu gün biz ərəb ölkələri ilə müqayisə olunmamalıyıq. Bizdə də siyasi partiyaların rolu zəifləsə, nəticə bizi onlardan fərqləndirməyəcək.

Barış, dialoq istəyiriksə dərdlərimizi, problemlərimizi birgə həll edək deyiriksə bu Azərbaycana, hər bir vətəndaşımıza, o cümlədən sizlərə sevgimizdən irəli gəlir.

İnsanları hədə etməyək, daha yumşaq davranaq deyiriksə bu problemlərimizi öz içimizdə çözək, pisimizə, yaxşımıza sahib çıxmaq anlamına gəlir.

Hörmətli Ramiz müəllim müxalifət yoxdur və ya proseslərə təsir edə bilmək imkanlarını itirib deyir.

Diqqət edin, hansı tip ölkələrdə müxalifət yoxdur? Şimali Koreya, Rusiya, Belarus və s. nə qədər desəniz uzatmaq olar bu siyahını.

ABŞ-da, Avropada, Türkiyədə, hətta İranda belə müxalifət ən pis halda 25-30 %-lik bir kəsimi əhatə edirsə, Sizcə nədən Azərbaycanda müxalifət yoxdur?

Azərbaycan müəllimi, həkimi, məmuru, təqaüdçüsü, gənci, jurnalisti, əlili, kəndçisi, fəhləsi ABŞ və Avropadan yaxşımı yaşayır? Onlardan çoxmu əmək haqqı alır? Gənclər üçün iş tapmaq bu qədərmi asandır? Bir milyon qaçqının heçmi torpaq dərdi yoxdur?

Bu qədər problemi olan sosial təbəqələr içərisində siyasi müxalifətin yanında nədən yer almırlar?

Bu əslində iqtidarı qorxudacaq faktordu. Bizim siyasi partiyaların yanında yeri olmayanların səsi Suriyadan, İraqdan, Əfqanıstandan gələcək. Etnik-milli qrupların səsi Rusiyadan, İrandan çıxacaq.

ABŞ-ı və Avropanı tənqid edənlər, nədən İranı, Rusiyanı heç tənqid etmək istəmirsiniz?

Ermənistan-Azərbaycan münasibətinə ikili standartından şikayətləndiyiniz ABŞ 20 yanvarı da törədibmi? Yoxsa 386-cı alayla birlikdə Xocalı soyqırımını təşkil edib, bəlkə 20% torpaqlarımız işğal olunarkən erməni əsgərləri ilə birlikdə amerikalılar da döyüşüb? Etnik milli qrupları da separatçılığa təhrik edən qərblilərdir?!

Bunun hamısının arxasında Rusiya dayanmırmı?

İndi beş-üç QHT ilə birlikdə insan haqlarını müdafiə edir deyə hamının işinə qarışan kimi xarakterizə edilən Qərb, ABŞ, Avropa olmasa idi bilirsinizmi nələr olardı?

1920-ci ildə dünya düzəni bugünkündən fərqli idi deyə müstəqilliyimizi itirdik, cənablar. ABŞ, Qərb olmasa Rusiyanın və İranın ayaqları altında qalarıq. Tarixi vərəqləyin, itirdiklərimizin miqyasına və tarixinə baxın. Hamısı Rusiya və İranla bağlıdır.

Dünən də, bu gün də bizə təhlükə oradan gəlib. Qərb sadəcə olsa-olsa öz insanınızı əzməyin, ədalətli olun deyir. ABŞ-ın İraq, Əfqanıstan, Suriya, Ərəb baharı dönəmində çevrilişlər olmuş ölkələrə müdaxiləsini pisləyirsiniz.

Bir ölkədə Səddam Hüseyn, Hüsnü Mübarək, Qəddafi, Taliban, Bəşər Əsəd varsa pisdir, zinhar pisdir. Onun dəyişməsi şərtdir.

Mən Azərbaycanı ümumiyyətlə bu ölkələrdə birgə və ya bunlara yaxın görmürəm. Nə üçün hər hakimiyyət nümayəndəsi bizi bunlarla müqayisə edir?

Biz Avropa siyasi coğrafiyasındayıq. Dəyərlərimiz də, idarəetməmiz, iqtisadiyyatımız, siyasi-hüquqi münasibətlərimiz də bu ölkələrdəki kimi olmalıdır və olacaq. Heç kim bu prosesi dayandıra və ya Azərbaycanın yolunu dəyişdirə bilməz. Rusiya Sovet ənənəsi, Yaxın Şərq nümunələri bizim üçün tarixdir. Biz bu tarixə dönməməliyik.

ABŞ Ermənistanı işğal etdiyi ərazilərdə 40 minlik qoşun saxladığına görə təcrid etmədiyi üçün qınanır, ona 20 ildə 80 milyon yardım göstərdiyinə görə qınanır, ancaq Ermənistanda 40 min qoşun saxlayan Rusiya təhlükə mənbəyi hesab olunmur, müsəlman dövləti ola-ola Ermənistana hər cür yardım göstərən İran hədəfə çıxarılmır.

Sadə səbəbi var - hakimiyyət və dövlət məsələsi. Belə yanaşmalar olduqca zərərli və dövlətçiliyə fayda verməyən məsələlərdir. Ölkə vətəndaşına düzgün informasiya və istiqamət verilməlidir ki, o dövlətinə ola biləcək təhdidləri əngəlləməyə psixoloji hazır olsun.

Hörmətli akademik yazısında qeyd edir ki, “Azərbaycan demokratik cəmiyyətə xas keyfiyyətlərə malik olan müasir dövlət kimi davamlı inkişaf edir”. Görəsən, demokratik cəmiyyət deyəndə hörmətli müəllif hansı ölkəni nəzərdə tutur, ABŞ, Avropa ölkələrini yoxsa?!

Axı postsovet ölkələrinin çoxunda belə yoxdu, o cümlədən yaxın və Orta Şərq ölkələri demokratik cəmiyyətə xas bircə nümunə. İnanıram ki, demokratik cəmiyyət anlayışı elə məhz Qərb dünyasına şamil olunur. Tənqid hədəfi də onlar seçilir. Bəlkə daha çox umduğumuzdandır? Bunu da düşünmək istərdim. Lakin yazıda xalqlarına zülm edənlərin müdafiəsi daha çox sezilir. Avtoritar və totalitar rejimlərin ünvanına bircə söz belə işlədilmir.

“ Azərbaycan əsla inkar etmir ki, vətəndaş cəmiyyətinin inkişafı və demokratiya təsisatlarının möhkəmlənməsi sahəsində hələ çox işlər görülməlidir. Biz başa düşürük ki, demokratik inkişaf siyasi mədəniyyətin, siyasi psixologiyanın və vətəndaşların davranışlarının mürəkkəb və uzun təkamül , transformasiya prosesidir” bu da sizin məqalənizdən sitatdır, hörmətli Ramiz müəllim.

Fikirlər doğru və səlisdir. Lakin bunu kimlər, necə gerçəkləşdirəcək? Bunlar siyasi partiyaların görməli olduğu iş deyilmi? Regionlarda və Bakıda hakimiyyət siyasi institutlara bu haqqı tanıya bilirmi? Hansı partiyanın bu fəaliyyəti gerçəkləşdirmək üçün yerli ofisləri və üzvləri ilə geniş təmas imkanları var?

Siyasi partiyalar bu maarifləndirmə işini həyata keçirə bilməyəndə, sizcə, zirzəmilərdə ayrı-ayrı dini qrupların və cərəyanların nümayəndələri xilafət eşqinə düşməyəcəkmi?

Azərbaycanda müsəlman İslam təşkilatçılığına yuvarlanır. Artıq dindar insanlardan çox təriqətçi, məzhəbçi var. Bunun başlıca səbəbi siyasi maariflənmənin zəif olduğu Azərbaycanda siyasi inkişafın rolunun aşağı düşməsidir.

Bu problemlərin tək çözüm yolu siyasi partiyalarla dialoq masasında əyləşməkdir. Azərbaycanda barışa, dialoqa getməyəcək bir partiya belə yoxdur. Predmetli dialoq ölkəmizə sülh, barış, güc gətirəcəksə kimsə bundan imtina etməz.

Dövlət və dövlətçiliyimiz haqqında da yazınızda xüsusi bölmə var. Təbii, hər birimiz Azərbaycanın uğuruna, inkişafına, regionda, dünyada layiqli yer tutmasına çalışırıq. Lakin fikirləriniz mübahisə üçün açıqdır.

Müasir dövlətçilik anlayışı ideoloji dövlət anlayışını kökündən rədd edərək hüquqi dövlət anlayışını diktə edir.

Münasibətlərdə, düşüncədə liberalizm və tolerantlıq sonda hüquq dövlətini yaradır.

Bizim necə ölçməyimiz, nə fikirləşməyimiz, hansı həyat tərzini seçməyimiz hüquqi dövlətin halını dəyişməməlidir. Hüquq qarşısında hamı bərabər olmalı, hüquqdan da hər bir vətəndaş bərabər istifadə etməlidir. Dövlət o zaman güclü olur, o zaman sevilir və o zaman qorunur.

Hüquqlar fərdi və cəmiyyətdəki yerlərə, siyasi-ictimai baxışlara görə tətbiq olunduqda dövlətin sütunları laxlayır.

Nə qədər desəniz bu barədə sitatlar çəkə, misallar göstərə bilərəm. Eyni hadisələr üzrə qərar verməli olan orqanla, xüsusilə məhkəmələr, sizcə, fərqli qərarlarını nə ilə izah edə bilərlər. Sizcə, belə olan təqdirdə vətəndaşın ölkəyə, qanunlara, məhkəmələrə münasibəti necə olmalıdır?

Güvən olmayan yerdə sevgi olmaz. Güvənli Azərbaycan vətəndaşı yetişdirmək hakimiyyətin başlıca vəzifəsidir. Çünki qanuna, ədalətə güvənən vətəndaş öz ölkəsini göz bəbəyi kimi sevəcək, onu dişi ilə, dırnağı ilə qoruyacaq.

Hər şey insan üçündür.

Dövlət də, qanunlar da, yeraltı, yerüstü sərvətlər də...

İnsanımızı qoruyaq-bizi sevəni də, sevməyəni də. Sevəni sevdiyi üçün, sevməyəni də sevgi öyrətmək üçün. Vətənin dağına, daşına, neftinə, suyuna, təbiətinə görə sevmirik, insanına görə sevirik. Bu ölkənin insanları başqa coğrafiyanın insanlarından bizə daha doğmadır. Doğmalarımızı qoruyaq. Bu mənim deyil, qohumum, yerlim, tanışım deyil deyib yanından, haqqından, hüququndan keçməyək. Bizim birgə güldüyümüz, birgə ağladığımız çox şey var. Bəlkə Azərbaycana hər birimiz başqa pəncərədən baxırıq, lakin haradan baxsaq Azərbaycan görünür.

Azərbaycan üçün bir-birimizi qucaqlayaq, bağışlayaq, sevək, gülümsəyək.

***P.S.** Bu fürsətdən istifadə edib azadlıqdan məhrum edilən və ya barəsində cinayət işi qaldırılan bütün ictimai-siyasi fəalları azad etməyə, barələrində həbs-qətimkan tədbirini dəyişməyə çağırıram. Bu, başlıca dialoqa, həmrəyliyə doğru atılmış ən böyük addım olar.*

❑ **İqbal Ağazadə**
**Ümid Partiyasının sədri**

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**



# Həyasızların həyatı

Zamin HACI
zaminhaci@gmail.com

## "Həyasızın üzünə tüpürdülər, dedi yaz yağışıdır"

**(Azərbaycan ata sözü)**

**Bəzi gülməşəkər politoloq və siyasətçilərimiz Azərbaycanda repressiyanın qol-qanad açmasından ruhlanmaqla yanaşı xalqı ruhdan salmağa da cəhd edirlər. Örnək üçün "Bax, ruslar Ukraynaya girdi, Qərb heç nə eləmədi, biz də gərək sakit duraq yerimizdə, bizə heç kömək olmayacaq", "Qərbin Azərbaycan rejiminin diktatura qurmasına cavabı yüngülvarı narahatlıq olacaq, vəssalam" söhbətlərini geniş yayırlar.**

Bu, dolayısı ilə yapizmə xidmətdirsə, eyni zamanda sivil dünyanın təzyiq və çəkindirmə üsullarını anlamazlıqdan irəli gəlir. Sivil dünya axmaq rejimləri dayandırmaq üçün sərt üsullara, loru dillə desək, şapalağa ən axırda əl atır. Əslində sivil dünyanın, birbaşa desək, Avropa dəyərlərinin gerizəkalı totalitar rejimlərdən ən önəmli fərqi də elə mübarizə üsullarındadır. Qərb kökü Henri Devid Toro, Martin Lüter Kinq, Mahatma Qandi, Vatslav Havel kimi insanlara dayanan dinc mübarizə üsullarına üstünlük verir. Şərin başına bombanı ən axırda - başqa yol qalmayanda atırlar. Bu haqda çoxlu sayda misal gətirə bilərəm, amma mövzumuz deyil.

İndi Rusiyanın, İranın, o cümlədən bu rejimlərin satelliti olan Azərbaycan, Venesuela tipli neft diktaturalarının embarqolar, neft qiymətlərinin salınması yoluyla sıxışdırılması Qərbin münasibəti deyilsə bəs nədir? Rusiya artıq qarın ağrısına düşüb, iqtisadi problemlər üzündən Azərbaycana, Ukraynaya, Qazaxıstana qatarları dayandırıblar. Yapistlər də "bir çox infrastruktur layihələrini saxlamağa məcburuq" deyirlər. Hələ proses təzə başlayıb, əmin ola bilərsiniz ki, gələn il çox yuxarıdan gedən rejim yiyələri dombalaq aşacaqlar.

Ancaq təbii ki, belə iqtisadi çətinliklərin altını ilk növbədə xalqlar çəkir. Ayrı cür mümkün də deyil. Hansı rejimi başınız üstündə saxlayırsınızsa, yıxılanda da onun altında qalırsınız. Zəhmət çəkib vaxtında ayıq-sayıq olun, fil qulağında yatmayın, ölkənizdə hakimiyyəti bir ovuc quldurun mənimsəməsinə imkan verməyin. Avtoritarizm xərçəng xəstəliyi ilə eyni mahiyyət daşıyır - nə qədər tez üstünə düşüb müalicə eləsən o qədər asan aradan qalxır. Metastaz verəndən sonra isə gec olur.

Əslində mən həyasızlıq haqda yazmaq istəyirdim. Fikir vermisinizsə, ölkəmizdə həyasızlıq həyat normasına çevrilib. Uzağa getmədən 3 misal çəkim.

Bunlardan ikisi kriminal xəbərdir. Bir cavan oğlan dostunu bıçaqlayıb öldürüb, polis bunu tutanda isə deyir: "O mənə pul borc vermişdi, yaxşılıq eləmişdi, gərək axıracan da yaxşılığı saxlayaydı, pulunu geri istəməyəydi. İstədi, mən də bıçaqladım. Əcəb eləmişəm". Heyrətamiz həyasızlıqdır, eləmi? İkinci xəbərdəki tip də bundan geri qalmırdı: həmkəndlisinin evinə qonaq gedib, çörəyini yeyib, sonra ev yiyəsini öldürüb, arvadını da ağır yaralayıb.

Həmin xəbərlərin yanında isə Mərkəzi Seçki Komissiyası sədrinin bələdiyyə seçkilərində əhalinin aktiv olmayacağından narahatlığı başlığı getmişdi. Təsəvvür edirsinizmi? 20 il seçki prosesinin anasını... ağladırsan, bütün seçkiləri əvvəldən axıra saxtalaşdırırsan, sonra da deyirsən ki, balam, görəsən, bu millət niyə bələdiyyə ilə maraqlanmır.

Yadınızda olar, 3-4 gün qabaq Sumqayıtdakı Vərəm Dispanseri haqda yazmışdım. Oxucu şikayətlənirdi ki, dispanser təmir edilib, amma icra başçısı lenti kəsmədiyi üçün vərəmli xəstələr yollarda qalıb. Həmin gün (4 dekabr) Səhiyyə Nazirliyi öz saytında xəbər yaydı ki, dispanser artıq açılıb. Mən də sevindim, oxucuya xəbər verdim. Ancaq adam gedib dispanserə, məlum olub xəbər yalandır, baş həkim deyib dispanser yalnız 15 dekabrda xəstələrin istifadəsinə veriləcək.

Bəs buna nə ad qoyaq?

# "Top indi Rusiyanın meydanındadır"

## "Atlas" Araşdırmalar Mərkəzi "RİA-Novosti" agentliyi ilə birgə Türkiyə-Rusiya yaxınlaşması mövzusunda mətbuat konfransı keçirib

**Dekabrın 9-da "Atlas" Araşdırmalar Mərkəzi "RİA-Novosti" agentliyi ilə birlikdə Türkiyə-Rusiya yaxınlaşması mövzusunda mətbuat konfransı keçirdi. Konfransda əsas məruzəçi, "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlunun mövzu ilə bağlı təhlili təqdim olundu. Mətbuat konfransında Türkiyənin Azərbaycandakı səfirliyinin müşaviri Öncü Keçəli də iştirak edirdi.**





Politoloq, "RİA-Novosti" Agentliyinin əməkdaşı İlqar Vəlizadə bildirdi ki, Rusiya-Türkiyə əlaqələrində son gəlişmələr, xüsusən də Putinin Türkiyəyə səfəri geniş müzakirələrə səbəb olub. Eyni zamanda həm Azərbaycanda, həm də Rusiyada bu prosesin gələcəyi ilə bağlı çoxlu sayda suallar meydana çıxıb.

**Politoloq Elxan Şahinoğlu Putinin Türkiyəyə səfərinin bir canlanma yaratdığını söylədi. Onun fikrincə, Ukrayna hadisələrinə görə Rusiya Qərbin ciddi sanksiyaları ilə üz-üzə qalıb. Bu səbəbdən Putinin səfəri maraqla qarşılanıb:** "Rusiya prezidentinin səfərində ən mühüm məsələ enerji sahəsində əməkdaşlıqdır. Heç kimin gözləmədiyi halda Rusiya prezidenti bəyan etdi ki, ölkəsi "Cənub axını" layihəsindən imtina edir, əsas qaz resurslarının Türkiyə üzərindən daşınmasında maraqlıdır. Belə görünür, həm Türkiyə, həm də Rusiya bundan razıdır. Bundan başqa, hər iki ölkə arasında anlaşma digər sahələri, o cümlədən kənd təsərrüfatı, tekstil sənayesi və digər sahələri əhatə edir".

**Rusiya-Türkiyə əməkdaşlığının Cənubi Qafqaza təsirinə toxunan ekspert mövzunun Azərbaycanda geniş müzakirə olunduğunu dedi:** "Burda iki istiqamət var. Birincisi, enerji sahəsində əməkdaşlıqdır. Hiss edirəm ki, Azərbaycanda bu məsələyə iki baxış var. Birinci baxış ondan ibarətdir ki, Rusiya ilə Türkiyə arasında yeni enerji əməkdaşlığı Azərbaycana mənfi təsir edə bilər. Yəni TAP, TANAP kimi layihələrə maraq azala bilər. Ancaq düşünürəm ki, bu məsələdə həqiqət azdır. Çünki onsuz da Azərbaycan öz qazını Türkiyəyə Rusiya və İrandan ucuz satır. Digər tərəfdən, Türkiyə hökumətinin şaxələndirmə siyasəti var. Yəni bir ölkədən asılı olmamaq. Türkiyə üzərindən Avropaya daşınacaq Azərbaycan qazı Türkiyənin regionda siyasi nüfuzunun artmasına kömək edə bilər. Avropada Azərbaycan qazına maraq artacaq. Rusiya-Türkiyə əlaqələrində ikinci mühüm məqam Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsidir. Ərdoğanla Putin arasında 3 saat davam edən görüş zamanı çox güman ki, bu məsələ də müzakirə olunub. Rusiya anlamalıdır ki, münaqişənin həlli onun, hətta Ermənistanın da maraqlarına uyğundur. Bu mənada top indi Rusiyanın meydanındadır. Əgər indiki fürsətdən istifadə edib münaqişənin həllinə nail olunmasa, o zaman bu, sonradan ikitərəfli münasibətlərə mənfi təsir edəcək".

**Türkiyə səfirliyinin müşaviri Öncü Keçəli rəsmi Ankaranın Rusiya ilə ticarət sahəsində əməkdaşlığa böyük önəm verdiyini bildirdi, qeyd elədi ki, zaman-zaman iki ölkə münasibətlərində dəyişiklik olsa da, münasibətlər davam edib. Hazırda Rusiya və Türkiyə arasında ticarət dövriyyəsinin 32 milyard dollar olduğunu deyən çıxışçı Ö.Keçəli Türkiyənin istehlak etdiyi illik qaz normasının 60 faizə qədərini Rusiyadan aldığını bildirdi. Ancaq onun sözlərinə görə, bu, o demək deyil ki, əlaqələr hər sahədə yüksək səviyyədədir:** "Prezidentimiz Rusiya prezidenti ilə görüş zamanı bunu açıq şəkildə qeyd etdi. Bizim Rusiya ilə Suriya mövzusunda, Ukraynanın ərazi bütövlüyü, Krım tatarlarının taleyi mövzusunda bəzi anlaşılmazlıqlar var. Biz bunu açıq şəkildə müzakirə edirik. Əslində "Qazprom"la "Botaş" arasında bir niyyət protokolu imzalanıb. Bu sənədə görə tərəflər yeni qaz kəmərinin inşası məsələsində danışıqlara başlayırlar. Yəni zənnimcə, indidən bu layihələrin nəticələri haqda danışmaq asan deyil".

Qərbin Rusiyaya qarşı sanksiyalarına Türkiyənin qoşulmasına gəlincə, müşavir bildirdi ki, Rusiyanın Türkiyə ilə ticarət əlaqələri sanksiyalara aid deyil. Türkiyənin Rusiyaya əsasən kənd təsərrüfatı, ehtiyat hissələri və tekstil məhsulları ixrac etdiyini qeyd edən Ö.Keçəli bu məhsulların sanksiyalara aid edilmədiyini və bu səbəbdən də Qərb ölkələrinin Rusiya ilə əməkdaşlıq mövzusunda Türkiyəyə hər hansı iradının olmadığını söylədi.

**O, Azərbaycanla təbii qaz məsələsində əməkdaşlığın davamlı olacağını da söylədi:** "Qarabağ münaqişəsinə gəlincə, biz yalnız Rusiya ilə deyil, Qərb ölkələri, AB, ABŞ və NATO toplantılarında da problemi müzakirə edirik. Biz hesab edirik ki, bu münaqişənin həll olunmaması bölgənin inkişafının qarşısını alır".

❑ KƏNAN

# Çin dünya liderinə çevrilə biləcəkmi?

## Bu ölkənin iqtisadiyyatı ilk dəfə ABŞ-ı ötdü

**Çin iqtisadiyyatı valyutaların alıcılıq qabiliyyəti ilə hesablayanda ilk dəfə olaraq öz həcminə görə dünya nəhəngi ABŞ iqtisadiyyatını geridə qoyub. Çinin daxili məhsulu 17 trilyon 632 milyard dollardır. ABŞ-da isə ÜDM - 17 trilyon 416 milyard dollar təşkil edir. Bu məlumatı Beynəlxalq Valyuta Fondu açıqlayıb. Fondun proqnozuna görə, gələn il Çinin liderliyi daha da güclənəcək. İqtisadiyyatlar arasında fərq 1 trilyon dollara çatacaq.**



Cari qiymətlərlə götürəndə isə ABŞ iqtisadiyyatı sözsüz dünya lideridir. ABŞ-ın ÜDM-i cari qiymətlərlə 16 trilyon 800 milyard dollar, Çinin ÜDM-i isə - 10 trilyon 400 milyard dollardır.

Çinin iqtisadiyyatının dünyada önə çıxmasının yaxın gələcəkdə bu ölkənin dünya siyasətində də birinciyə çevrilib-çevrilməyəcəyi aktual suallardan biri olaraq gündəmə gəlir.

**Politoloq Qabil Hüseynli hesab edir ki, Çin iqtisadiyyatının önə çıxmasının yaxın dövr üçün Çinin dünya siyasətində də önə çıxıb əsas söz sahibinə çevrilməsinə səbəb olacağı gözlənilmir. Bunun isə müxtəlif səbəbləri var:** "Səbəblərdən biri dünyada hələ ki ticarətin ABŞ dolları ilə həyata keçirilmir. Dünya Bankının bütün maliyyə əməliyyatları da ABŞ-ın nəzarəti altındadır. Çin yalnız üç-dörd ildən sonra dünya iqtisadiyyatına ciddi təsir edə biləcək rıçaqları ələ keçirə bilər. Bu rıçaqlar ölkələrarası ticarətin hansı valyuta vasitəsilə hesablanması məsələsidir. Çin yuanı hələ beynəlxalq valyutaya çevrilməyib. Banklararası əlaqələri nizama salan əsas rıçaqlar da hələ Amerikanın əlindədir ki, bu da ölkələr arasında alış-verişi nizama salan əsas vasitələrdən biridir. Bax, bu nöqteyi-nəzərdən, mənim zənnimcə, Çində sabit iqtisadi artım müşahidə olunsa da, dünyada məhsul istehsalına görə birinci yerə çıxsa da hələ onun dünya iqtisadi liderinə çevrilməsinə bir neçə il, siyasi liderə çevrilməsinə isə uzun illər lazımdır. Müttəfiqlər qazanmaq, özünün hərbi-siyasi alyansını yaratmaq, dünyadakı siyasətə siyasətə təsir edən yeni güc mərkəzləri yaratmaq və bütün bu faktorları eyni zamanda işə salıb ABŞ-ı beynəlxalq siyasətdən sıxışdırmaq xeyli vaxt tələb edir. Ona görə də hələ Çinin ilk uğurunu həddən artıq şişirtməyə hacət görmürəm".

❑ Etibar SEYİDAĞA

# ABŞ səfirliyi Ramiz Mehdiyevin məqaləsinə cavab verdi

## Diplomatik korpus yeni səfirin gəlişi ərəfəsi ittihamlara kifayət qədər təmkinli münasibət bildirdi; Vaşinqtonda isə rəsmi Bakını qəzəbləndirəcək tədbir hazırlanır

**Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "İkili standartların dünya nizamı və müasir Azərbaycan" adlı məqaləsinə ABŞ-ın Azərbaycandakı səfirliyi reaksiya verib. Xatırladaq ki, məqalədə R. Mehdiyev Qərbi, özəlliklə Birləşmiş Ştatları ikili standartlarda, rəngli inqilablar hazırlamaqda, "5-ci kolon" yaratmaqda ittiham edib. Məqalədə bildirilirdi ki, ABŞ rəngli inqilablar vasitəsilə özünü qane etməyən hökumətləri devirir, bu məqsədlə müəyyən QHT-ləri, vətəndaş cəmiyyətinin üzvlərini maliyyələşdirir.**




Bir neçə gündür ki, mediada ciddi müzakirə edilən bu məqaləyə ABŞ-ın Azərbaycandakı səfirliyi reaksiya bildirmirdi. Nəhayət, dekabrın 9-da ABŞ səfirliyi açıqlama yayıb. **Açıqlamada bildirilir:** "Amerika Birləşmiş Ştatları Azərbaycanın suverenliyini hər bir zaman dəstəkləyib. Müstəqilliyini əldə edən Azərbaycana müxtəlif yönümdə dəstək nümayiş etdirən Birləşmiş Ştatlar gələcəkdə də suveren tərəfdaşlıq münasibətlərin inkişafına dair öhdəliyə sadiq olacaq. İnanırıq ki, demokratiya, iqtisadi inkişaf və təhlükəsizlik kimi sahələr Azərbaycanın uzun müddətli tərəqqisi üçün önəmlidir. Biz sözügedən sahələrdə əməkdaşlıq təkliflərimizi davam etdirərək, müsbət addımları alqışlayacağıq. Ümidvarıq ki, Azərbaycan insan haqları və digər sahələrdə üzərinə götürdüyü öhdəlikləri həyata keçirəcək və uğur və azadlığın nümunəsi olmaq üçün mühüm potensialını istifadə edəcək. Azərbaycana müxtəlif yönümdə dəstək nümayiş etdirən Birləşmiş Ştatlar gələcəkdə də suveren tərəfdaşlıq münasibətlərin inkişafına dair öhdəliyə sadiq olacaq".

ABŞ səfirliyinin bir neçə gün fasilədən sonra məqalədəki ittihamlara münasibəti, göründüyü kimi, kifayət qədər təmkinlidir. Əlbəttə, diplomatik korpusun Azərbaycan hakimiyyətini sərt tənqid edən Dövlət Departamentindən fərqli olaraq öz missiyası var və səfirlik Vaşinqtondan alınan təlimatlar əsasında bu cür məsələlərə münasibət bildirir. Qeyd edək ki, 4 aya yaxındır ki, Bakıdakı diplomatik korpus rəhbərini gözləyirdi və dekabrın 4-də ABŞ Senatında Robert Frensis Sekutanın səfir namizədliyi təsdiqlənib. Səfir postuna təyinatınadək dövlət katibinin enerji məsələləri üzrə köməkçisinin birinci müavini olan Sekutanın Bakıya yaxın günlərdə gələcəyi gözlənilir. Yeni səfirin təyinatı Azərbaycan - ABŞ münasibətlərinin ən gərgin dövrünə təsadüf edir. Bu baxımdan yeni səfirdən gözləntilər də çoxdur. Ehtimal ki, səfirlik də Sekutanın gəlişi ərəfəsində vəziyyəti daha da gərginləşdirmək istəməyib.

ABŞ səfirliyinin diplomatik reaksiyasından sonra rəsmi Bakı ilə münasibətlərin hansı istiqamətdə inkişaf edəcəyi maraq doğurur. Çünki dekabrın 12-də Vaşinqtonda Amerika Azərbaycanlıları Demokratiya Uğrunda Təşkilatının keçirəcəyi forumda Azərbaycana sanksiyalar məsələsinin müzakirə ediləcəyi gözlənilir. "ABŞ-ın sanksiyaları Azərbaycan müxalifətçilərinə necə kömək edə bilər" adı ilə keçiriləcək tədbirdə ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Riçard Kozlariç, "Freedom House" təşkilatının keçmiş rəhbəri, indi isə Makkeyn İnstitutunda insan hüquqları və demokratiya baş direktor vəzifəsini tutan Devid Kramer çıxış edəcəklər. Tədbiri Elmar Şaxtaxtinski və Qorxmaz Əsgərov aparacaqlar. Qeyd edək ki, Riçard Kozlariç və Devid Kramer hələ bir neçə ay əvvəl Azərbaycana sanksiyalar tətbiq edilməsi ilə bağlı ABŞ hökumətinə çağırış etmişdi. Aydındır ki, ABŞ-dakı bu dinləmələr rəsmi Bakıda növbəti sərt təpkilər doğuracaq.

❑ Xəbər xìdmətì

### Türkiyə uğrunda böyük güclərin savaşı yeni mərhələdə

# Avropanın Türkiyəni Rusiyadan qoparma projesi

## Ankara-Moskva yaxınlaşması Qərb paytaxtlarını bərk narahat edir; qardaş ölkənin Avropa Birliyinə üzvlüyü tezləşdirilə bilər, indi onun əlində yeni və mühüm bir təzyiq rıçaqı da var...

**Bölgəmizdə, onun ətrafında maraqlı proseslər gedir. Onların yekunu regionun təzədən şəkillənməsində çox mühüm rol oynaya bilər. Proseslərin episentrində indi Türkiyədir. İndi əksər suallar, nəzərlər, necə deyərlər, Türkiyə üzərinə fokuslanıb - istər Yaxın Şərqlə bağlı böhranlı problemlər və İŞİD məsələsi olsun, istərsə də Ankaranın Rusiyaya "xilas pəncərəsi" açmaq məsələsi.**



Yavaş-yavaş aydın olur ki, bu problemlərin hamısında böyük regional oyunçu olaraq və son illər müstəqil siyasət xəttinə üstünlük verən Türkiyənin rolu bənzərsiz, əvəzsiz və vazkeçilməzdir. Belə görünür, bunu Qərbdə artıq bütün ciddiliyi ilə dərk eləməyə başlayıblar. Nəhayət, anlamağa başlayıblar ki, bu ölkə ilə hədə, təzyiq, erməni kartı ilə şantaj dilində danışmaq dövrü bitib. Türkiyəni itirməmək üçün onunla yalnız tərəfdaş kimi davranmaq gərəkdir.

Dekabrın 8-9-da Avropa Komissiyasının bir neçə üzvünün Türkiyəyə səfər edərək burada ən yüksək səviyyədə danışıqlar aparması, Avropa Birliyinə (AB) üzvlüyün tezləşdiriləcəyi ilə bağlı rəsmi Ankaraya mesajlar verməsi Qərbin narahatlığının hansı səviyyədə olduğunun təzahürü sayıla bilər.

"Türkiyənin AB-yə üzvlüyü prosesi sürətləndirilməlidir". Bu fikri Ankaradakı mətbuat konfransında qurumun qonşuluq və danışıqlar Avropa siyasəti üzrə komissarı İohanens Han bildirib. Avrokomissar daha sonra deyib: **"Biz bilirik ki, Türkiyə Avropa dəyərlərinin tam dərki ilə birgə işə köklənib. Bizim ən sıx iqtisadi əlaqələrimiz olmalıdır, ancaq hələ ki, qanunvericilik və insan haqları sahəsində islahatlar tələb olunur. Ancaq əgər söhbət təşkilata qəbuldan gedirsə, onu deyə bilərəm ki, yeni Avrokomissiya və onu bütün üzvləri mümkün olan hər şeyi edəcəklər ki, proses sürətlənsin".**

Burdaca arayış üçün xatırladaq ki, qardaş ölkənin AB-yə üzvlüyü ilə bağlı danışıqlar 2005-c ildən başlayıb. O vaxtdan tərəflər Ankaranın yerinə yetirməli olduğu 35 texniki bənddən 14-ü ilə bağlı anlaşıblar. Danışıqlar dəfələrlə fikir ayrılıqları ilə mürəkkəbləşib və dayanıb.

Türkiyənin üzvlüklə qarşısına saysız, hətta aşağılayıcı şərtlər qoyulması, - hansı ki, heç bir üzv dövlət bu qədər incidilməyib, - təbii ki, günün birində Ankaranın quruma üzvlüklə bağlı həvəsini öldürəcəkdi. Elə də oldu. Qərbdən itələnən Türkiyə üzünü tədricən Şərqə çevirməyə başladı. Amma ağıllı şəkidə, Qərblə telləri tam qırmadan, ortaq dəyərləri saxlayaraq.

Beləliklə, nə olmalı idisə, o da oldu. Ancaq belə görünür, Avropa Ankaranın könlünü xoş eləmək üçün hərəkətə keçib. Hətta hansısa proje içindədir. Projenin qayəsində də Moskva-Ankara əlaqələrinin "təhlükəli həddə istiləşməsi" üzündən qardaş ölkəni "Rusiyadan almaqdır".

Vurğulayaq ki, avrokomissarların Ankara ziyarətinin bir əsas məramı Türkiyəni Rusiyaya yaxınlaşmaqdan çəkindirmək, onu Kremlə qarşı sanksiyalara qoşmaq, bu alınmasa, heç olmasa, Türkiyəni neytral mövqe tutmağa çağırmaq olub. Nə dərəcədə buna nail olunub, zaman göstərəcək. Amma üzvlük məsələsində tezliklə ciddi irəliləyişin olacağı inandırıcı deyil. Ən azı ona görə ki, AB-nin iki aparıcı ölkəsi - Fransa, İngiltərə Türkiyə kimi böyük dövlətin quruma qəbuluna qısqanclıqla yanaşır.

Səbəblər barədə zaman-zaman yazılıb. Ən başlıcası odur ki, Paris və London AB-də bir iri müsəlman ölkəsinin də onlar qədər söz sahibi olacağından narahatdır və bunu istəmirlər.

Ankara isə AB-yə əvvəlki tək bir elə can atmır. Çünki hər şeyin öz zamanı var. Zaman isə o zaman deyil. Üstəgəl, situasiyanın Türkiyənin xeyrinə olan, Avropaya təzyiq xarakterli bir özəlliyi də var. Bu da "Cənub axını" qaz layihəsi bağlanandan sonra qardaş ölkənin qitə üçün ötürücü-paylayıcı rolunun artmasıdır.

Lakin Ankara-Moskva münasibətləri heç də bütün sahələr üzrə göründüyü kimi, rəvan getmir. Ziddiyyətlər də kifayət qədərdir. Məsələn, Suriyadakı duruma, Bəşər Əsədin taleyinə yanaşmalar diametral şəkildə fərqlənir. Əgər Türkiyə Əsədin qeyd-şərtsiz hakimiyyətdən getməsinin tərəfdarıdırsa, Rusiya Suriyanın gələcəyini Bəşər Əsədlə təsəvvür edir və onun legitimliyinin hamı tərəfdən tanınmasını istəyir. Yəni bu məsələdə Ankara Qərbin yanındadır. Hərçənd, taktiki baxımdan müəyyən fikir ayrılıqları qalır.

❑ Siyasət şöbəsì

# Gözlərini pul örtənlər...



Hüseynbala SƏLİMOV

**Bəlkə də yaddaşımızı qurdalasaq ölkə kənarında baş verən hansısa müsbət məzmunlu, əlamətdar bir hadisəni yada salmaq olar. Amma ölkə içində bunu etmək çətindir, olduqca çətin...**

İl daha çox həbsləri, təqibləri ilə yadda qaldı. Bu il ölkənin ən tanınmış vəkillərindən biri, ən tanınmış hüquq müdafiəçilərindən biri, ən tanınmış və hakimiyyətin uzun müddət cəzalandırmaq istədiyi jurnalistlərindən biri və ən tanınmış tarixçi-alimlərindən biri həbs edildi...

Başqa vaxt onların həbs olunmasını təsəvvür etmək belə mümkün deyildi, ona görə ki, onların hər birinin immuniteti vardı: onlar kifayət qədər tanınan, bir neçə dəfə beynəlxalq mükafatlara layiq görülən və bilavasitə siyasətlə məşğul olmayan insanlar idi...

Amma onları həbs etdilər. İndi yeni il ərəfəsində əfv olacağını deyirlər. Fəqət, çətin ki, həmin əfv fərmanı bu insanlara şamil edilsin. Ona görə ki, bu adamlar haqqında məhkəmənin qərarı hələki yoxdur.

Ölkədə əfv olmanın isə standart proseduru var: əvvəlcə istintaq və məhkəmə bu insanların "təqsirli" olması haqda qərar verməli, daha sonra bu insanlar bir müddət həbsdə olmalı, bundan sonra əfv ərizəsi ilə müraciət etməli və yalnız bunlardan sonra hakimiyyət "müdriklik" və "humanizm" nümayiş etdirərək bu adamları azad etməlidir...

Bu minvalla onların azad olması növbəti ildə baş tutsa, buna da sevinmək olar.

Prinsipcə, bu insanlara qarşı ədalətsiz istintaq qapana da bilərdi. Amma hakimiyyət heç vaxt buna getməz- onda belə bir fikir yarana bilər ki, insanlar əbəs yerə həbs edlibmiş, onların heç bir günahı yox imiş... Bu isə Azərbaycan iqtidarının siyasi üslubuna yaddır-bu adamlar üzücü istintaq prosesini keçməli və hakimiyyətə etiraz etməyin nə qədər böyük səhv olduğunu "başa düşməlidirlər"...

Bir ümidverici detal da var, o, da budur ki, qarşıdan Avropa oyunları gəlir. Bu tədbirə yüzlərlə əcnəbi jurnalist qatılacaq. Onların bir hissəsi təbii ki, ölkədəki vəziyyətlə, demokratiyanın və insan haqlarının durumu ilə maraqlanacaq...

Qəti şəkildə demək olar ki, ölkə Avropa oyunlarına 100 siyasi məhbusla gedə bilməyəcək, onların bir hissəsi mütləq azad olunacaq.

Amma bu, ölkənin ən tanınmış ictimai-siyasi simalarına şamil olunacaqmı? Bax, bunu demək çox çətindi, çünki ölkə kriminal qanunlara yaxın qaydalarla idarə olunur, burada "izmena"nı bağışlamırlar, bunun arxasınca mütləq "nakazanie" gəlir...

Ona görə də ötməkdə olan ilin müsbət yükü olmadı. Amma ilin günahı nə? İl bir ağ vərəqdi və onu insanlar yazırlar...

Hər dəfə siyasi məhbus problemindən yazanda bir detalı mütləq qeyd edirik: ölkədə bir siyasi məhbus siyahısı o birisini əvəz edir, bir qrup əfv olunur və bunun ardınca digər siyasi məhbuslar dəstəsi gəlir...

Niyə belə olur? Avtoritar siyasi sistem qalır, o, islah olunmur, dəyişmir, necə var, elə də qalır (ən yaxşı halda!). İnsanlar da ona qarşı mübarizə aparırlar... Bu, sonu çox da asan təsəvvür olmayan və sonu çətin görünən bir yoldur. Kim nə qədər bacarırsa bu yolun o qədər hissəsini gedir. Heç kim heç kimi də qınamır. Bu yol mütləq həbsdən keçir, çünki ölkə belədi. Hətta "oralar"da da olmuş, həbsxana taleyi də yaşamış insana kim nə deyə bilər ki?..

Amma bir məsələ var. Avtoritar siyasi sistemin resursları tükənmədiyi kimi bu ölkənin mübariz insanlarının da sıraları tükənmir: biri siyasi səhnəni tərk edir, o birisi gəlir, beləcə mübarizə davam edir...

Fəqət, 2014-cü ilin həbslərində bir detal da nəzərə çarpdı: bu hakimiyyət öz opponentlərini zərərsizləşdirmək üçün heç nədən çəkinmir, onu nə beynəlxalq dəstək dayandırır, nə də hansısa ictimai və siyasi fəalın malik olduğu siyasi kapital...

Azərbaycanlılar arasında bir deyim var. Bir adam ağına-bozuna baxmadan harınlıq edəndə deyirlər ki, filankəsin gözlərini pul tutub. İndi hakimiyyətin də təmsilçilərinin bəzisinin gözünü pul və sərvət tutub...

Hətta daha peşəkar, daha tədbirli hərəkət etməyin də fərqində deyillər. Bəzən o qədər kobud, o qədər qeyri-peşəkar hərəkət edirlər ki, təsadüfən buz üstünə çıxmış buzova bənzəyirlər...

Bütün deyilənlərə rəğmən, bir detalı da qeyd etmək lazımdı: bunlar da bacarmır... Öz opponentlərini istədikləri qədər və istədikləri kimi cəzalandıra bilmirlər. Bu, onları bir az da özlərindən çıxarır, bir az da qəddarlaşdırır və bir az da hövsələlərini daraldır. Nə etmək olar?..

YENİ MÜSAVAT
N 301 (6010) 10 dekabr 2014

**Hazırda həbsdə olan araşdırmaçı jurnalist, AzadlıqRadiosunun əməkdaşı Xədicə İsmayıl türmədən həmkarlarına zəng edib. Bu barədə radionun “İşdən sonra” verilişinin aparıcısı, jurnalist Kamran Mahmudov facebook səhifəsində yazıb. Status aşağıdakı kimidir: “Xədicə zəng vurmuşdu. Dedi ki: ”Mən möhkəməm, siz də möhkəm olun.**


Tural Mustafayev
3 сентябрь ·
Son günlərdə çoxlu içib piyan olmaq istəyirəm. O qədər içmək istəyirəm ki, hətta özümü unudum. Son vaxtlar onsuzda bir-iki qədəhə piyan oluram. Yaxşı dostlardan kim içmək istəyir barmağın qaldırsın ? — настроена решительно в 28 May.

# Xədicə İsmayıl türmədən mesaj göndərdi, işdə yeni xüsusatlar var

## Tural Mustafayevin “intihar şousu” barədə ilginc detallar və foto-fakt üzə çıxdı

Gözləyirdim ki, hökumətin əsəblərinin çat verən vaxtı olacaq. Bu baş verdi və mən həbs olundum. Mənə qarşı irəli sürülən ittihamlar uydurmadır. Çirkli və qara piar ucun nəzərdə tutulmuş ittiham irəli sürülüb. Ancaq bütün bunlara baxmayaraq mən möhkəməm. Bilirəm ki, sizə də asan deyil. Amma ruhdan düşməyin. İşinizi davam etdirin. Hər kəsin öz işini davam etdirməsi çox vacibdir. Həmkarlarımdan yeni-yeni araşdırmalar, hüquq müdafiəçilərindən yeni-yeni təşəbbüslər gözləyirik. İş davam etməlidir".

**X.İsmayılın yaxın rəfiqəsi, jurnalist Aynur İmranova isə mediada “Xədicə İsmayılın bəzi dostları ona qarşı ifadə verib” xəbərinə münasibət bildirmək üçün status yazıb:** “Bu gün qəzetlər xəbər yayıb ki, Xədicənin dostlarından biri ona qarşı ifadə verib. Belə görürəm ki, hakimiyyət mövzudan yayınmaq üçün qara "pr"-ı genişləndirib, iç savaş yaratmaq istəyir. Bu işdə ifadə verən dostlarından biri olaraq bəyan edirəm ki, mənim ifadəmlə vəkilim də, şəxsən Xədicə İsmayıl da tanışdır. Bir daha təkrar edirəm, nöqtə vergülünə qədər. Xədicənin bütün dostlarından da ricam bu məsələyə mövqe bildirsinlər. Bu xəbəri tirajlayan, özünü "tərəfsiz" adlandıran mətbu orqanlarına da üzümü tutub deyirəm ki, bir statusdan xəbər düzəldəndə qarşı tərəf kimi bir necə nəfərin də fikrini vermək olardı, əgər qərəzli deyillərsə".

### Ann Brassör: “Azərbaycan hökumətini Xədicə İsmayıl və digər hüquq müdafiəçiləri ilə bağlı konvensiyada nəzərdə tutulmuş standartlara əməl etməyə çağırıram”

“Xədicə İsmayılın həbsi ilə bağlı dərin narahatlığımı bildirirəm. Hesab edirəm ki, Azərbaycan Avropa Şurasının üzvü kimi Avropa İnsan Hüquqları Konvensiyasının standartlarına hörmət etməlidir. Azərbaycan hökumətini Xədicə İsmayıl və digər hüquq müdafiəçiləri ilə bağlı konvensiyada nəzərdə tutulmuş standartlara əməl etməyə çağırıram”. Bu barədə Avropa Şurasının Parlament Assambleyasının (AŞ PA) prezidenti Ann Brassörün araşdırmaçı jurnalist Xədicə İsmayılın həbsi ilə bağlı bəyanatında deyilir.

“Xədicə İsmayıl Avropa Şurasının uzun müddətdir əməkdaşlıq etdiyi şəxslərdən biridir. AŞPA-nın sonuncu sessiyası zamanı Xədicə İsmayıl şəxsən özünə və hüquq müdafiəçilərinə qarşı dəhşətli təzyiq kampaniyası haqda danışaraq məni şoka salmışdı”, o yazır.

Avropa Şurasının baş katibi Thorborn Jagland AzadlıqRadiosunun əməkdaşı Xədicə İsmayıl barəsində həbs-qətimkan tədbirinin seçilməsi ilə əlaqədar bəyanat yayıb. Bəyanatda baş katib Azərbaycanın tanınmış tədqiqatçı jurnalisti barəsində iki aylıq həbs-qətimkan tədbirinin seçilməsindən narahatlığını bildirib.



Bu arada “Yeni Müsavat” T.Mustafayevin ilk intihar hadisəsi ilə bağlı ilginc detallar əldə edib. Belə ki, o, ilk dəfə bu ilin aprel ayında intihara cəhd edib. Hətta arxa fonda göydən ip asılmış yerdə fotosunu da facebookdan paylaşaraq, intihar edəcəyinin anonsunu verib. Bizə bu barədə məlumat verən mənbəmizin sözlərinə görə, həmin vaxt jurnalist cameəsindən xeyli adam onun evinə gedib və T.Mustafayevi jurnalist, "Meydan TV"nin əməkdaşı Təhminə Tağızadə xilas edib. T.Mustafayev həmin vaxt intiharına səbəb kimi nişanlısı Rövşanə Rəhimlinin ondan ayrılmasını göstərib.

Yaxın ətrafı həmçinin T.Mustafayevin xroniki alkoqolik olması barədə də danışır. Onların bildirdiyinə görə, jurnalist dost çevrəsində öz alkoqol düşkünlüyü ilə tanınırmış. Hətta onun müxtəlif dönəmlərdə “içkini atmışam” dediyi dövrdən sonra facebookda dostlarını içki məclisinə dəvət etməsi barədə statusları var.

Bu arada T.Mustafayevin atası Bulud Mustafayev də aznevs.az saytına müsahibəsində ilginc məqamlar açıqlayıb: “Xədicə İsmayıl ona qəyyumluq edib, öz yanına aparıb. Mən sonralar bilmişəm ki, Tural Bakıya gedəndən Xədicənin evində onunla birlikdə yaşayırmış. Xədicə ona qəyyumluq edirmiş. Bir müddətdən sonra onlar arasında qısqanclıq zəminində münaqişələr başlayıb. Daha sonra Tural harda işləməyə gedibsə, orda təzyiqlərə məruz qalıb.

Onu birinci ailəsindən də boşandırdılar. Hansı ki, gözəl ailəsi, uşağı var idi. O vaxt bildirmirdi, amma ailəsi dedi ki, ola bilər onu kimlərsə tora salıb. Can deyib, can eşidirdilər. Xədicə ilə münasibətləri korlananda isə hara getdi ona iş vermədilər. İşlətdilər, pulunu da vermədilər".

**B.Mustafayev həmçinin iddia edib ki, oğlunun işsiz qalmasında da X.İsmayıl günahkardır, çünki oğlu ona “üstümdən xətt çəkiblər, məni heç yerdə işə götürməyiblər”, deyib. Atası onun intiharı ilə bağlı aşağıdakıları bildirib:** “Tez-tez əlaqə saxlayırdıq, hal-əhval tuturdum. Hadisə törənənə bir saat qalmış soyadını bilmədiyim Samirə adlı hüquqşünas mənə zəng etdi ki, Tural mənə deyir özünü öldürəcək. İki dəfə Turalı yığdım, düşə bilmədim. Sonra həmin qıza telefon açdım. Dedim ki, ay qızım, ona zəng çatmır. Yenidən Samirədən mənə mesaj gəldi ki, Tural siçan zəhəri içib, özünü öldürdü. İndi həmin vaxt mənim vəziyyətimi başa düşün. Mən də yıxıldım. Sonra başladım dalbadal zəng etməyə. Yenidən Samirəyə zəng etdim ki, siz Allah, mən kənddəyəm, 103-ə zəng edin, kömək edin ona. Dedi ki, edəcəyəm. Doğrudan da onu xəstəxanaya çatdırdı. Yenidən Turalın iki nömrəsinə də zəng etdim. Bir neçə zəngdən sonra bir nəfər telefonu qaldırdı. Telefonu götürən kimi sevindim ki, Turalın səsini eşidəcəm. Amma həmin adam dedi ki, telefonun yiyəsinin ağzı köpüklənib, nəfəsi kəsilib. Dedim, qardaş, Allahdan ümid üzülmür, Təcili Tibbi Yardıma müraciət edin. İkinci dəfə zəng edəndə həmin adam dedi ki, onun vəziyyəti ağırlaşıb. Dedim, kimsən, cavab verdi ki, bulvar işçisiyəm adım Hakimdir. Yalvardım ki, Təcili Yardımla xəstəxanaya aparsa adını deyin mən gələ bilim. Onu belə bilmişəm”.

❑ **Sevinc TELMANQIZI**

# Məmur-oliqarxların büdcədən mənimsədiyi milyardlar



## Qubad İbadoğlu şok korrupsiya faktları açıqladı

İqtisadçı alimin təqdim etdiyi statistikaya görə, 2008-2013-cü illər ərzində idxal əməliyyatları zamanı 21,5 milyard dollar mənimsənilib; ən yüksək göstərici 2013-cü ildə qeydə alınıb - 4,9 milyard dollar

**İqtisadi Tədqiqatlar Mərkəzinin rəhbəri, iqtisadçı-alim Qubad İbadoğlu Azərbaycana xaricdən mal idxalı zamanı həyata keçirilən maxinasiyalarla bağlı maraqlı faktlar açıqlayıb. Q.İbadoğlu bununla bağlı facebookdakı profilində statistika açıqlayıb. O yazır: “9 dekabr Beynəlxalq Antikorrupsiya günüdür. Odur ki, mən də öz növbəmdə Azərbaycanda korrupsiyanın azaldılması işinə töhfəmi vermək üçün 2013-cü ilin məlumatlarını da daxil edib, güzgü statistikası metodologiyası əsasında yeniləşdirdiyim hesablamaların nəticələrini təqdim edirəm”.**

**Azərbaycanın idxal əməliyyatlarının güzgü metodologiyası ilə dəyərləndirilməsi**
**(2008-2013-ci illər üzrə, 15 ölkənin məlumatları əsasında)**

| Bütün ölkələr üzrə | Ticarət tərəfdaşının mənbələrində Azərbaycana ixracat, Mln. dollarla | Azərbaycanın rəsmi mənbələrində idxalat, Mln. dollarla | Fərq, Mln. dollarla | Fərqin rəsmi idxalatda xüsusi çəkisi %-lə |
|---|---|---|---|---|
| 2008 | 8037971 | 5483505 | 2554466 | 46.6% |
| 2009 | 6567752 | 4818022 | 1749730 | 36.3% |
| 2010 | 8791597 | 5037918 | 3753679 | 74.5% |
| 2011 | 10871245 | 7170088 | 3701157 | 51.6% |
| 2012 | 12293775 | 7434423 | 4859352 | 65.4% |
| 2013 | 12393691 | 7431728 | 4961963 | 66.8% |

Q.İbadoğlu bildirir ki, hesablamalar Azərbaycanın əsas ticarət tərəfdaşları olan 15 ölkədən Azərbaycana idxal məlumatları əsasında aparılıb: “2008-20013-cü illəri əhatə edən bu hesablamalara görə, son 6 ildə qarşı tərəfin verdiyi məlumatlarla bizim (Azərbaycanın - red.) rəsmi statistik məlumatlar arasında fərq 21,58 milyard dollar, il ərzində isə orta hesabla 3,6 milyard dollar təşkil edir. Son 6 ilin trend təhlili göstərir ki, fərqin dinamikası pozitivdir və ən yüksək göstərici 2013-cü ildə qeydə alınıb - 4,9 milyard dollar”.

Q.İbadoğlu həmin maxinasiyaları daha geniş şəkildə əks etdirən cədvəli də təqdim edib.

Nəzərə çatdıraq ki, idxal əməliyyatları zamanı həyata keçirilən maxinasiyalarla bağlı iqtisadçılar tərəfindən bir neçə dəfə rəqəmlər açıqlanıb, həyəcan təbili çalınıb. Lakin fakt bundan ibarətdir ki, bu sahədə bir durulma getmir. Bu da səbəbsiz deyil. Çünki Azərbaycana xaricdən böyük həcmdə mal gətirən şəxslərin demək olar ki, hamısı yüksək vəzifə tutan məmur-oliqarxlardır. Onlar zəncirvari şəkildə bu prosesi həyata keçirirlər və idxal olunan malların alış qiymətini, çəkisini, həcmini dəfələrlə azaldırlar. Məsələn, tutaq ki, Rusiya gömrüyündə 100 ton rəsmiləşdirilən mal Azərbaycan gömrüyündə 20 ton kimi göstərilir. Bu zaman gömrük və vergidən yayınmalar baş verir.

Nəzərə çatdıraq ki, son illərdə daha çox maxinasiya Çin, Rusiya və Türkiyədən həyata keçirilən idxalda baş verir.

Ekspertlər bildirir ki, bu maxinasiyaların aradan qaldırılması üçün idxal zamanı rəsmiləşdirmə və gömrük qeydiyyatı prosesini həyata keçirmək “Asan Xidmət”ə həvalə olunmalıdır. Bununla bağlı layihə də hazırlanıb, ancaq onun nə zaman gerçəkləşəcəyi haqda bilgi yoxdur.

❑ **T.ƏHMƏDLİ**

# “Lider qadın obrazı barədə təsəvvürlər formalaşmayıb”

## DİP “Azərbaycan qadınları 21-ci əsrdə” mövzusunda konfrans keçirib

**Demokratik İslahatlar Partiyasının (DİP) təşəbbüsü ilə “Azərbaycan qadınları 21-ci əsrdə” mövzusuna həsr olunmuş konfrans keçirilib. Konfransı giriş sözü ilə açan partiya sədri Asim Mollazadə qeyd edib ki, Azərbaycan qadınları 21-ci əsrin çağırışlarına cavab verməklə, öz fəal, savadlı, dünyadakı qadınlarla rəqabətdə irəli çıxmaq bacarıqları ilə yenə də Türk və İslam aləmindəki öncül qadın rolunu öz üzərinə götürməlidir.**



“Müsəlman şərqində ilk olaraq Azərbaycanda gender balansını ehtiva edən qanunvericilik bazası yaradılmış, qadına seçki hüququ verilmişdi. Bu, hətta ABŞ və bir sıra Avropa ölkələrindən əvvəl olmuşdu. Bu o vaxt idi ki, hələ Almaniya "uşaq-mətbəx-kilsə" qapalı üçbucağından çıxa bilməmişdi. İndi isə Azərbaycan qadınlarının qarşısında yeni tələblər dayanır. Qadınlar keyfiyyətli təhsil almalıdırlar ki, öz ləyaqətli həyatlarını təmin edə bilsinlər. Bu gün təhsil sahəsində işləyən qadınların sayı çoxdur və onlar dövlət qayğısı ilə əhatə olunmalıdırlar. Amma biz istəyirik ki, qadınlar daha da inkişaf etsinlər və ölkənin ictimai-siyasi həyatında önə çıxsınlar. Partiyanın bu konfransı təşkil etməkdə də əsas məqsədi Azərbaycan qadınlarının fəallığının artırılması üçün səmərəli fikir və təklifləri dinləməkdir. Burada səslənən fikirlər əsasında təkliflər paketi hazırlanaraq müvafiq icra və qanunverici hakimiyyətlərə təqdim ediləcək".

Sonra DİP Siyasi Şurasının üzvü, “Qadın Liderliyi Uğrunda” İctimai Birliyin sədri Ülkər Abdullayeva “Azərbaycanda qadın liderliyi: problemlər və çıxış yolları” mövzusunda məruzə edib. Qadınların idarəetmədə, qanun yaradıcılığında, seçkilərdə, sahibkarlıqda, təhsil prosesində, diplomatik fəaliyyətdə iştirakına dair statistika, aparılmış tədqiqatların nəticələri barədə danışıb. **“Sovet dövründə qadınlar üçün kvotalar sistemi vardı. O vaxt hansı qadının cəmiyyətin önündə olması sualına daha asan cavab tapılırdı. O məhz zəhmətkeş, çoxlu keçici və qırmızı bayraqlara layiq görülmüş qadın obrazı idi. Bu obrazı isə əsasən kolxozçu və fəhlə qadın formalaşdırırdı. Ən nümunəvi qadın ən çox süd sağan, ən çox pambıq və tütün becərən qadın idi. Sovet quruluşu dəyişincə öncül qadın standartları da dəyişməyə başladı. 20 ildən artıq bir vaxt keçməsinə baxmayaraq, hələ də Azərbaycan cəmiyyətində öncül qadın, lider qadın obrazının necə olmalı olduğu barədə sistemli təsəvvürlər formalaşmayıb”** - deyən natiqin fikrincə, 21-ci əsr Azərbaycan qadınının qarşısına çox böyük missiyalar qoyur. Azərbaycan qadınları bu irəli texnologiyalar, inkişaf və böyük irəliləyişlərin gözlənildiyi əsrdə öz yolunu və funksiyalarını müəyyənləşdirməlidir. **“Biz necə etməliyik ki, dünyadakı tərəqqi ilə ayaqlaşaq və rəqabətə davam gətirə bilək?”** - deyən Ü.Abdullayeva qadınlarla bağlı apardıqları tədqiqatların nəticələrini açıqlayıb. Qeyd edib ki, bu gün qadınları ən əvvəl ailə, sağlamlıq və reproduktiv sağlamlıq imkanları, maddi təminat, gözəl geyinmək, yüksək məişət həyatı maraqlandırır. Təhsil, qadın hüquq və azadlıqları, diskriminasiyalar sonra gəlir. Liderlik, hakimiyyət, idarəetmə, öz avtoritetini formalaşdırma, siyasi mədəniyyət, ictimai şüur isə qadınlar üçün sonuncu yerlərdədir. Halbuki cəmiyyəti təşkil edən insanları məhz qadın dünyaya gətirir və tərbiyə edir. Ona görə də qadının ictimai-siyasi həyatın formalaşmasında fəallıq etməsi vacibdir. Ü.Abdullayeva problemlərin həllinə dair DİP-in təkliflərini diqqətə çatdırıb.

Müzakirələr zamanı millət vəkillərindən Sevinc Fətəliyeva, Ceyhun Osmanlı, bir sıra yerli və beynəlxalq təşkilatların rəhbərləri, müvafiq nazirlik və komitələrin, ali və orta təhsil müəssisələrinin təmsilçiləri mövzu barədə fikir və təkliflərini ifadə ediblər.

❑ **Cavid TURAN**

**Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində gərginlik davam edir. 12 noyabrda Ağdam səmasında vurulan helikopterin şokunu yaşayan işğalçı ölkə məqam düşən kimi Azərbaycandan heyfini çıxmağa, bununla həm də erməni cəmiyyətini sakitləşdirməyə və Qarabağdakı erməni əhalisinin təşvişini azaltmağa çalışır.**



# Cəbhədə gərginlik artdı; düşmənin diversiya qrupu məhv edildi

## Erməni əsgərləri Qarabağda xidmətdən imtina edir; erməni ordusunda əsgər çatışmazlığı yaranıb; Ermənistan əhalisi ordudakı ölümlərə etiraz olaraq ayağa qalxdı

Azərbaycan Müdafiə Nazirliyi bildirir ki, son sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində atəşkəs rejimi ümumilikdə 57 dəfə pozulub. Erməni silahlı bölmələri Tərtər rayonunun Çiləbürt, Göyarx, Ağdam rayonunun Mərzili, Yusifcanlı, Şıxlar, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qorqan, Qaraxanbəyli, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar.

Düşmən cavab atəşi ilə susdurulub. Nazirliyin yaydığı rəsmi məlumata görə, dekabrın 8-də axşam saatlarında cəbhənin cənub istiqamətində erməni kəşfiyyat-təxribat qrupları təmas xəttini keçməyə cəhd göstərib.

Silahlı Qüvvələrimizin bölmələrinin sayıqlığı, düşmənin yaxınlaşmasının əvvəlcədən aşkar edilməsi və görülən qabaqlayıcı tədbirlər nəticəsində şiddətli atışma zamanı çoxsaylı itki verən ermənilər geri çəkilməyə məcbur edilib.

Azərbaycan Silahlı Qüvvələri tərəfindən heç bir itki yoxdur, cəbhə boyu vəziyyətə tam nəzarət edilir. Müdafiə Nazirliyi həmçinin bildirir ki, Ermənistanın elektron kütləvi informasiya vasitələrinin Azərbaycan Silahlı Qüvvələrinin guya cəbhədə təxribat törətməsi və bunun nəticəsində itki verməsi barədə yaydığı məlumatların heç bir əsası yoxdur və bu, Ermənistan silahlı qüvvələri bölmələrinin verdiyi itkilərin sayının gizlədilməsi məqsədilə atılan növbəti addımdır. “Azərbaycan Silahlı Qüvvələri bütün cəbhə boyu düşmənin fəaliyyətini tam nəzarətdə saxlayır”.

Azərbaycandakı hərbi mənbələrdən sızan bilgilərə görə, dünən gecə baş vermiş atışmada 7 erməni əsgəri öldürülüb. Onların kəşfiyyat-təxribat qrupu olduğu isə qəti şübhə doğurmur.

Bir gün öncə isə Dağlıq Qarabağda Ermənistan silahlı qüvvələrinin əsgəri Qarik İspiryan öldürülüb. Onun hansı şəraitdə öldüyü hələlik məlum deyil. İlkin ehtimala görə, onu əsgər yoldaşı öldürüb.

Qeyd edək ki, son günlər Ermənistan müxtəlif səbəblərdən xeyli əsgər itirib. Erməni mətbuatının yazdığına görə, orduda intihar halları da əvvəlki illərlə müqayisədə həddindən artıq çoxalıb. Son bir ayda Ermənistan ordusu 10-dan çox itki verib. Onların bəziləri intihar edib, bəziləri isə əsgər yoldaşları tərəfindən öldürülüb. Azərbaycan torpaqlarında xidmət etmək istəməyən erməni əsgərlər çıxış yolunu intiharda görür. Dekabrın 4-də işğal altındakı Qarabağ ərazisində Ermənistan ordusunun 19 yaşlı muzdlusu Artur Markaryan sərhəd zonasında aldığı güllə yarasından ölmüşdü. Ermənistan tərəfinin baş vermiş ölüm hadisəsini araşdırdığı yazılsa da, Ermənistan Müdafiə Nazirliyinin əsgərin necə ölməsini gizlətdiyi də vurğulanırdı. Araşdırmalar zamanı məlum olub ki, əsgər özünü güllələyib. Bundan öncə isə digər bir erməni hərbi qulluqçusunun öz komandiri tərəfindən vurulduğu xəbəri yayılmışdı. 19 yaşlı erməni əsgər Artur Markaryan Ermənistanın işğal etdiyi Qarabağ ərazisində güllə yarası alıb.

Bir neçə gün əvvəl erməni əsgərinin Dağlıq Qarabağda xidmət keçməmək üçün özünü atdığı İrəvanın Kiyevyan körpüsündən bu dəfə iki qardaş özünü ataraq intihar edib. “Atvxəbər” bildirir ki, bu dəfə də səbəb eynidir. Hər iki qardaş Qarabağda hərbi xidmət keçməmək üçün intihara əl atıblar. Xəstəxananın həkimi bildirib ki, onları xəstəxanaya gətirəndə son nəfəsləri imiş: **“Əvvəlcə kiçik qardaş öldü, ondan 3 dəqiqə sonra böyük qardaşını itirdik. Hər ikisinin onurğa və baş beyinləri ağır zədələnmişdi”**. Ermənistanın Şirak vilayətindən olan Heham və David Şamşyan qardaşlarından biri ali məktəbi bitirdikdən sonra, digəri isə 18 yaşına çatdığı üçün hərbi xidmətə çağırılıblar. Onlara Qarabağa, ermənilərin Matahis adlandırdıqları hərbi hissəyə gedəcəkləri bildirilib. Daha əvvəl dost-tanışlarından Qarabağa getməyin nə demək olduğunu eşidən qardaşlar göz görə-görə cəhənnəm əzabı yaşamaqdansa, intiharı seçiblər və səbəbini də intihardan əvvəl yazdıqları məktubda göstəriblər: **“Dostlarımızdan biri, elə həmin hərbi hissədə dizenteriyadan ölən əsgərlə bağlı yalan ifadə verməyə məcbur edilib, ona 6 il həbs cəzası kəsildi. Belə antisanitariya və dərəbəylik olan bir yerə biz getmək istəmirik”**.

Ermənistandakı orduda isə gərginlik o həddə çatıb ki, hərbçilər bir-biri ilə münasibətləri silahla çözür. Məlumata görə, Ermənistan hərbi hissələrdən birində baş leytenant Qazaryanla sıravi əsgər Saribekyan arasında mübahisə düşüb. Bundan sonra baş leytenant avtomat silahı götürərək ətrafa nizamsız atəş açmağa başlayıb. Güllələrdən biri təsadüfən muzdlu Ananyana dəyib. Təcili hospitala çatdırılan muzdlu əməliyyat edilib. Erməni baş leytenanta tabeliyində olan hərbi qulluqçularla kobud davranma və onlara qarşı silah işlətmə maddəsi ilə cinayət işi açılıb. Ermənistan Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Artsrun Ovanisyan hərbi qulluqçunun yaralanması faktını şərh etməkdən imtina edib.

Ermənistan əhalisi isə işğalçılıq siyasətinin uğursuzluqlarına artıq dözə bilməyərək hakimiyyətə etiraz aksiyalarına başlayıb. Əsgər çatışmazlığı ilə üzləşən Ermənistan ordusunda hərbi qulluqçuların əsgərlik müddəti başa çatsa da, onlar evə buraxılmırlar. Bu səbəbdən İrəvanda aksiya keçirən valideynlər övladlarının qanunsuz olaraq müddətdən artıq xidmət etməsinə etiraz edib. Əsgər anaları yenidən işğalçı ölkənin Maşrop meydanını zəbt edib. Onlar bu dəfə övladlarının qanunsuz olaraq müddətdən artıq hərbi xidmət keçməsinə etiraz edirlər. Valideynlər “Oğullarımızı geri istəyirik!” şüarları ilə Sarkisyan rejiminə xəbərdarlıqlar ediblər. Yayılan məlumata görə, Həmkarlar İttifaqının dəstək verdiyi aksiya bir neçə gün davam edəcək. Xatırladaq ki, Ermənistanın müdafiə naziri Seyran Ohaniyan Dağlıq Qarabağda və sərhədyanı bölgələrdə “xidmət edən” əsgərlərin “xidmət vaxtını” uzatmaq haqqında göstəriş verib. Üstəlik, son günlər cəbhədə gərginliyin yaşanması, erməni gənclərin Azərbaycan torpaqları uğrunda ölməsi erməni xalqını silkələyib və onlar rejimə nifrət püskürməkdədir. Hətta bu proseslərin Sərkisyan rejiminin sonuna apardığını proqnozlaşdıran ekspertlər də var.

***

Cəbhədə gərginliyin növbəti dəfə pik həddə yüksəldiyi bir ərəfədə Azərbaycanın baş naziri Artur Rasizadənin hərbi hissələrə baş çəkməsi də müzakirələrə səbəb olub. Rəsmi məlumata görə, baş nazir Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən Hərbi Hava Qüvvələrinin hərbi hissələrinə gedib. Cənab Rasizadə yeni tikilən və tam təmir olunan qərargah və döyüş növbəsinin aparılması binalarına, start-komanda məntəqəsinə, əsgər yataqxanasına, uçuş-texniki heyət və əsgərlər üçün nəzərdə tutulan yeməkxanalara, hamam-camaşırxana-qazanxana kompleksinə, nəzarət buraxılış məntəqəsinə və sıra meydanına baş çəkilib və orada yaradılan şəraitlə tanış olunub. Məlumatda deyilir ki, müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna göstərdiyi yüksək diqqət və qayğının nəticəsi olaraq son vaxtlar Silahlı Qüvvələrin döyüş hazırlığının daha da gücləndirilməsi, şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması, maddi-texniki bazanın möhkəmləndirilməsi məqsədilə görülən işləri xüsusi vurğulayıb.

Uçuş-texniki heyəti ilə görüşən baş nazir A.Rasizadə aviabazanın ərazisində aparılan işlərdən məmnun qaldığını, bundan sonra da bu istiqamətdə fəaliyyətlərin davam etdiriləcəyini bildirib və şəxsi heyətin sosial-məişət şəraitinin həlli üçün müvafiq tədbirlərinin görüləcəyini diqqətə çatdırıb. Bundan öncə Müdafiə Nazirliyinin rəhbər şəxsləri də cəbhə bölgəsində hərbi hissələrə baş çəkərək ordumuzun döyüş hazırlığını yoxlamışdı. Ermənistanın xarici işlər naziri Edvard Nalbəndyan sülh problemlərinin tədqiqi ilə məşğul olan Stokholm Beynəlxalq Sülh Araşdırmalar İnstitutunda təşkil edilən bir tədbirdə ölkəsinin xarici siyasəti mövzusunda məruzə edib. O, çıxışının çox hissəsini İrəvanın xarici siyasətinin təhlilinə deyil, Azərbaycana böhtan atmağa sərf edib. Bakını bir sıra məsələlərdə, əsasən də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində tutduğu mövqeyə görə öz anlamında tənqid edib. Azərbaycanın sürətli inkişafını təhrif edən E.Nalbəndyan onun hərbi qüdrətinin artmasından narahatlığını da dilə gətirib.

Azərbaycanda isə maraqlı bir sorğu keçirilib. “Rəy” Monitorinq Mərkəzinin 1300-ə yaxın respondent arasında keçirdiyi ictimai rəy sorğusunun nəticələrinə görə, rəyi soruşulanların demək olar ki, hamısı (98 faiz) Azərbaycanın işğal olunmuş ərazisində mövqelərimizə hücum etməyə cəhd göstərmiş Ermənistan silahlı qüvvələrinə məxsus helikopterin vurulmasını çox müsbət qarşılayıb: 98 faiz buna müsbət yanaşdığını, cəmi 2 faiz isə cavab verməkdə çətinlik çəkdiyini bildirib. (gün.az). Bu isə Azərbaycan əhalisinin torpaqları azad etməkdən başqa variant görmədiyini isbatlayır.

***

Dekabr ayının 16-17-də isə Ankarada Azərbaycan və Türkiyə arasında Yüksək Səviyyəli Hərbi Dialoq iclası keçiriləcək.

Bu barədə APA-ya Türkiyənin Milli Müdafiə Nazirliyindən məlumat verilib. İclasda iki ölkə arasında hərbi sahədə əməkdaşlığın növbəti il üçün hədəfləri, hərbi, hərbi-texniki, hərbi təhsil sahəsində əməkdaşlıq imkanları və perspektivləri müzakirə ediləcək. İclasda hər iki tərəfdən silahlı qüvvələrin ayrı-ayrı strukturlarının, həmçinin müdafiə sənayesinə məsul qurumların nümayəndələri iştirak edəcəklər. Qeyd edək ki, Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoqu 2007-ci ildən etibarən ildə bir dəfə olmaqla keçirilir. Azərbaycan tərəfdən nümayəndə heyətinə müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyev rəhbərlik edəcək. Buna qədər Hərbi Dialoqa qatılan Azərbaycan heyətinə müdafiə nazirinin sabiq müavini Çingiz Məmmədov rəhbərlik etmişdi.

Belə bir durumda növbəti müharibə xəbərdarlığı gəlib.



Vəfa Quluzadə

### Politoloq deyir ki, müharibə hər an başlaya bilər; ABŞ səfirliyi isə sülh danışıqlarında yaranan durğunluqdan məyus olduğunu açıqladı

**“Ermənistan ordusunda baş verən son hadisələr Dağlıq Qarabağda müharibənin hələ tam başa çatmadığının sübutudur”.**

Bunu hafta.az-a açıqlamasında **politoloq Vəfa Quluzadə** Ermənistan ordusunda baş verən hadisələrə ictimai narazılığın artmasına münasibət bildirərkən deyib. Politoloq xidmət müddəti başa çatmasına baxmayaraq, əsgərlərin ehtiyata buraxılmamasının pərdə arxasından danışıb: **“Məsələ ondan ibarətdir ki, biz Ermənistanla müharibə vəziyyətindəyik. Münaqişə həll bitməyib. Azərbaycan ermənilərlə hər an müharibəyə hazır olmalıdır. Hər an müharibə ola bilər. Hazırkı status-kvo ilə barışa bilmərik”.**

Gərginliyin artması isə böyük gücləri də narahat edir. ABŞ-ın ölkəmizdəki elçiliyindən də reaksiya gəlib. “ATƏT-in Minsk Qrupunun həmsədrləri Bazeldə bəyanatla çıxış ediblər. Bildiyiniz kimi, Birləşmiş Ştatlar Minsk Qrupunun həmsədrlərindən biridir və ümumi bəyanat həm də Birləşmiş Ştatların mövqeyini əks etdirir”. Bunu isə ABŞ-ın Azərbaycandakı müvəqqəti işlər vəkili Derek Hoqan deyib. (APA) D. Hoqan sülh danışıqlarında yaranan durğunluqdan məyus olduqlarını və narahatlıq keçirdiklərini söyləyib: **“Biz hər iki tərəfi sülh danışıqları prosesinə dəstək verməyə çağırırıq”.**

Diplomat bildirib ki, həmsədrlər bölgədə baş verən hadisələri yaxından izləyirlər və onların növbəti səfəri Azərbaycan və Ermənistan hökumətlərindən asılıdır: **“Hökumətlər nə vaxt onlar üçün müəyyən tarix təyin etsələr, o zaman həmsədrlər bölgəyə səfər edəcəklər”.**



# Birləşmək üçün daha bir şans - Müsavatın mitinqi

Azər RƏŞİDOĞLU

**Müsavat Partiyasının 14 dekabrda keçirəcəyi mitinq bir çox parametrlərinə görə önəmlidir. Bu etiraz aksiyası yalnız yeni başqan Arif Hacılı üçün "sınaq günü" olmayacaq; eyni zamanda siyasi məhbus probleminə cəmiyyətin göstəricisinin nümayişi baxımından böyük önəm kəsb edəcək.**

14 dekabrda keçirəcəyi mitinq indiyənə qədər buraxılan səhvlərin düzəldilməsi ilə yanaşı gələcək uğurların da əsasını qoya bilər. Odur ki, bu etiraz aksiyasını digər müxalifət partiyaları ilə birlikdə keçirtmək olduqca önəmlidir. Siyasi məhbus probleminə bütövlükdə cəmiyyət etiraz etməlidir. Bu baxımdan, meydana on minlərlə insanı çıxartmaq üçün gözəl fürsət yaranıb.

Müxalifət on minləri meydana yığmaqla özünün güclü olduğunu nümayiş etdirə bilər. Hər şey mitinqə hazırlıqdan və elektorat ilə fəal işdən asılıdır. Aksiyaya kobud müdaxilənin olmayacağı ehtimalı olduqca böyükdür. Lokal əngəllər isə izdihamlı aksiyaya mane olmaq imkanında deyil. Bu baxımdan, müxalifətə özünün güclü olduğunu sübut etmək üçün tarixi şans verilib.

Nəzərə alsaq ki, Milli Şura və Müsavat ayrı-ayrılıqda aksiyalar keçirməyə üstünlük verir - keçiriləcək aksiyada "müxalifdə kim daha güclüdür" sualına da cavab axtarılmasının yanlış olduğunu ehtimal edə bilərik.

Bu dəfə də bütün ağırlığı öz üzərilərinə götürməyə hazır olan Müsavat və AXCP-dən çox şey asılıdır.

Mitinqin zəif alınacağı təqdirdə, yalnız Müsavatın deyil, bütövlükdə müxalifətin demokratik dünya ilə danışıqları da az effektli ola bilər. Dünyanın tanıdığı yeganə amil gücdür və mitinqi bu amilə görə gücün nümayişinə çevrilməlidir.

Əgər sözügedən aksiya da xalq kütlələrinin öz taleyinə laqeydliyinin göstərici olaraq yadda qalacaqsa, bu xalq üçün faciəli həyatın davamı demək olacaq. Əgər aksiya izdihamlı olacaqsa, dünyanın nüfuzlu KİV -ləri tərəfindən də geniş işıqlandırıla bilər. Odur ki, aksiya müxalifət üçün ölüm - dirim savaşı hesab oluna bilər. Müxalifət üçün bu mitinqin çoxminli olması mühümdür. Yalnız bu yolla siyasi həbslərinə son qoymaq mümkündür. İqtidarın öz-özünə söküləcəyini, Qərbin təzyiqləri artıracağını və bütün bunların Azərbaycanda hakimiyyət dəyişikliyi ilə sona çatacağını bəyan etmək artıq inandırıcı səslənmir.

On minlərin iştirak edəcəyi aksiya isə qələbənin xəbərçisinə çevrilə bilər. İmitasiya xatirinə deyil, qələbəyə nail olmaq üçün mübarizə aparmaq istəyənlər mitinqinin say tərkibinə diqqət etmək məcburiyyətindədirlər. Bu baxımdan, 14 dekabr Azərbaycan müxalifətinin taleyini həll edəcək bir günə çevrilə bilər. Yetər ki, protest elektoratı bu aksiyanı birlikdə keçirdə bilsin.

Əgər cəmiyyət dəyişiklik arzusunu daha fədakarlıqla nümayiş etdirə bilsə, beynəlxalq dəstək də xalqın yanında olacaq. Müxalifət məhz bu amili nəzərə almalıdır. Əks təqdirdə, hansısa qüdrətli bir ölkənin qüdrətli rəhbərinin bir kəlməsi müxalifətin taleyini həll edə bilər.

Nə Qərb, nə Şərq, nə Rusiya, nə İran Azərbaycanın vəziyyətinin müsbətə doğru dəyişməsində bizim özümüz qədər maraqlı ola bilməz. Bu baxımdan, xalqın içinə getməyin zamanı çoxdan çatıb.

Azərbaycan xalqı 1988-ci ildə milyonları meydana toplaya bildi. Bu gün bu bir xəyal olaraq qalır. Müxalifətin bir-birinə qarşı ardıcıl, təşkil olunmuş hücumları ümumi müxalif düşüncəyə zərbələr vurur. Baş verənlər bir daha onu vurğulamağı zəruri edir ki, siyasi sistem tam iflas içindədir. Keyfiyyətcə yeni siyasi sistem yaradılmayınca müsbət dəyişiklik də baş verə bilməz. Heç olmasa bu dəfə siyasi məhbuslar naminə birlik nümayiş etdirmək lazım gəlir...

# Əmanətlərin cəmi 30 faizi sığortalanır

## Ekspert Samir Əliyev bu sahədə mövcud sistemin təkmilləşdirilməsini təklif edir

**Ölkədə bankların bağlanma təhlükəsi barədə xəbərlər yayılır. Burada əhalini narahat edən əsas məsələ əmanətlərin sığortalanması ilə bağlıdır. Sığortalanmayan əmanətlərin payı isə son bir ildə 34 faizdən 47,6 faizə yüksəlib. Yəni əhali tərəfindən banklara yatırılan hər 100 manatın ancaq 52,4 manatı sığortalanır. Əmanətlərin Sığortalanması Fondunun 2014-cü ilin III rübü üçün açıqladığı hesabata əsasən, qorunmayan əmanətlərin həcmi 3,14 milyard manata çatıb. Halbuki 2013-cü ilin III rübündə onun həcmi 1,97 milyard manat olub.**

**Ekspert Samir Əliyevin** sözlərinə görə, il ərzində 1,17 milyard manatlıq əmanət 9 faizdən yuxarı faizlə yerləşdirilib və buna görə də sığortadan kənarda qalıb. Bu müddətdə qorunan əmanətlərin həcmi 450 milyon manat azalaraq 3,42 milyard manata düşüb. O bildirir ki, qorunan əmanətlərin azalması kompensasiya olunmuş əmanətlərə də təsir edib. İl ərzində kompensasiya olunmuş əmanətlərin həcmi 105 milyon manat azalaraq 1,8 milyard manata düşüb. Qorunan əmanətlərin 53 faizi kompensasiya olunur.

**Ekspertin sözlərinə görə, Əmanətlərin Sığortalanması Fondunun son hesabatının təhlili göstərdi ki, artıq əmanətlərin sığortalanması mexanizmi səmərəli işləmir və onun təkmilləşdirilməsinə ehtiyac var:** "Ölkə üzrə əmanətlərin cəmisi 30 faizi sığorta mexanizminin təsir dairəsinə düşür. Yerdə qalanları həm qorunmadıqlarına, həm də məbləği 30 min manatdan çox olduğuna görə sığortadan kənarda qalırlar. Ölkədə kredit faizlərinin aşağı salınması məqsədilə əmanətlərin sığortalanma faizlərinin mərhələlərlə 12 faizdən 9 faizə endirilməsi kredit bazarına ciddi təsir etməsə də əmanət bazarında faizləri xeyli aşağı salıb. Təbii ki, aşağı faizlər əmanət bazarının böyümə sürətini azalıb. Təsadüfi deyil ki, 2013-cü ilin 10 ayı ərzində əmanət qoyuluşu 1,2 milyard manat artdığı halda, bu ilin müvafiq dövründə artım 2 dəfəyədək azalaraq 600 milyon manat təşkil edib. Əvvəllər gözləmə mövqeyi tutan əhali indi çəkinmədən əmanətlərini yüksək faiz verən banklara həvalə edir. Kompensasiya olunan əmanətçilərinin yatırımlarının orta məbləği 314 manat olduğu halda, qorunmayan əmanətçilərdə bu göstərici təxminən 5216 manatdır. Artıq yüksək faiz ehtirası etibarlı olan az faizi üstələyir. Əgər hökumət əmanət qoyuluşundan əldə edilən gəlirə tətbiq edilən güzəştin müddəti uzatmasa, sığortalanmayan əmanətlərin payı daha da artacaq. Çünki "Banklar və digər kredit təşkilatları tərəfindən fiziki şəxslərin əmanətləri üzrə ödənilən faizlərin gəlir vergisindən azad edilməsi haqqında" Qanun bu il qüvvədən düşür. Deməli, güzəşt müddəti uzadılmasa, 2015-ci ildən başlayaraq əmanət faizlərindən gəlir vergisi tutulacaq. Bu isə əhalini yüksək faizli əmanət təklifinə yönəldəcək. Fond isə faktiki olaraq 6,6 milyard manatlıq əmanətin 1,8 milyard manatına zəmanət verir. Yəni banka qoyulan hər 100 manatın yalnız 30 manatının taleyinə 100 faiz zəmanət verir. Deməli, 4,8 milyard manatlıq əmanətin taleyi bankın gələcək fəaliyyətindən və onun maliyyə vəziyyətindən asılır".



**S.Əliyevin sözlərinə görə, dünyanın 100-dan çox ölkəsində tətbiq edilən əmanətlərin sığortalanması mexanizmi əhalinin bank sektoruna inamını artırmaq, bank sektorunda dayanıqlığı təmin etmək məqsədi daşıyır:** "Azərbaycan bəlkə də sığorta mexanizminin əmanətin faiz dərəcəsinə tətbiq edildiyi yeganə ölkədir. İlkin araşdırmanın nəticəsi bunu göstərir. Çünki digər ölkələrdə əmanət faizinə münasibətdə sığortalanma mexanizminin tətbiqi təcrübəsinə rast gəlinməyib. Azərbaycanın mövcud sığorta mexanizmi daha çox bankların mənafeyinə cavab verir, nəinki müştərilərin. Ancaq mövcud mexanizmin təkmilləşdirilməsinə ehtiyac var. Düzdür, faiz limiti götürülsə, banklar yenidən əmanətlərin faiz dərəcələrini qaldırmağa qaçacaqlar. Ancaq reallıq göstərdi ki, gözlənilənlərə rəğmən əmanət faizlərinin aşağı salınması kredit bazarına ciddi təsir göstərmədi. Əmanətlə kredit faiz dərəcələri arasındakı fərqin artması yalnız bankların qazancının artması ilə nəticələndi.

Belə vəziyyətdə Mərkəzi Bank əmanətlərin sığortalanması mexanizminin səmərəliliyini artırmaq barədə addımlar atmalıdır. Bunun üçün kompensasiya məbləğinin artırılması, məsələn, 30 min manatdan 50 min manata çatdırılması yaxşı olardı. Digər dəyişiklik sığortanın tətbiq edildiyi faiz limitinin, yəni 9 faizin aradan qaldırılması ola bilər. Onsuz da banklar, xüsusən də kiçik banklar yüksək faiz təklif edir və əhali bu təklifdən yararlanır. Bunun yollarından biri əmanətin faiz dərəcəsi ilə sığorta haqlarının məbləği arasında əlaqə yaratmaqdır. Yəni bank nə qədər yüksək faizlə əmanət cəlb etsə, fonda bir o qədər də yüksək sığorta haqqı ödəsin. Bu, bankları daha məsuliyyətli olmağa sövq edə bilər".

❑ RÖYA

# Ehtiyatda olan hərbçi nazirə müraciət etdi

## Hərbçi-həkim Ağarza Əliyev Zakir Həsənovdan kömək istəyir

**Ehtiyatda olan hərbçi həkim müdafiə nazirinə müraciət edib. Ağarza Əliyev Zahir oğlu "Yeni Müsavat"a məktubunda bildirir ki, 2007-ci ildə Dövlət Tibb Universitetinə daxil olub. Burada 2 il təhsil aldıqdan sonra Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmətə göndərilib.**

Məktub müəllifi qeyd edib ki, 5 il hərbi hissələrdə hərbi ferdşel-həkim kimi xidmət edib: "Beş ilin 3 ilini döyüş bölgəsində cəbhə xəttində heç bir qüsurum olmadan xidmət etmişəm. 2014-cü ildə xidmətimin 5 ili tamam olduğu üçün tərxis olunmaq üçün raport yazdım. Tərxis olunmağım tam qanunauyğun olsa da, gözləmədiyim halda məni xidmətə yararsız kimi ordu sıralarından tərxis elədilər.

Həm özüm, həm də xidmət yoldaşlarım təəccübləndik ki, görəsən, nə üçün mən xidmətə yararsız kimi tərxis olundum? Ola bilsin yanlışlıq olub. Amma bu yanlışlıq məni çox narahat edir. Müdafiə naziri Zakir Həsənova bu barədə rəsmi müraciət göndərmişəm.

Lakin məsul şəxslər hələ də mənim nə üçün xidmətə yararsız kimi tərxis olunmağımı araşdırıb cavab vermirlər. Mən bu gün ehtiyatda olan hərbi həkim kimi nazirimiz Zakir Həsənovdan xahiş edirəm, bütün hərbçilərimizə doğma münasibət göstərdiyi kimi mənə də 5 illik qüsursuz xidmətimə görə qiymət versin.



Xahiş edirəm ki, əmək və şəxsi işimdən xidmətə yararsız 156-cı bəndin çıxarılması üçün göstəriş versin. Mən nazirimiz Zakir Həsənovun rəhbərliyi altında hər zaman ön cəbhədə xidmət etməyə hazıram və bununla qürur duyaram".

❑ EMİL

YENİ MÜSAVAT
N 301 (6010) 10 dekabr 2014

**Dünya bazarında neftin qiymətinin 66 dollara düşməsi və Rusiyada yaşanan iqtisadi böhran Azərbaycanda mənzil bazarına da təsirsiz ötüşməyib. Bakıda evlərin əsas alıcıları arasında Rusiyada yaşayan soydaşlarımız da çoxluq təşkil etdiyindən, indi onların bu ölkədə yaşanan iqtisadi böhran səbəbindən çətin duruma düşməsi Azərbaycanda mənzillərin ucuzlaşmasına səbəb olub. Hazırda satışa çıxarılan və kirayə təklif olunan evlərin qiymətində hansı dəyişikliklərin olduğunu öyrənmək üçün Bakıdakı bəzi ev bazarlarına və ev alqı-satqısı ofislərinə baş çəkdik.**

# Ev almaq istəyənlərə şad xəbər: mənzillər ucuzlaşıb

## Vüqar Bayramov: "Rusiyada və dünya bazarında baş verənlər onu deməyə əsas verir ki, durğunluq davam edəcək"





**Dəllallıqla məşğul olan Həsənağa Alcanov deyir ki, mənzil bazarında alıcılıq qabiliyyəti sıfıra yaxınlaşıb:** "Qiymətlərdə enmə var, daşınmaz əmlak təxminən 5-7 faiz ucuzlaşıb. Bazarda təklif olunan evlərin də əksəriyyəti Rusiyada yaşayan azərbaycanlıların evləridir. Burada satıb pulunu oraya göndərirlər. Orada iqtisadi böhran yaşandığına görə pula ehtiyac var və məcbur qalıb buradakı evlərini satırlar. Burada yaşayan insanlar isə evlərini ucuz satmırlar. Kirayə qiymətlərində hələ ki ucuzlaşma müşahidə olunmur. Bu, adətən may-iyun ayında bölgələrdən gələn tələbələr qayıtdıqdan sonra baş verir. Dərs ili bitən kimi tələbələr evləri boşaldır və qiymətlər demək olar ki, 50 faiz ucuzlaşır".

**Ev alqı-satqısı ilə məşğul olan Sərdar Cavadov da təsdiqləyir ki, mənzillərin qiymətində nəzərəçarpacaq dərəcədə ucuzlaşma var:** "Təxminən 2000-3000 manat ucuzlaşma müşahidə olunur. Ev satmaq istəyən çoxdur, alıcı isə demək olar ki, yoxdur. İnsanların vəziyyəti pisdir, çox adamın nağd pulu yoxdur ki, ev alsın. Əvvəllər ən çox ev alanlar Rusiya vətəndaşı olan azərbaycanlılar idi, indi onlar özləri evlərini satırlar. Bunun səbəbi odur ki, Rusiyada vəziyyət pisdir, rublun dəyəri azalır, orada yaşayan azərbaycanlılar buradakı mənzillərini dəyər-dəyməzinə satmağa çalışırlar ki, buradan dollar apara bilsinlər. Kirayə qiymətlərində isə elə bir dəyişiklik nəzərə çarpmır. Əksinə, bir qədər bahalaşma var, çünki həm regionlardan, həm də xaricdən gələnlərin sayı artıb. Hamısı kirayə mənzil axtarır".

Metronun "Neftçilər" stansiyası yaxınlığında yerləşən, "makler bağı" kimi tanınan parkda toplaşan ev dəllalları da mənzil bazarında ucuzlaşma olduğunu dedilər.

**Maklerliklə məşğul olan Rəfiqə Həsənova da deyir ki, bazarda alıcı qıtlığı yaşanır:** "Qiymətlər hədsiz ucuzlaşıb. Bazar donub, alıcı yoxdur. Son 2-3 ayda baş verən iqtisadi proseslər mənzil bazarına da təsir edib. Əvvəllər 95 min manata satılan mənzillər indi 70 min manatdan təklif olunur. "Leninqrad proyektli" mənzillər əvvəllər 110 min manata, indi 90-95 min manata satılır. İnsanların vəziyyəti pisləşib. Əvvəllər 2-3 mənzili olanlar indi birini satırlar. Kirayələrin qiyməti isə qalxıb. Çünki regionlardan müraciət edənlər çoxdur. Rusiyadan, Ukraynadan, Belarusdan da ailələr Azərbaycana qayıdıb, onlar da kirayə ev axtarır. Kirayə evlərə tələbat daha çoxdur. İki otaqlı, tam şəraitli, əşyalarla təmin olunmuş mənzillər 350-400 manata kirayə verilir".

Bazarda söhbət etdiyimiz digər maklerlər də təsdiqlədi ki, son aylar mənzillərin qiymətində 8-10 min manat ucuzlaşma olub. Ancaq bu ucuzlaşmaya rəğmən alıcılıq yoxdur.

**"Yeni Müsavat"a açıqlamasında mənzil bazarındakı durumun səbəbini izah edən iqtisadçı ekspert Vüqar Bayramov bildirdi ki, alıcılıq qabiliyyətinin azalması qiymətlərə təsir edib:** "Bizim mənzil bazarında apardığımız monitorinqlər də göstərir ki, bazarda alıcıların sayında azalma var. Mənzil bazarında alıcı qıtlığı, tələbatın azalması müşahidə olunur. Bu da qiymətlərə təsirsiz ötüşməyib. Bizim monitorinqlərimiz göstərir ki, oktyabr və noyabr aylarının yekunlarına nəzər salsaq artıq dekabr ayında qiymət azalmaları müşahidə edilir. Ancaq alıcı az olduğuna görə qiymətlərin azalması çox da nəzərə çarpmır. Satışa çıxarılan evlərin nominal qiyməti dəyişməyib. Amma real qiymət azalıb. Yəni real alıcı ev almaq istəyirsə o zaman nominal qiymətdən daha aşağı qiymətə təklif olunur. Məsələn, 350 min manata öz mənzilini təklif edənlər real alıcı tapanda, əgər noyabr ayında 330 min manata satırdısa, dekabrda artıq 300 min manata belə razılaşırlar. Rusiyadan Azərbaycana gələn vəsaitlərin azalması mənzil bazarına təsir göstərib.



Güman olunur ki, 2015-ci ildə Rusiyadan gələn vəsaitlər 30 faiz azalacaq, 700 milyon manata düşəcək. Nəzərə alsaq ki, mənzil bazarında formalaşan tələbin təxminən 30 faizi Rusiyadan gələn azərbaycanlıların payına düşürdü, bu tələb artıq yoxdur. Neftin dünya bazarında qiymətinin aşağı düşməsi səbəbindən vətəndaşlar artıq qənaətə üstünlük verirlər".

**Ekspert onu da bildirdi ki, növbəti aylarda da mənzil bazarında durğunluq davam edəcək və indiki halda durğunluğun azalması üçün heç bir iqtisadi əsas yoxdur:** "Artıq il başa çatır. Adətən dekabr-yanvar ayında ipoteka proqramı təsdiq olunur. Bu da tələbin azalmasına və qiymətlərin aşağı düşməsinə gətirib çıxaracaq. Bu baxımdan Rusiyada və dünya bazarında baş verən proseslər onu deməyə əsas verir ki, durğunluq davam edəcək, qiymət azalmaları olacaq. Kirayə bazarında da durğunluq var, ancaq qiymət azalmaları müşahidə olunmur".

❑ **Nərgiz LİFTİYEVA**
**Fotolar müəllifindir**

# "Sevil Massivi"ndə zərərçəkənlər aksiya keçirməyə hazırlaşır

## "Döymədiyimiz qapı, müraciət etmədiyimiz qurum qalmayıb"

**"Sevil Massivi" Mənzil Tikinti Kooperativinin (MTK) üzvləri aksiya keçirməyə hazırlaşır. Bu haqda redaksiyamıza zərərçəkənlərdən biri məlumat verib. O deyib ki, Abşeron İcra Hakimiyyəti onlara MTK-ya ödədikləri pulları Abşeron bələdiyyəsi vasitəsilə qaytarılacağını vəd edib. Lakin bu günə qədər pullar ödənməyib.**




"Prezident Administrasiyasının, Bakı Şəhər İcra Hakimiyyətinin qarşısına gedib pullarımızın qaytarılmasını tələb edəcəyik" deyə, zərərçəkən bildirib. Onun sözlərinə görə, MTK rəhbərliyinə cinayət işi başlandıqdan sonra həmin ərazidə ev, torpaq sahəsi alan vətəndaşların çoxu çıxılmaz duruma düşüb. Onlar nə mülklərinə sahib ola bilirlər, nə də ödədikləri vəsaiti geri ala. Ötən ayın ortalarında aldadılan vətəndaşlar Abşeron Rayon İcra Hakimiyyətinin və Hökməli bələdiyyəsinin qarşısında etiraz aksiyası keçiriblər. Zərərçəkmişlər hüquqlarının pozulmasına rəğmən müraciətlərinə baxılmamasına etiraz ediblər. Aksiyada zərərçəkmiş vətəndaşlar "Torpağımızı qaytarın!", "Evimizi verin!", "Pullarımızı yeməyin!" şüarları səsləndiriblər. Aksiya zamanı zərərçəkənlərə rayon icra hakimiyyətinin başçısı Zakir Fərəcovun adından vədlər verilib. Bildirib ki, icra başçısı problemin qısa müddətdə həll ediləcəyinə zərərçəkənləri əmin edir.

Zərərçəkənlər deyir ki, "Sevil Massivi" MTK-da külli miqdarda vergidən yayınma faktına görə cinayət işi başlanıb və rəsmilər bununla da işlərini bitmiş hesab edirlər: "Qanunsuzluq aşkar ediblərsə və bunu araşdırırlarsa, lap yaxşı. Amma bu qanunsuzluğu aradan qaldırmaq üçün bizə qarşı da qanunsuzluq edirlər. Məsələni elə araşdırmaq olardı ki, biz küçələrdə qalmayaq. Bizi düşünən yoxdur. Banka borca girərək torpaq, ev almışıq. Əgər "Sevil" MTK dələduz idisə, bir belə idarə, təşkilat hara baxırdı? Niyə bu MTK-nın qanuni və ya qanunsuz olduğunu əvvəl gündən araşdırmırdılar? Vacib idi ki, 3 min nəfər zərər çəksin, dövlətdən narazı düşsün? Həmin ərazini "Sevil" MTK kosmosda tikməyib ki, bunu görməsinlər? Deməli, xəbərləri olub. Biz sənədlərə baxmışıq, müqavilə bağlamışıq. Həmin sənədləri verən də dövlət qurumlarıdır. Qanunsuz idisə niyə o sənədləri verirdilər? Döymədiyimiz qapı, müraciət etmədiyimiz qurum qalmayıb. Hamısı da boş vədlər verir. Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə gedib-gəlməkdən yorulmuşuq. Hər dəfə "gedin, 15 gün sonra gələrsiniz, sizə məlumat veriləcək" deyirlər".

Bu günə qədər MTK üzvü olan 3 min zərərçəkmişdən 300-nün verdiyi pul özünə qaytarılıb. Sentyabrda Abşeron Rayon İcra Hakimiyyəti və Hökməli Bələdiyyəsi vasitəsilə 300 nəfərin pulunu qaytarıblar.

Qeyd edək ki, bir müddət əvvəl "Sevil Massivi" MTK-nın təsisçisi Aynur Zeynalov və həmin kooperativin direktoru həbs olunublar. Hər iki şəxs "qanunsuz sahibkarlıq" və "vergi ödəməkdən yayınma"da ittiham olunur. Onlarla bərabər Hökməli bələdiyyəsinin sədri Mirnemət Mirəziz oğlu Miradıyev də tutulub. Həbsindən bir qədər əvvəl "Tərəqqi" medalı ilə təltif olunmuş M.Miradıyev sonradan naməlum səbəbdən azad olunub. M.Miradıyevin bu məsələyə aidiyyəti isə MTK-ya Hökməli bələdiyyəsinin balansında olan hektarlarla torpaq sahəsini ayırması olub. Belə məlumatlar da var ki, M.Miradıyev istintaqda dindirildiyi zaman Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov dövlət orqanlarına bələdiyyə sədrinin azad edilməsi üçün müraciətlər edib. Baş Prokurorluğun məlumatına görə, Vergilər Nazirliyi "Sevil Massivi" MTK-da külli miqdarda vergilərin dövlət büdcəsinə ödəməkdən yayınma faktı aşkar edib. Bununla bağlı Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlanıb. Məlumata görə, şirkət rəhbərləri 2013-2014-cü illərdə 172 min 507 manat məbləğində sadələşdirilmiş vergini dövlət büdcəsinə ödəməyiblər. O cümlədən, onlar xüsusi razılıq (lisenziya) almadan qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olub 100 min manata yaxın gəlir əldə etməkdə ittiham edilirlər. İstintaq hesab edir ki, "Sevil Massivi" MTK-nın məsul şəxsləri həm bələdiyyənin mülkiyyətində olan 30 hektar perspektiv inkişaf torpaqlarını, həm də ayrı-ayrı şəxslərin mülkiyyətində olan "At yalı" və "Sonalı sahəsi" adlandırılan 110 hektar örüş torpaqlarını qanunsuz olaraq zəbt edib və vətəndaşlara faizsiz kreditlə satıblar.

❑ **E.HÜSEYNOV**

# MTN əməliyyat keçirdi; həbs edilən 11 nəfərin arasında qadınlar da var



**Milli Təhlükəsizlik Nazirliyi (MTN) tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 19 kiloqramdan artıq narkotik vasitənin İran İslam Respublikasından qaçaqmalçılıq yolu ilə, yəni gömrük sərhədindən, gömrük nəzarətindən kənar keçirilərək Azərbaycan Respublikasının ərazisinə qanunsuz daşınmasının qarşısı alınıb. Bu hüquqazidd əməllərin törədilməsinə görə 11 nəfər şübhəli şəxs qismində tutulub. Bu barədə APA-ya MTN-in ictimai əlaqələr idarəsindən məlumat verilib.**

Məlumata görə, keçirilmiş baxışlar zamanı ayrı-ayrılıqda külli miqdarda narkotik vasitə olan - 2 kiloqram 700 qram heroin, 15 kiloqram 891 qram tiryək, 700 qrama yaxın həşiş qətranı aşkar edilərək götürülüb.

Bütün faktlarla bağlı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.3.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən narkotik vasitələrin təkrar qaçaqmalçılığı), 29, 234.4.1 və 29, 234.4.3-cü (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən külli miqdarda narkotik vasitələri əldə etməyə, daşıma, saxlama və ya satma,), 234.4.1-ci, 234.4.2 və 234.4.3-cü (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən külli miqdarda narkotik vasitələri əldə etmə, daşıma, saxlama və ya satma, təkrar törətmə) maddələri ilə cinayət işləri başlanıb. Azərbaycan Respublikasının vətəndaşları - Mehtiyev Elçin Zöhrab oğlu, Cəfərova Nərgiz Zeynal qızı, Rzayev Fuad Ziyad oğlu, Abuşov Aqil Arif oğlu, Abasov Şücaət Hüseynağa oğlu, Əsgərov Cavanşir Ələsgər oğlu, Həziyev Mayıs Xanibəy oğlu, Mirzəyev Misir Əli oğlu, Feyzullayev Ədalət Qəzənfər oğlu, Gülməmmədov Kərim Səlim oğlu və onun həyat yoldaşı Gülməmmədova Mehriban Qəhrəman qızı təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində məhkəmənin qərarları ilə həbs-qətimkan tədbiri seçilib.

Cinayət işləri üzrə bütün halların araşdırılması, bu qanunazidd əməllərin digər iştirakçılarının müəyyən edilməsi üçün zəruri istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

## Qubada 24 yaşlı oğlan bıçaqlandı

**Quba rayonunda bıçaqlanma faktı qeydə alınıb. APA-nın şimal bürosunun verdiyi məlumata görə, 1990-cı il təvəllüdlü Quba rayon sakini Ağayev Fərid Elşən oğlu müxtəlif dərəcəli bıçaq xəsarətləri ilə Quba Mərkəzi Rayon Xəstəxanasına yerləşdirilib. Tibb müəssisəsində ona döş qəfəsinin ön divarının aşağı hissəsinin kəsilmiş-deşilmiş yarası diaqnozu qoyulub. Hazırda F.Ağayevin vəziyyətinin orta-ağır olduğu bildirilir. Quba Rayon Polis Şöbəsindən APA-nın yerli bürosuna verilən məlumata görə, hadisə ilə bağlı saxlanılan yoxdur. Faktla bağlı araşdırmalar davam etdirilir.**

## Keçmiş polislər cinayət başında yaxalandılar

**2014-cü il dekabrın 9-da paytaxtın Nizami rayonunda yerləşən "Göy bazarı" adlanan ərazidə polisin geyim formasında olan bir neçə şəxsin satıcılardan pul tələb etməsi barədə Daxili İşlər Nazirliyinə məlumat daxil olub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən musavat.com-a verilən məlumata görə, dərhal həyata keçirilən tədbirlərlə məlumat təsdiqlənib və həmin şəxslər saxlanılıb.**

Araşdırmalarla polisin işgüzar nüfuzuna xələl gətirərək qanunazidd hərəkətlərə yol verənlərin Nizami Rayon Mühafizə İdarəsinin keçmiş polis nəfərləri Hidayət Allahverdiyev və Nazim Əliyev olduqları müəyyən edilib.

Onların əməllərində CM-in 310-cu ("Vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə") maddəsində nəzərdə tutulan cinayətin əlamətləri olduğundan toplanmış materiallar hüquqi qiymət verilməsi üçün aidiyyəti üzrə prokurorluğa göndərilib.

## Qonşular arasında qısqanclığın sonu faciə ilə nəticələndi

**Ötən gecə saat 22 radələrində Ağcabədi rayonunda qısqanclıq zəmnində dəhşətli qətl hadisəsi baş verib. Rayon Prokurorluğunun müstəntiqi Orxan Səmədovun ANS PRESS-ə verdiyi məlumata görə, hadisə rayonun Avşar kəndində qeydə alınıb.**

Belə ki, kənd sakini 1964-cü il təvəllüdlü Mehman Əkbər oğlu Rüstəmov arvadı 1973-cü il təvəllüdlü Təranə Şəmsəddin qızı Rüstəmovanı qonşusuna qısqanıb. O, qonşusu 1979-cu il təvəllüdlü Fikrət Mamed oğlu Məhərrəmovla arvadının arasında münasibət olmasından şübhələnib.

Məsələni həll etmək üçün Mehman həyat yoldaşını da götürərək Fikrət Məhərrəmovanın evinə gedib. Evdə mübahisə dava ilə nəticələnib. Bu zaman ev sahibi Fikrət Məhərrəmov qonşusunu və onun arvadını bıçaqlayıb.

Hər iki şəxs ağır vəziyyətdə xəstəxanaya aparılıb. Lakin Mehman Rüstəmov yolda keçinib. Qadın isə ağır vəziyyətdə xəstəxanaya yerləşdirilib.

Hadisəni törədən şəxs tutulub.

Faktla bağlı cinayət işi başlanıb, araşdırma aparılır.

## Polisi döyüb öldürən şəxsə 15 il həbs cəzası verildi

**Bakı Ağır Cinayətlər Məhkəməsində on il əvvəl polis əməkdaşını öldürməkdə təqsirləndirilən şəxsin məhkəmə prosesi başa çatıb. APA-nın məlumatına görə, prosesdə hökm oxunub. Hökmə əsasən Rafiq Nurmetov 15 il, Natiq Orucov isə 1 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.**

Qeyd edək ki, 2004-cü il avqustun 4-də naməlum şəxs Babək prospektində xidmət aparan Nizami Rayon Mühafizə İdarəsinin polis nəfəri Asif Həmidovu qətlə yetirib və ona məxsus "Makarov" tipli xidməti tabel silahını götürərək hadisə yerindən qaçıb.

Əməliyyat yolu ilə nazirliyin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə daxil olan məlumat əsasında hadisəni törətməkdə şübhəli bilinən, əvvəllər dəfələrlə məhkum olunmuş Rafiq Nurmetov saxlanılıb.

Rafiq Nurmetov istintaqa ifadəsində bildirib ki, 2004-cü il avqustun 4-də gecə saatlarında sərxoş halda polis əməkdaşına yaxınlaşıb və aralarında yaranmış münaqişə zəminində yerdən götürdüyü dəmir parçası ilə onun baş nahiyyəsinə bir neçə zərbə vurub, huşsuz vəziyyətdə olduğunu görüb xidməti silahını götürərək qaçıb. Hadisədən iki ay sonra Rafiq Nurmetov həmin tapançanı 600 ABŞ dollarına Əhmədli qəsəbəsində yaşayan Natiq adlı şəxsə satıb.

İstintaq-əməliyyat tədbirləri ilə Bakı şəhər sakini, əvvəllər ehtiyatsızlıqdan adam öldürmə cinayətinə görə məhkum olunmuş Natiq Orucov saxlanılıb. O, R.Nurmetovdan aldığı silahı Binə qəsəbəsində yaşayan qardaşı Tofiqə məxsus evin həyətində gizlətdiyini etiraf edib.

Həmin həyətə baxış zamanı içərisində 8 ədəd patronu olan sandıqça ilə birlikdə "Makarov" tipli tapança, 23 ədəd müxtəlif çaplı patron, 1 ədəd F-1 qumbarası və 1 qutu trotil aşkar olunaraq götürülüb.




## "Nar Mobile" Dohada keçirilən beynəlxalq sərgidə təmsil olunur

### Mobil operatorun rəhbərliyi "ITU Telecom World - 2014" beynəlxalq sərgisində iştirak edir

**7-10 dekabr 2014-cü il tarixləri arasında Qətərin Doha şəhərində "ITU Telecom World - 2014" ümumdünya telekommunikasiya sərgisi keçirilir. Azərbaycanın İKT sektorunu sərgidə təmsil edən şirkətlər arasında olan "Nar Mobile" milli pavilyonumuzda özünün ən son nailiyyətlərini - müxtəlif məhsul və xidmətlərini ən yüksək səviyyədə dünya ictimaiyyətinə təqdim edir.**

**"Azerfon" şirkətinin baş icraçı direktoru Kent Maknili başda olmaqla, bu beynəlxalq forumda iştirak edən "Nar Mobile" nümayəndələri sərgi günləri ərzində öz məhsullarını və yeniliklərini nümayiş etdirməklə yanaşı, telekommunikasiya sektorunun imkanlarını və inkişaf tendensiyalarını müşahidə etmək, beynəlxalq praktikanın yeni istiqamətlərini dəyərləndirmək və sahənin aparıcı şirkətləri ilə geniş təcrübə mübadiləsi aparmaq imkanı qazanıblar.**

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*
**SƏLİMOV FƏRMAN**
Tel: (055) 776-70-34

*Əyləncəli, sürətli, asan!*



Speak English
*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*
*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*
✓ İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!
✓ Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!
✓ Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!
✓ Əla tələffüz və güvənlə danışmaq
✓ Real ingiliscə söhbətlər
BONUS
English EXPLOSION
*dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!*
*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*

YENİ MÜSAVAT
N 301 (6010) 10 dekabr 2012





# Nazirin qardaşının yarmarkası çökür

## "Avtovağzal" ticarət mərkəzindəki sahibkarlar beş ildir böhrandan çıxa bilmirlər; iş adamları metro stansiyanın açılışına ümid edirlər; burada bazarın ayaqda qalmasının sirri isə vəzifəli adamların hərəyə bir neçə obyekt alıb saxlamasıdır

**Bakı Beynəlxalq Avtovağzalında fəaliyyət göstərən "Avtovağzal" ticarət mərkəzi rəsmən çökür. 2009-cu ildən fəaliyyət göstərən yarmarka özünü doğrulda bilmədi. Sahibkarlara verilən vədlər və ümidlər isə heçə endi. Xeyli vaxtdır ki, ticarət mərkəzi böhran içindədir. Nə yer haqlarını ödəmək olur, nə də iş gedir.**

Ticarətçilərin əksəriyyəti "Binə", "Sədərək" bazarlarına yollanıb. Onların arasında "20 Yanvar" yarmarkasından ayrılıb gələnlər də var. Avtovağzal yarmarkası açılanda ticarətçilər vədlərə aldanıb bura köç ediblər. Amma gəldiklərinə də peşman olublar.

Ticarət mərkəzində onların gözlədiyi alver bu günə kimi olmayıb. Vağzalın özündə köşklər, xırda ticarətlə məşğul olan alverçilərin işi pis getmir. Dükanlarda geyim, texniki avadanlıqlar satanların isə ticarəti dayanıb.

Bu gedişlə yarmarkada işləyən sahibkar qalmayacaq. Çünki nə müştəri var, nə tələbat. Obrazlı desək, nəqliyyat nazirinin deputat qardaşı Elton Məmmədova məxsus olan "Titanik" üslublu avtovağzal aysberqə rast gəlib. Burada çalışanların çörəyi daşdan da çıxmır. Yarmarka rəhbərliyi isə çıxış yolu haqda fikirləşmir. Bunu deyən ticarətçilərin sözlərinə görə, avtovağzalın müdiri Rövşən Məmmədovu mənfəəti maraqlandırır.

"Avtovağzal" yarmarkasında icarə haqları kvadratına görə dəyişir. Sahibkarlar arasında nağd ödəniş edib obyekt alanlar da var. Onların bəziləri müflis olublar. Kimisi dükanı satıb, kimisi sata bilməyib icarəyə verib, yer haqqı ödəyənlər isə gününü keçirirlər.

Burada qiymətlərin şəhərin mərkəzindəki mağazalardan ciddi fərqi olmaması da alverin gedişinə təsir edib. Hətta demək olar ki, qiymətlər çox bahadır. Səbəbi isə məlum deyil. Hər halda yer haqlarının bahalığı qiymətlərin yüksək olmasına təsir göstərib.

Mağaza sahibləri arasında ayda 200 manatdan 600 manata qədər yer pulu verənlər var. Bu beş ildə ciddi inkişafa və yaxşı alverə nail olmayan sahibkarlar durğunluğun səbəbini bilmirlər. Müştəri seyrəkliyi, qapısı kilidli dükanlar, tək-tük görünən alıcılar, saatlarla müştəri gözləntisi, yalnız bayramlarda az-çox müşahidə edilən müştəri izdihamı avtovağzal yarmarkasının gündəlik mənzərəsidir.

Ancaq sahibkarların ümidi metronun "Avtoğzal" stansiyasının açılışına bağlanıb. Güman edilir ki, stansiyanın açılışı istər-istəməz vətəndaşları bura cəlb edəcək. Çünki "20 Yanvar" stansiyasında düşənlərin sayı azalacaq.

Sumqayıt, Xırdalan istiqamətinə gedənlər, həmçinin bölgələrə yola düşənlər artıq avtovağzala gəlmək üçün "20 Yanvar"da düşüb marşruta minməyəcək, birbaşa yeni stansiyaya gələcəklər. Bu hesablamaya görə, "Velotrek"dəki yarmarkada da işlər zəifləməlidir və müştəri axını bura olmalıdır. Ticarətçilər isə qeyd edirlər ki, proqnozlarla deyil, qazancla yaşayırlar.

"Mənim gündəlik qazancım yoxdursa, hansı stansiya nə vaxt açılacaq nəyimə lazımdır. Oturub gözləməliyəm ki, filan yerdə iş öləcək, bizim qazancımız artacaq. Onsuz da "Avtovağzal" stansiyası açılsa, bura işlək yer olacaq, ondan sonra da rəhbərlik yer haqlarını artıracaq. Bu bizə lazımdır ki? Başqa yol da qalmayıb. Burda elə ay olur heç nə qazanmırıq. Kimin başqa yerdə obyekti var, ordan qazanc götürür, buranı da gələcək üçün saxlayıb. Ancaq sizə deyim ki, kənardan baxanlar bilmirlər. Burda dükanların çoxu imkanı olanlara aiddir. Bəziləri də brend mağazalardır, bir filialını da burada açıb.



**Onu maraqlandırmır ki, iş nə gedir, hər yerdə şəbəkələr açırlar. Elə vəzifəli adamlar var ki, burda 3-4 obyekt alıb işlədirlər. Onları da ziyanla işləmək maraqlandırmır. Bir satıcı qoyub, ayda maaşını verir, yer haqqını ödəyir, vəssalam ,"-** deyə sahibkar İlkin bildirir.

**Sahibkarın dediyinə görə, bazarın bu günə kimi özünü birtəhər ayaq üstə saxlamasının sirri də məhz həmin məmurların obyekt alıb işlətməsidir: "Məmur var ki, şəhərin 10 yerində dükanı var. Hərəsindən aylıq gəliri gəlir, fikirləşir biri də avtovağzalda olsun. Nə vaxtsa iş gedər, burdan da yaxşı qazanc götürər. Ancaq bizi kimi aylıq icarə verənlərin işi ağırdır. Bir yandan yer pulu, o yandan iş getmir, evimizə də çörək aparmalıyıq. Bu dəqiqə camaatda pul da yoxdur, dükan da çoxdur".**

Yada salaq ki, AzadlıqRadiosu o zaman avtovağzal haqda araşdırma məqaləsi hazırlamışdı. Məqalədə qeyd olunmuşdu ki, təkcə ticarət mərkəzindəki mağazalardan yığılan yer haqları "Bakı XXI Əsr" şirkətinə il ərzində təxminən 2 milyon manat gəlir gətirir.

Sahibkarlar bu pulu "Bakı XXI Əsr"in ofisini işarə edərək dövlətə ödədiklərini deyirlər. Bu şirkət isə Elton Məmmədova məxsusdur və deputat AzadlıqRadiosuna açıqlamasında bunu dolayısı ilə təsdiqləmişdi. Hazırda kompleksdə 1500 mağaza var. Ancaq bu mağazaların heç də hamısı fəaliyyətdə deyil. Ticarətçilər söyləyirlər ki, ümumilikdə avtovağzal kompleksi uğursuz alındı. Burada xidmət göstərən hotelə, restoranlara da gələn yoxdur. Kəsəsi, nazirin "Titanik" ideyası məşhur filmdəki taleyi yaşamaqdadır...

**❑ E.SALAMOĞLU**

**Fotolar müəllifindir**

# "Vosmoy" bazarı satılır?

## Satıcılar xəbərin ciddiliyinə inanmır, ancaq...

**Paytaxt sakinlərinin ucuzluğuna görə daha çox üz tutduğu "Vosmoy" kimi tanınan "8-ci kilometr bazarı"nın satılması məsələsi yenidən gündəmə gəlib. Bu dəfə səbəb daha ciddi görünür.**

Belə ki, Əmlak Məsələləri Dövlət Komitəsi (ƏMDK) bazarın səhmlərinin 99,89 faizinin satılması üzrə investisiya müsabiqəsi elan edib. 514 min 981 ədəd səhmin satışı üzrə müsabiqəyə həm yerli, həm də xarici investorlar qatıla bilər. Müsabiqənin qalibi səhmlərə görə dövlət büdcəsinə ən azı 312 min manat köçürməlidir. Komitədən verilən məlumatda bildirilir ki, qaliblə səhmlərin alqı-satqısı haqqında müqavilə müsabiqənin nəticələrinin təsdiq olunduğu tarixdən etibarən 30 gündən gec olmayaraq imzalanmalıdır. Müsabiqə təklifləri 2015-ci il yanvarın 14-dək qəbul ediləcək və yanvarın 16-da qiymətləndiriləcək.

Biz də satıcıların və bazarın daimi alıcılarının bu məsləyə münasibətini öyrənmək üçün sözügedən bazara üz tutduq. Bazarda həmişə olduğu kimi, tünlük idi. Satıcı ilə mübahisə edib hansısa malın qiymətinə aşağı saldırmağa çalışan kim, "gəl ay müştəri, ən ucuz mallar burada" deyib müştəri çağıran kim...









Müştəri səsləyən satıcılardan birinə yaxınlaşıb bazarın satılacağı haqdakı söhbətlərdən agah olub-olmadığını soruşduq. **Adının Kamal Quliyev** olduğunu deyən satıcı 5 ildir ki, bazarın satılacağı ilə bağlı söhbətlərin olduğunu dedi: "Bazar satılan deyil. Hər il bu söhbəti ortaya atıb bizi panikaya salırlar. Biz işimizdəyik və boş-boş söhbətlərə inanmırıq".

**Paltar satıcısı Elvin Mehtiyev də bazar haqda gəzən söhbətlərdən xəbərsiz idi:** "Kim deyir satılır? Bu şayiədən başqa bir şey deyil. Bir dəfə də şayiə yayıldı ki, bazar Kürdəxanı tərəfə köçürələcək. Mən də yavaş-yavaş yığışırdım ki, köçəcəyik. Amma gördüyünüz kimi, hələ də burdayıq. Ona görə deyirəm ki, belə söhbətlərə inanmıram. Görsək ki, bizi uyğunsuz uzaq bir yerə köçürürlər onda yenə aksiya edərik. Hamımız uşaqlarımıza çörəyi buradan aparırıq".

**Satıcı Abbas Ağayev da bazarın satılması ilə bağlı xəbəri ciddiyə almadığını deyir:** "Bazarın satılıb-satılmamasının mənə heç bir dəxili yoxdur. Mən burada gündəlik yer haqqını verib malımı satıram. Satırlar özləri bilsinlər. Bura olmasın, başqa yer olsun. Bir yer götürüb malımı satacam. Amma illərdir ki, bazarı gah "satırıq" deyirlər, gah da "köçürürük". Hər il çıxan bu şayiələr gec-tez gerçək olacaq. Kim alır, kim satır Allah xeyir versin. Amma bizim çörəyimizə mane olmasınlar".

**Satıcı Arif isə bazarın satılmasının qəti əleyhinə olduğunu dedi:** "Biz bura öyrəşmişik. Müştərilərimiz buradadır. Uzağa köçürsələr müştərilərimizi itirəcəyik. Həm də bura yol qırağıdır, hamı bu bazara üz tutur".

**Bir neçə alıcının da fikrini aldıq. Alıcılardan bəziləri bazarın daha səliqəli bir yerə köçürülməsini istəsə də, bunun əksini arzulayanlar da az deyildi. Sevda Paşayeva deyir ki, bazarı uzağa köçürsələr onun üçün çətin olacaq:** "Mənim evim bura yaxındı. Ona görə də buradan bazarlıq etmək mənə sərf edir. Həm də qiymətlər ucuzdur. Bu bazar başqa yerə köçsə, qiymətlər bəlkə də bu qədər ucuz olmayacaq".

Digər alıcı Telman Süleymanov isə bazarda antisanitariyanın baş alıb getdiyini, buna görə də bazarın köçürülməsinin tərəfdarı olduğunu bildirdi: "Mən bu bazardan yalnız meyvə-tərəvəz alıram. Ət, toyuq kimi qidaları almıram. Çünki necə gəldi, antisanitariya şəraitində satırlar. Bir tərəfdə zibillikdir, o biri tərəfdə ərzaq. Təmiz, səliqəli bir yerə köçürsələr yaxşı olar".

**❑ Günel MANAFLI**

**Fotolar müəllifindir**

# YENİ MÜSAVAT

## Son səhifə

N 301 (6010) 10 dekabr 2014




## Qisas almaq istədi, sabiq sevgilisini vurdu

Sabiq sevgilisindən qisas almaq istəyən 36 yaşlı kişi ağır cinayət törədib. Milli.az "El Mundo"ya istinadən bildirir ki, olay Braziliyanın Parana ştatındakı Ponta-Qrossa şəhərində baş verib. “Hildebrando de Souza” həbsxanasının qarşısına toplaşan qadınlar bu həbsxanada cəza çəkən qohumları ilə görüşü gözləyirdilər. Bu zaman yolla çox böyük sürətlə hərəkət edən avtomobil qadınlardan birini vurub. Qadın çox ağır travmalar alıb və hospitala aparılıb. Onun durumu kritikdir. Qadını vuran şəxs tutulub. Onun sabiq sevgilisindən bu minvalla qisas aldığı bildirilir.



## Türmədən qaçmaq istədi, divara ilişdi

Braziliyada türmədən qaçmaq istəyən bir məhkum ilginc bir hadisənin qurbanı olub. Belə ki, o, türmənin divarları arasında ilişib. Rafaello Valadonun belə bir aqibətlə üzləşməsinin səbəbi onun kök bədəni olub. Hadisə Seris bələdiyyəsində, 3 dekabr tarixində baş verib. Həmin vaxt braziliyalı türmədən öz dostları ilə birgə qaçmaq istəyib. Qaçışı divarda açılmış deşiyin köməyi ilə gerçəkləşdirmək planlaşdırılıbmış. Məhkumlardan biri qaçmağa nail olub. Amma Valado deşiyə özünü salsa da, nə qabağa, nə də arxaya doğru hərəkət edə bilib. Nəticədə isə nə özü qaça bilib, nə də digər yoldaşları. Valado kömək istəyərək qışqırmağa başlayıb və onun köməyinə türmə işçiləri gəlib.

Bir neçə saatdan sonra nəhəng məhkum deşikdən çıxarılıb. Onu türməyə çağırılan yanğınsöndürən xidməti xilas edə bilib. Türmədən birinci qaçan şəxsi yaxalamaq hələ ki mümkün olmayıb.

# Qəhvənin ömrünə 70 il qalıb

**Qlobal iqlim dəyişiklikləri qəhvə pərəstişkarlarına da ağır zərbə vuracaq. İqlim şərtlərinin dəyişməsi “Arabica” növlü qəhvəni tam məhv edə bilər.**



Alimlərin dediklərinə görə, “Arabica” növündən olan qəhvə 2080-ci ildə yox olacaq. Londondakı Kral Nəbatat Bağının alimlərinin “Plus One”da dərc olunmuş hesabatında bildirilir ki, dəm qazının yaratdığı mənfi effektlər “Arabica” növlü qəhvənin 99,7 faizini tam məhv edəcək. Zəngin genetik fərqlərə malik “Arabica”nın yox olması dünya qəhvə istehsalatına böyük zərbədir.

Efiopiyada kəşf edilmiş ilk qəhvə ağacından alınmış “Arabica” növlü qəhvə ağacı ildə təxminən 5 kq meyvə verir. Həmin meyvələrdən 1 kq qəhvə çəyirdəyi əldə olunur.

# Evindən 5 yük maşını zibil çıxdı...

**Türkiyənin Ədirnə şəhərində yaşlı bir qadının yaşadığı bina evindən 5 yük maşını zibil çıxıb. 72 yaşlı Şahsene Bozkurda aid birinci mərtəbədəki evdən pis iylər gəldiyini deyən qonşular bununla bağlı şəhər bələdiyyəsinə şikayət edib. Bələdiyyə də evin təmizlənməsi üçün mütləq məhkəmə qərarı olmasının vacibliyinə toxunub. İki il əvvəl başlanan məhkəmə prosesi məhəllə sakinlərinin lehinə nəticələnib və bələdiyyə işçiləri qapını dəmirlə açıblar. Evdən qadının daha öncə zibil yeşiyindən götürdüyü qida maddələri, geyimlər, torba, kağız kimi maddələr çıxıb. Ev dezinfeksiya olunandan sonra oradakı pişik və quşlar da heyvanlar üçün xüsusi mərkəzlərə götürülüb. Ev sahibi Bozkurdun qonşusu Hüseyin Aydoğan isə deyib ki, yaşlı qadın evində illərdir zibil yığır.**

Qonşular deyir ki, ev təmizlənsə də, yaşlı qadın bundan sonra da zibil yığmağa davam edəcək. Çünki bu, onun hobbisidir. Yaxınları onun Qocalar Evinə aparılmasının tərəfdarıdır.






## Beş boşanmadan dördü facebook ucbatındandır

Türkiyədəki Haliç Universitetinin professoru Osman Özsoy apardığı araşdırmanın nəticələrini açıqlayıb. Onun sözlərinə görə, 7 il əvvəl olmayan sosial media hazırda bir çox ailələrin dağılmasına səbəb olur. Belə ki, hazırda 5 boşanmadan 4-ü facebook ucbatındandır. Professor açıqlayıb ki, ər-arvad arasında marağın itməsinə səbəb ailəyə çoxlu sayda “virtual qonaqların” daxil olmasıdır: “Bu qonaqlar eyni zamanda ərlə arvadı bir-birindən uzaqlaşdırır. Onların maraq dünyasını başqa istiqamətlərə yönləndirir. Ər-arvad bir-biri ilə maraqlanmaq əvəzinə facebookda yazılanlara üstünlük verir. Bu da qısqanclıq zəminində dava-dalaşların artmasını, nəticədə aradakı bağların qırılmasını sürətləndirir”.




**QOÇ** - Qarşınızda böyük perspektivlər durur. Hansı addım atacağınızdan asılı olan gələcək situasiyalar məsuliyyət hissinizi də artırmalıdır. Ağlınız kəsməyən işlərə ciddi yanaşmayın.

**BUĞA** - Əksər sahələrdə sevindirici hadisələrlə rastlaşma ehtimalınız var. Lakin bu yönümdə maliyyə məsələləri istisna təşkil edəcək. Hər halda, ovqatınıza mənfi təsir göstərən amil olmayacaq.

**ƏKİZLƏR** - İxtiyarınızda olan bu təqvim sizin üçün o qədər də rəngarəng keçməyəcək. Yaxın olduğunuz şəxslərlə münaqişəniz gözlənilir. Fəaliyyətinizlə bağlı xoşagəlməzliklər də mümkündür.

**XƏRÇƏNG** - Hər mənada əhəmiyyətli gündür. Bir tərəfdən çoxdan görmədiyiniz adamlarla rastlaşmağınız, digər tərəfdənsə qarşılıqlı münasibətlərdə rəvan davranışlar sizə rahatlıq bəxş edəcək.

**ŞİR** - Yaxşı olar ki, ağır fiziki işlərə ara verəsiniz. Əsas gücünüzü diplomatik görüşlərə həsr edin. Səhər saat 08:13-dən qədər mənfi enerjili Ay bürcünüzə daxil olduğu üçün səhhətinizi qorumalı, səfərə çıxmamalısınız.

**QIZ** - Astroloji göstəricilər saat 18-ə qədər uğurlu məqamlar yaşayacağınızı bəyan edir. Sonrakı müddəti isə neytral şəkildə başa vurun. Bu gün varlanma ehtimalınız böyükdür.

**TƏRƏZİ** - Əsas enerjinizi sevgi münasibətlərinə yönəldin. Çünki yeganə uğurunuz bu sahə ilə bağlı olacaq. Fəaliyyət zəminində isə hansısa irəliləyişi gözləməyə dəyməz. Yalan danışmayın.

**ƏQRƏB** - Bu gün sizə mütləq kimsə kənardan dəstək verməlidir. Yoxsa passivliyiniz aradan qalxmayacaq. Pulla bağlı problemlərinizin həllinə çalışın. İctimai yerlərdə çox görünməyin.

**OXATAN** - Ciddi sınaqlarla baş-başa qaldığınızı nəzərə alan ulduzlar hər hansı riskin yolverilməz olduğunu vurğulayır. Qərar çıxararkən mövcud vəziyyəti və imkanlarınızı göz önünə gətirin.

**OĞLAQ** - İstirahət haqqında düşünməyin. Çünki indiki məqamda bütün perspektivləriniz aktivliyinizdən asılıdır. Qarşıdakı həftədə görəcəyiniz işləri indidən planlaşdırın. Maraqlı görüşlər də labüddür.

**SUTÖKƏN** - Bəzi cəhdləriniz uğursuzluqla nəticələnsə də, buna görə qəmlənməyə dəyməz. Çünki Göy qübbəsi nahardan sonra sizə gözlənilməz sevinc bəxş edəcək. İşdə uğurlarınız mümkündür.

**BALIQLAR** - Ağır fiziki işlərə bir qədər ara verməyiniz tələb olunur. Əks təqdirdə, səhhətinizdə mənfi fəsadlar baş qaldıra bilər. Nahardan sonra şəxsi büdcənizi artırmaq üçün imkanlar qazanacaqsınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## İnsanın uzun yaşaması bu siçanın əlindədir



İngiltərəli alimlər uzun və gənc qalmağın növbəti sirrini tapıblar. Afrikada yaşayan tüksüz siçan növü ilə bağlı araşdırma aparan alimlər müəyyənləşdiriblər ki, normal siçan ölçüsündə olan bu gəmirici siçanlardan səkkiz dəfə çox yaşayır. Üstəlik, bu çılpaq yer siçanları artımlarını ölənə qədər davam etdirirlər. Bəs bu heyvanların uzun yaşamasının səbəbi nədir? Hazırda bütün dünyanın alimləri bu sualın cavabını axtarırlar. Çünki onu uzun yaşadan genin hansı olduğu müəyyənləşsə, bu, insanın ömrünü uzadacaq mümkün müalicələrə yenilərinin əlavə olunmasını təmin edəcək.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.400